RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 255 (9134) ÇƏRŞƏNBƏ, 23 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Bakı şəhər halqası "Formula-1"in ən gözəl treklərindən biridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də "Formula-1" Qrupunun İdarə Heyətinin sədri və prezidenti Stefano Domenikalini və "Formula-1" Qrupunun məsləhətçisi Flavio Briatoreni qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə "Formula-1" yarışlarının Azərbaycanda uğurla keçirilməsinin önəmi vurğulandı, dünyada bu yarışlara marağın getdikcə artdığı bildirildi və yarışları seyr etmək üçün ölkəmizə xeyli sayda turistlərin gəldiyi məmnunluqla qeyd olundu.

Dövlətimizin başçısı Azərbaycanın turizm potensialının hər il daha da genişləndiyini bildirdi.

"Formula-1" Qrupunun İdarə Heyətinin sədri və prezidenti Stefano Domenikali və "Formula-1" Qrupunun məsləhətçisi Flavio Briatore ölkəmizdə bu yarışların daha da inkişaf etməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini qeyd etdilər, yarışlara beynəlxalq və Azərbaycan ictimaiyyətini daha çox cəlb etməyə çalışdıqlarını dedilər. Onlar artıq dünyada çox tanınan Bakı şəhər halqasının "Formula-1" üzrə Dünya Çempionatının ən gözəl treklərindən biri olduğunu, bu yarışların keçirilməsi üçün Bakıda gözəl və müasir infrastrukturun yaradıldığını vurğuladılar.

Görüşdə ölkəmizə xaricdə böyük marağın olduğu nəzərə alınaraq "Formula-1" yarışlarını izləmək üçün çoxlu sayda tanınmış şəxslərin Azərbaycana dəvət olunması barədə fikir mübadiləsi aparıldı.

Stefano Domenikali və Flavio Briatore Bakı şəhərinin gözəlliyinin, təmizliyinin və işıqlandırma sisteminin onlarda xoş təəssürat yaratdığını qeyd etdilər və bununla bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırdılar. Onlar paytaxtımızın gözəlliyi barədə məlumatın beynəlxalq səviyyədə daha geniş yayılması üçün səylərini əsirgəməyəcəklərini vurğuladılar.

İşğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq layihələri ilə bağlı da dövlətimizin başçısını təbrik edən qonaqlar həmin ərazilərdə yol hərəkətinin təhlükəsizliyi istiqamətində görülən işlərin, xüsusilə minlərlə kilometr yeni avtomobil yollarının çəkilməsinin əhəmiyyətini bildirdilər.

## Heydər Əliyevlə başlanan, İlham Əliyevlə davam edən siyasət



## Vladimir Putin İlham Əliyevə zəng edib

Noyabrın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı Rusiya, Azərbaycan, Ermənistan liderləri arasında 2022-ci il oktyabrın 31-də Soçidə əldə olunmuş razılaşmaların, eləcə də üç ölkənin yüksək səviyyədə əvvəlki birgə bəyanatlarının praktiki olaraq icrası məsələləri nəzərdən keçirilib. Azərbaycan-Ermənistan sərhədində təhlükəsizliyin təmin olunması və Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpa edilməsi üzrə üçtərəfli formatda işin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Energetika sahəsində əməkdaşlığın inkişaf perspektivləri də müzakirə edilib.

***Prezidentin Mətbuat xidməti***

## Bu, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib

Heydər Əliyevin banisi olduğu müasir Azərbaycan dövləti bu gün regionda söz sahibi olan dövlətdir. Ölkəmiz həm də qlobal enerji təhlükəsizliyində aparıcı rol oynayır. Ən əsası, Azərbaycan dövləti malik olduğu enerji resursları ilə iqtisadi və sosial inkişafı sürətləndirdiyi kimi, özünün milli maraqlarını da qətiyyətlə təmin edir. Bu mənada Azərbaycan regionda öz sözünü deməklə yanaşı, qlobal miqyasda da ehtiramla qəbul olunan, prinsipial mövqeyi olan ölkədir.

Heydər Əliyevlə başlanan, İlham Əliyevlə davam etdirilən inkişaf siyasətinin mərkəzində dayanan əsas məsələlərdən biri torpaqlarımızın işğaldan azad edilməsi idi. Düzgün və qətiyyətli siyasət, Azərbaycanın yüksəlişi, beynəlxalq mövqelərini daha da möhkəmləndirməsi nəticə etibarilə torpaqlarımızın da işğaldan azad olunmasını təmin etdi. Vətən müharibəsində qazanılan qələbə Azərbaycanın tarixinin ən qüdrətli dövləti olmasının praktik təsdiqidir.

İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan Ulu Öndərin etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Bu inkişaf hər bir azərbaycanlının qürur mənbəyidir. Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng bərpa və yenidənqurma işlərinin timsalında dünya bir daha Azərbaycanın qüdrətinə, iradəsinə şahidlik edir.

→ 7

## Azərbaycanla İsrail dost ölkə və strateji tərəfdaşdırlar



Noyabrın 22-də İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İsxak Hersoq İsraildə Azərbaycan səfirliyinin açılması barədə qərara görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib və qeyd edib ki, bu, İsrail üçün mühüm dost ölkə və strateji tərəfdaş olan Azərbaycanla çox gözəl münasibətlərdə irəliyə doğru böyük bir addımdır.

Prezident İlham Əliyev telefon zənginə görə İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa minnətdarlığını bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, İsraildə Azərbaycan səfirliyinin açılması barədə qərar iki ölkə arasında dostluq əlaqələrini daha da gücləndirir.

Telefon söhbəti zamanı İsrail-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri müzakirə edilib, gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat xidməti***

## Taxıl idxalını minimuma endirmək üçün...

Mövcud imkanlardan və dövlətin dəstəyindən maksimum istifadə olunmalıdır

→ 7

## Narkotik satışı, oğurluq, sərnişinlərə qeyri-etik təkliflər...

Paytaxtda taksi sürücüləri arasında keçirilən reyd zamanı bu qanun pozuntuları müəyyən edilib

→ 8

## Türkiyənin antiterror əməliyyatı davam edir

Hulusi Akar ilin əvvəlindən bəri 3585 terrorçunun zərərsizləşdirildiyini bəyan edib

→ 8

## Daha bir qrup ağalılı Yeni ili Zəngilanda qarşılayacaq



→ 8

## ƏRƏB BAHARI

### Argentina şokdadır



Futbolda taktika, oyun planı və s. çox vacib məsələlərdəndir. Ancaq əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq inadkarlığı komandaları qarşılaşmaya daha fərqli motivasiya edir. Dünən qalib gələn ərəblərdə məhz bunun şahidi olduq.

→ 10

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Bakı şəhərində keçirilən "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi - Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır, konfransın işinə uğurlar arzulayıram.

ICAPP Asiya regionunda 370-dən çox siyasi partiyanı bir araya gətirən nüfuzlu beynəlxalq təşkilat olaraq, dövlətlərin aparıcı siyasi partiyaları səviyyəsində aktual regional və qlobal məsələlərin müzakirə edildiyi, fikir və təcrübə mübadiləsinin aparıldığı əhəmiyyətli platformadır. ICAPP-ın yaratdığı geniş diskussiya mühitinin əhatə dairəsi təkcə Asiya ilə məhdudlaşmır, onun tədbirlərində müntəzəm olaraq Afrika, Avropa və Latın Amerikası ölkələri siyasi partiyalarının da təmsilçiləri iştirak edirlər.

Beynəlxalq münasibətlər sistemində ciddi təlatümlərlə müşayiət olunan yeni dünya nizamının formalaşdığı hazırkı dövrdə siyasi partiyaların və beynəlxalq təşkilatların müxtəlif səviyyələrdə öz mövqelərini və hadisələrə təsir imkanlarını yenidən dəyərləndirmələrinə ehtiyac yaranmışdır.

Dövlətlərin üzləşdikləri müasir qlobal çağırışlar arasında sülh və təhlükəsizlik problemləri beynəlxalq münasibətlərin bütün sahələrinə və iştirakçılarına təsir göstərən ən aktual məsələlərdəndir. Bu həm də 2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində uzun illər məruz qaldığı hərbi təcavüzə son qoyaraq ərazilərini işğaldan azad etməklə BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddət ərzində icra edilməyən dörd qətnaməsinin tələblərini həyata keçirmiş Azərbaycan, eləcə də bütün Cənubi Qafqaz regionu üçün həssas və prioritet məsələdir.

Tarixi təcrübə göstərir ki, münaqişələr əbədi davam edə bilməz. Azərbaycanla Ermənistan arasında da beynəlxalq hüquqa, ədalət prinsipinə əsaslanan sülhün, təhlükəsizliyin təmin edilməsi dövrün və zamanın tələbidir. Bu baxımdan siyasi partiyaların beynəlxalq sülhə və təhlükəsizliyə töhfə vermək məqsədilə bilik və təcrübələrinin mübadiləsi, əməkdaşlıq imkanlarının genişləndirilməsi təqdirəlayiqdir.

Bugünkü tədbirin Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi ilə eyni vaxtda keçirilməsi əlamətdar hadisədir və öz yubileyini dost siyasi partiyalarla birlikdə qeyd edən YAP-ın beynəlxalq əməkdaşlığa, xarici tərəfdaşlara verdiyi önəmin göstəricisidir.

Ümidvaram ki, Yeni Azərbaycan Partiyasının evsahibliyi ilə keçirilən bu konfrans çərçivəsində faydalı və məhsuldar müzakirələr aparılacaq, bölgədə, eləcə də dünyada sülhün, təhlükəsizliyin təşviqində siyasi partiyaların fəallığının artırılması sahəsində səmərəli istiqamətlər müəyyənləşdiriləcəkdir.

Belə bir məqsədə xidmət edən fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2022-ci il*

# Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 4,23 milyon (dörd milyon iki yüz otuz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2022-ci il*

# İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının ikiillik fəaliyyətinin yekunlarına dair iclası keçirilib



Noyabrın 22-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın ikiillik fəaliyyətinin yekunlarına həsr olunan iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə qərargahın ötən ikiillik fəaliyyətinin qiymətləndirilməsi və qarşıda duran yeni vəzifələr, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın icrası ilə bağlı məsələlər, habelə əhalinin Laçın şəhəri, Zabux və Sus kəndləri də daxil olmaqla işğaldan azad edilmiş ərazilərə tezliklə qayıdışı ilə bağlı dövlət başçısının tapşırıqlarının icrasına dair son vəziyyət və digər məsələlər daxil edilib.

İclası giriş sözü ilə açan qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı, o cümlədən Laçın və Şuşa şəhərlərindəki son çıxışlarından irəli gələn tapşırıqlara toxunub. Qərargahın ötən ikiillik fəaliyyətinin nəticələrindən irəli gələrək, keyfiyyət, səmərəlilik, operativlik və dayanıqlılıq prinsiplərinin daim rəhbər tutulmasının, qurumlararası əlaqələndirmə və əməkdaşlığın daha da gücləndirilməsinin, hər bir layihə ilə bağlı hərtərəfli planlaşdırma, proqnozlaşdırma və risklərin qiymətləndirilməsi işinin aparılmasının, habelə görülən işlərlə bağlı səmərəli nəzarət və monitorinq mexanizmlərinin əhəmiyyəti vurğulanıb.

Qərargahın rəhbəri ekosidə, urbisidə və etnosidə məruz qalmış ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə öz daxili imkanları ilə postkonflikt quruculuğunun dünya üçün nümunə olan uğurlu bir modelini ortaya qoyduğunu qeyd edib.

Sonra iclasda Əlaqələndirmə Qərargahının gündəliyində dayanan cari məsələlərlə bağlı məruzələr dinlənilib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın icrası ilə bağlı qarşıda duran vəzifələr, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq Laçın şəhərinə, Zabux və Sus kəndlərinə əhalinin 2023-cü il ərzində qayıdışı istiqamətində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, dövlət başçısının göstərişlərinə uyğun olaraq, Laçın ərazisinə dərhal bir neçə işçi qrupu ezam edilib və ərazidə minadan təmizləmə, inventarlaşdırma, ilkin qiymətləndirmə və layihələndirmə işlərinin ardınca genişmiqyaslı yenidənqurma və bərpa işləri artıq başlanılıb.

Həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nın icrası, ərazidə dayanıqlı enerji sisteminin qurulması, enerji və istilik təminatı məsələləri barədə məruzələr təqdim edilib.

İclasın gündəliyinə uyğun olaraq, ərazilərdəki şəhərsalma məsələləri və planlaşdırma sənədlərinin hazırlanması ilə bağlı işlərin cari vəziyyəti müzakirə edilib, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri müvafiq ərazilərdə həyata keçirilən layihələrin icrasının gedişatı barədə məlumat veriblər.

Sonda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

# "Əziz Şuşa, sən azadsan!" inşa müsabiqəsinin qalibləri mükafatlandırılıb





Noyabrın 22-də Elm və Təhsil Nazirliyinin şagirdlər arasında təşkil etdiyi "Əziz Şuşa, sən azadsan!" inşa müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Baş nazirin müavini Əli Əhmədov 44 günlük Vətən müharibəsində qazanılan qələbənin dövlətimizin qüdrətinin ifadəsi olduğunu vurğulayıb. Baş nazirin müavini qeyd edib ki, Prezident İlham Əliyevin "Əziz Şuşa, sən azadsan!" ifadəsi bugünkü və gələcək nəsillərə bir çağırışdır. Müsabiqədə qalib gələn şagirdləri, onların valideyn və müəllimlərini təbrik edən Əli Əhmədov belə tədbirlərin şagirdlərin vətənpərvərlik ruhunda yetişməsində əhəmiyyətli rol oynadığını vurğulayıb.




Daha sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, "Əziz Şuşa, sən azadsan!" inşa müsabiqəsi 44 günlük Vətən müharibəsində qazanılan zəfər barədə şagirdlərin öz düşüncələrini qələmə alması, həmçinin onların Azərbaycan dilində yazı bacarıqlarının inkişaf etdirilməsi məqsədi daşıyır.

İşğaldan azad edilmiş ərazilərdə təhsil sahəsində görülən işlərdən danışan Emin Əmrullayev hazırda burada bərpa-quruculuq işlərinin davam etdirildiyini və müasir standartlara uyğun məktəblər tikildiyini qeyd edib. Çıxışının sonunda Emin Əmrullayev müsabiqə qaliblərini təbrik edərək onlara uğurlar arzulayıb.

Tədbirdə Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi Röya Səfərzadə təəssüratlarını bölüşüb.

Sonda "Əziz Şuşa, sən azadsan!" inşa müsabiqəsinin qaliblərinə mükafatlar təqdim olunub.

Qeyd edək ki, müsabiqənin nəticələrinə əsasən, 5 nəfər I, 10 nəfər II, 15 nəfər isə III yerə layiq görülməklə, ümumilikdə 30 şagird qalib elan edilib.

# Hərbi Prokurorluqda keçirilmiş görüşdə itkin düşmüş şəxslərlə bağlı görülmüş işlər müzakirə olunub

Noyabrın 22-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş başçısı xanım Draqana Koiclə görüş keçirilib.



Görüşdə Ermənistan-Azərbaycan münaqişəsi dövründə itkin düşmüş şəxslərlə bağlı görülmüş işlər müzakirə olunub.

Bu barədə Hərbi Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Görüşdə Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev yeni təyinat münasibətilə Draqana Koici təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb və qarşılıqlı fəaliyyətin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini ifadə edib. Bildirib ki, müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin sayəsində dövlətimiz qüdrətlənir, işğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla, regionumuz hərtərəfli inkişaf edir və əhalinin rifahı daha da yaxşılaşdırılır. Qazanılan ardıcıl uğurlarda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Bundan sonra, hərbi prokuror Xanlar Vəliyev Azərbaycan ilə BQXK arasında ikitərəfli münasibətlərə toxunaraq, bu əlaqələrin yüksək səviyyədə və uğurla inkişaf etdiyini vurğulayıb. Qarabağ münaqişəsi zamanı əsir və itkin düşmüş, saxlanılan şəxslərin və meyitlərin qaytarılması prosesində komitə tərəfindən zəruri köməyin göstərilməsinə görə təşəkkürünü bildirib.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev həmçinin ermənilərin ərazilərimizdə basdırdıqları minalardan, onun bu günə qədər davam edən acı fəsadlarından bəhs edərək qonaqların diqqətini bu məsələyə də cəlb edib.

Komitənin Azərbaycandakı nümayəndəliyinin başçısı Draqana Koic göstərilən səmimi münasibətə görə minnətdarlığını ifadə edərək, qarşılıqlı işgüzar əlaqələrin bundan sonra da uğurla davam edəcəyinə əmin olduğunu bildirib.

Görüşdə birgə səmərəli fəaliyyət, görülmüş işlər, qarşıda duran vəzifələr, eləcə də bir sıra digər məsələlər müzakirə olunub və faydalı fikir mübadiləsi aparılıb.

# Aşkarlanmış minalarla bağlı sülhməramlılar və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi məlumatlandırılıb

Sarıbaba yüksəkliyinin şimal istiqamətində qanunsuz erməni silahlı dəstələri tərəfindən basdırılmış piyada əleyhinə mina sahəsi barədə Rusiya sülhməramlılarının komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi məlumatlandırılıb.

Həmçinin mina sahəsinə baxış keçirilməsi üçün əraziyə dəvət olunublar.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Qeyd edək ki, noyabrın 21-də Sarıbaba yüksəkliyinin şimal istiqamətində Ermənistanda istehsal edilmiş piyada əleyhinə mina sahəsi aşkarlanıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev noyabrın 22-də Göygöl şəhərində vətəndaşları qəbul edib.

Vətəndaş qəbulunda Samux, Daşkəsən, Göygöl, Xocalı, Şəmkir, Gədəbəy, Kəlbəcər rayonlarının, həmçinin Gəncə və Naftalan şəhər sakinləri iştirak ediblər.

Qəbul zamanı vətəndaşların nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərinə baxılıb. Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal həllini tapıb.

RİNN-in fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

* * *

Noyabrın 22-də baş prokuror Kamran Əliyev Sumqayıt Şəhər Prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Qubadlı və Abşeron rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 53 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

# Milli Məclisin Sədri Sahibə Qafarova ASEAN Parlamentlərarası Assambleyasının (APA) 43-cü Baş Assambleyasının birinci plenar iclasında çıxış edib





**Milli Məclisin Sədri Sahibə Qafarova Kamboca Krallığına səfəri çərçivəsində ASEAN Parlamentlərarası Assambleyasının (APA) 43-cü Baş Assambleyasının birinci plenar iclasında çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Azərbaycan parlamenti adından Baş Assambleyada iştirak edən bütün parlament nümayəndə heyətlərini salamlayaraq, Kamboca Krallığının Milli Assambleyasının Sədri, ASEAN Parlamentlərarası Assambleyasının Prezidenti Henq Samrinə 43-cü Baş Assambleyaya dəvətinə və qonaqpərvərliyinə görə təşəkkür edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan Cənub-Şərqi Asiya ölkələri ilə münasibətlərinə böyük əhəmiyyət verir və onlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da dərinləşməsinə çalışır. O, ASEAN-a üzv dövlətlərin parlamentariləri ilə əlaqələrin möhkəmləndirilməsinin mövcud münasibətlərə mühüm ölçü qatacağına, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət göstərəcəyinə, sülh, həmrəylik və davamlı inkişafa kömək edəcəyinə əminliyini bildirib.

Sahibə Qafarova deyib ki, Cənubi Qafqaz regionunda Şərqlə Qərbin kəsişməsində yerləşən Azərbaycan qədim dövlətçilik ənənələrinə malikdir. Bu ənənələrə əsaslanaraq, Azərbaycan xalqı 1918-ci ildə müsəlman Şərqində ilk demokratik parlament respublikasını yaratdı. Elə həmin il Qərb ölkələrinin əksəriyyətini qabaqlayan Azərbaycan qadınlara səsvermə hüququ verdi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay davam etdi. Nəhayət, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa edə bildi və bu, ölkəmizin tarixində yeni dövrün başlanğıcı oldu.

Bu gün Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan müstəqil siyasət aparır. Bərabərlik, qarşılıqlı etimad və faydalı əməkdaşlıq ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafının ən vacib elementləridir. Azərbaycan enerji təhlükəsizliyinə töhfə verən və Şərqlə Qərbi birləşdirən nəqliyyat layihələrini həyata keçirən etibarlı tərəfdaşdır. Azərbaycan müxtəlif dini və etnik qrupların əsrlər boyu sülh və dostluq şəraitində birlikdə yaşadığı ölkədir. Multikulturalizm bizim xalqımız üçün həyat tərzidir. Müxtəlif mədəniyyətlərə, dinlərə və irqlərə hörmət Azərbaycan xalqının mənəvi dəyərlərinin ayrılmaz hissəsidir.

Milli Məclisin Sədri qeyd edib ki, beynəlxalq birliyin məsuliyyətli üzvü olan Azərbaycan qlobal sülhə, əməkdaşlığa və inkişafa töhfə vermək üçün əlindən gələni edir. Bu gün Azərbaycan COVID-19 kimi ümumi problemlərin həllində qlobal həmrəyliyin gücləndirilməsi üçün irəli sürdüyü təşəbbüslərlə BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına uğurla sədrlik edir.

Azərbaycan Respublikasının Prezidenti zatiailiəri cənab İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi hərəkatın parlament ölçüsünün inkişaf etdirilməsi təşəbbüsünü irəli sürdüyünü qeyd edən spiker bunu ölkəmizin parlamentlərarası əməkdaşlığın qlobal miqyasda əhəmiyyətinə verdiyi önəmin sübutu kimi qiymətləndirib. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi 2021-ci ilin noyabrında Madriddə təsis olunub və ilk Bakı konfransını bu ilin iyun ayında Azərbaycanda keçirib. Sahibə Qafarova Parlament Şəbəkəsinin sədri olaraq bildirib ki, Parlament Şəbəkəsi AİPA da daxil olmaqla digər parlament təşkilatları ilə fəal əlaqə quraraq ümumi hədəflərə töhfə verməyə hazırdır.

Spiker diqqətə çatdırıb ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın Ermənistanın işğalı altında idi. Təəssüf ki, beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən çoxsaylı qətnamə və qərarları yerinə yetirilmədi.

Ermənistan bu ərazilərdə etnik təmizləmə aparıb, nəticədə bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Birinci Qarabağ müharibəsindən sonra təxminən 4 min Azərbaycan vətəndaşı hələ də itkin düşüb. İşğal illərində Ermənistan bütün şəhər və kəndlərimizi qəsdən dağıdıb, Azərbaycanın tarixi, mədəni və dini abidələrinə qarşı vandalizm aktı törədib. Vaxtilə Qarabağın ən böyük şəhəri olan Ağdam o dərəcədə dağıdılıb ki, beynəlxalq ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar.

2020-ci ildə Azərbaycan öz ərazi bütövlüyünü, beynəlxalq hüquq normalarını və tarixi ədaləti bərpa etdi, BMT TŞ-nin qətnamələrini özü icra etdi. İndi biz bu ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlamışıq. Azad edilmiş ərazilər "yaşıl enerji" zonası elan edilib. "Ağıllı şəhər" və "ağıllı kənd"lər tikilir. İnfrastruktur və nəqliyyat layihələri icra edilir. Zəngəzur dəhlizinin açılması isə regionun nəqliyyat potensialını əhəmiyyətli dərəcədə artıracaq. Hazırda keçmiş məcburi köçkün ailələri artıq evlərinə qayıtmağa başlayıblar. Ancaq bu prosesin həyata keçirilməsinə ciddi maneələr var. Onlardan biri də ondan ibarətdir ki, Ermənistan bu ərazilərdə 1 milyondan çox mina basdırıb. İki il bundan əvvəl İkinci Qarabağ müharibəsi başa çatandan bəri minaların partlaması nəticəsində 270-ə yaxın azərbaycanlı həlak olub və ya ağır yaralanıb.

Milli Məclisin Sədri çıxışının sonunda diqqətə çatdırıb ki, Azərbaycan işğalın qurbanı olsa da, regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması üçün səylər göstərən və Ermənistana beynəlxalq hüququn 5 prinsipi əsasında münasibətlərin normallaşdırılmasını və sülh sazişinin imzalanmasını təklif edən ölkədir. Lakin Ermənistan destruktiv mövqe nümayiş etdirərək bu prosesə mənfi təsir göstərən ziddiyyətli bəyanatlar verir. Ermənistan bu cür hərəkətlərdən çəkinməli və sülh sazişinin imzalanması üçün real addımlar atmalıdır. Çünki bu, regionda uzunmüddətli sülh və sabitliyi təmin etməyin yeganə yoludur.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Kambocada bir sıra ölkələrin parlament rəhbərləri və ASEAN PA-nın baş katibi ilə görüşlər keçirib

**Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova ASEAN Parlamentlərarası Assambleyasında (APA) iştirak etmək məqsədilə Kamboca Krallığında səfərdədir. Azərbaycan parlamentinin spikeri səfər çərçivəsində noyabrın 22-də bir sıra ölkələrin parlament rəhbərləri, həmçinin APA-nın baş katibi ilə görüşlər keçirib.**









Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Tailand Krallığı Milli Assambleyası və Nümayəndələr Palatasının Sədri Çuan Likpay, Sinqapur Respublikası Parlamentinin Sədri Tan Çuan-Jin, Nepal Federal Demokratik Respublikası Milli Assambleyasının Sədri Qaneş Prasad Timilsina və APA-nın baş katibi Nquyen Tuonq Van ilə keçirilən görüşlərdə Milli Məclisin Sədri Sahibə Qafarova bu kimi parlament platformalarının görüşmək, dialoqu davam etdirmək, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək baxımından yaxşı imkan olduğunu bildirib. Azərbaycanın beynəlxalq əməkdaşlıq məsələlərinə böyük diqqət göstərdiyini bildirən spiker Sahibə Qafarova deyib ki, ölkəmiz qlobal sülhə, əməkdaşlığa və inkişafa töhfə verən mühüm təşəbbüslərlə çıxış edir. Milli Məclisin Sədri xüsusilə Azərbaycanın BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrliyi haqqında məlumat verib. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Sədri kimi hərəkatın parlament ölçüsünün inkişaf etdirilməsi təşəbbüsünü irəli sürüb və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi 2021-ci ilin noyabrında Madriddə təsis olunub. Onun ilk konfransı bu ilin iyun ayında Bakıda keçirilib. Bildirilib ki, Bakı konfransında 40-dan çox ölkə və 8 beynəlxalq təşkilatın nümayəndələri iştirak edib. Konfrans zamanı Bakı Bəyannaməsi, Parlament Şəbəkəsinin Əsasnaməsi, həmçinin təşkilatın rəsmi loqosu və bayrağı qəbul edilib. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin növbəti konfransının gələn ilin martında Manamada keçirilməsi planlaşdırılır. Görüşlərdə tədbirə hazırlıq məqsədilə görülən işlər barədə məlumat verilib.

Görüşlərdə həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığın vacibliyi vurğulanıb, Azərbaycanın bu təşkilatın institusional inkişafı istiqamətində addımları barədə danışılıb.

Söhbətlər zamanı Milli Məclisin Sədri həmçinin ölkəmizin 2020-ci ildə Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərini azad etməsi və öz ərazi bütövlüyünü bərpa etməsi, münaqişənin həllindən sonra bölgədə yaranmış yeni vəziyyət, həmçinin hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan böyük quruculuq və bərpa işləri barədə ətraflı məlumat verib.

Spiker Sahibə Qafarova Azərbaycan Milli Məclisinin ASEAN Parlamentlərarası Assambleyasında müşahidəçi statusu alması ilə bağlı müraciətinə dərhal cavab verilməsinə və dəstəklənməsinə görə, bu təşkilatın rəhbərliyinə, o cümlədən Sinqapur və Tailanda minnətdarlığını bildirib.

O, həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri kimi diqqətə çatdırıb ki, Parlament Şəbəkəsi ASEAN PA da daxil olmaqla, digər parlament təşkilatları ilə fəal əlaqə quraraq ümumi hədəflərə töhfə verməyə hazırdır.

Azərbaycan Milli Məclisinin Sədri ilə görüşdə Tailand Krallığı Milli Assambleyası və Nümayəndələr Palatasının sədri Çuan Likpay spiker Sahibə Qafarovanın assambleyadakı çıxışına diqqətlə qulaq asdığını və Azərbaycan haqqında, həmçinin Azərbaycanla Ermənistan arasında münasibətlər barədə ətraflı məlumat əldə etdiyini bildirib. O, deyib ki, coğrafi uzaqlığa baxmayaraq, onun ölkəsi parlamentlərarası əlaqələrimizi daha da inkişaf etdirmək istəyir. Dostluq qrupunun yaradılması münasibətlərimizin daha da dərinləşməsinə töhfə verə bilər. Çuan Likpay həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyətində iştirak etməkdə maraqlı olduqlarını diqqətə çatdırıb.

Sinqapur Respublikası Parlamentinin Sədri Tan Çuan-Jin bu cür tədbirlərin əməkdaşlıqla bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsət olduğunu bildirib, ölkəsinin beynəlxalq əməkdaşlıq məsələlərinə böyük önəm verdiyini qeyd edib. O, həmçinin Azərbaycan Milli Məclisi ilə əlaqələrin inkişafında maraqlı olduqlarını bildirib.

Nepal Federal Demokratik Respublikası Milli Assambleyasının Sədri Qaneş Prasad Timilsina isə Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi haqqında fikirlərini bölüşüb. O, deyib ki, Azərbaycanın hərəkata uğurla sədrliyi onun fəaliyyətinin səmərəliliyini daha da artırır. O, həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsünə görə Azərbaycanı təbrik edib. Qeyd edib ki, Nepal Parlament Şəbəkəsi çərçivəsində fəaliyyətini daha da gücləndirəcək.

ASEAN PA-nın baş katibi Nquyen Tuonq Van təşkilatın fəaliyyəti barədə geniş məlumat verib. O, deyib ki, adətən, parlamentlərin təşkilata müşahidəçi statusu almaq üçün müraciətinə 2-3 il ərzində baxılır. Lakin Azərbaycanın müraciətinə dərhal müsbət cavab verilib və Milli Məclis ASEAN PA-da müşahidəçi ölkə statusu alıb.

Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*



# Azərbaycan Asiyada faydalı əməkdaşlığın uğurlu platformasına çevrilir

## Bakıda ICAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransı keçirilib






Noyabrın 22-də Bakıda Yeni Azərbaycan Partiyasının (YAP) evsahibliyi ilə Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransı keçirilib.




YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbirdə açılış nitqi ilə çıxış edərək konfrans iştirakçılarını Yeni Azərbaycan Partiyası və şəxsən öz adından səmimi salamlayıb, "Azərbaycana xoş gəlmisiniz" deyib: "Təşəbbüsümüzü və təklifimizi qəbul edərək ICAPP-ın xüsusi konfransının Bakıda keçirilməsinə razılıq verdikləri üçün ICAPP-ın rəhbərliyinə təşəkkürümü bildirirəm. Dəvətimizi qəbul edib ölkəmizə səfər edən və bugünkü tədbirdə iştirak edən müxtəlif ölkələrin nüfuzlu siyasi partiya mənsublarına səmimi minnətdarlığımı ifadə edirəm. Biz dünən Yeni Azərbaycan Partiyasının həyatında əlamətdar hadisə olan 30 illik yubileyi sizinlə birlikdə qeyd etdik. Fürsətdən istifadə edərək, bizim yubiley tədbirinə qatıldığınız və bizim sevincimizi bölüşdüyünüz üçün sizin hər birinizə hörmət və ehtiramımı bildirirəm".

Tahir Budaqovun sözlərinə görə, qloballaşan dünyamızda, təəssüflər olsun ki, qarşıdurmalar, insanların həyatı üçün ciddi təhlükələr sürətlə artır: "Belə bir zamanda, hesab edirəm ki, dialoqa, birgə müzakirələrə, əməkdaşlığa daha çox ehtiyac var. Çünki müharibələrə, münaqişələrə silah gücü ilə deyil, məhz qarşılıqlı anlaşma şəraitində dialoq yolu ilə son qoymaq, sülhə, barışığa nail olmaq mümkündür. Yüksək diqqətinizə çatdırmaq istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bölgədə sabitliyin bərqərar edilməsi, Cənubi Qafqaz regionunda və bütövlükdə dünyada möhkəm sülhə, qarşılıqlı əməkdaşlığa nail olunması istiqamətində çox işlər görülüb və bu gün də görülməkdədir. Müxtəlif dini konfessiyaların, çoxsaylı millətlərin uzun illər əmin-amanlıq şəraitində rahat yaşadığı Azərbaycanda sülh, barışıq, tolerantlıq dövlətin ən prioritet məsələsi olmaqla yanaşı, həm də tarixi sərvəti hesab edilir. Bizim hamımızın vahid evi olan Yer kürəsini qorumağın, dövlətlər və xalqlar arasında möhkəm sülhə nail olmağın, insanlara təhlükəsiz, rahat həyat bəxş etməyin yeganə yolu ambisiyalardan, cılız hisslərdən uzaq olan qarşılıqlı əməkdaşlıq, bir-birinə hörmət və səmimi münasibətdir. Yalnız birgə fəaliyyət yolu ilə dünyamızın siyasi atmosferini saflaşdıra, onu sağlamlaşdıra və gözəlləşdirə bilərik. Gələcək nəsillər qarşısında məsuliyyətimiz də bunu tələb edir. Hesab edirəm ki, xalqların, dövlətlərin müqəddəratı ilə bağlı bu vacib məsələyə beynəlxalq ictimaiyyət, eləcə də ölkələrin aparıcı siyasi partiyaları da mühüm töhfə verə bilər. Bizim konfransımızın mövzusu da təsadüfən seçilməyib, təhlükəsizlik və əməkdaşlıq məsələsi çağdaş dövrümüzlə və onun tələbləri ilə tamamilə həmahəngdir".

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Azərbaycanın uzun illər Ermənistanın hərbi təcavüzünə məruz qaldığını xatırladıb: "Təəssüflər olsun ki, ikili standartlı yanaşma səbəbindən BMT Təhlükəsizlik Şurasının münaqişəyə son qoyulması və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnaməsi icra edilməmiş, sadəcə kağız üzərində qalmışdır. Həmişə sülhün, barışığın tərəfdarı olmuş ölkəmizin bu münaqişənin danışıqlar yolu ilə həllinə davamlı cəhdləri də müsbət nəticələnməmişdir. Əksinə, müxtəlif bəhanələrlə danışıqlardan boyun qaçıran Ermənistan yeni torpaq iddiaları irəli sürərək vəziyyəti daha da mürəkkəbləşdirməyə davam etmişdir. Buna görə də 2020-ci ildə Azərbaycan Ordusu Ermənistanın növbəti hərbi təxribatının qarşısını almaq məqsədilə əks-hücum əməliyyatına başlayaraq 44 gün ərzində işğala son qoyaraq torpaqlarımızı azad etdi. Azərbaycan beynəlxalq hüquq prinsiplərinə istinad edərək həm tarixi ədaləti bərpa etdi, həm də BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrasını təmin etdi. Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli Bəyanat iki ölkə arasında sülhün əldə olunmasına zəmin yaratmışdır. Lakin Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır. Düşünürəm ki, bugünkü konfransımız da Cənubi Qafqazda davamlı əməkdaşlıq yolu ilə sülhün və təhlükəsizliyin təmin edilməsinə yönəlmiş səylərə beynəlxalq ictimaiyyətin dəstəyini gücləndirəcəkdir".

Tahir Budaqov əmin olduğunu söyləyib ki, konfrans yüksək işgüzar fəallıq, məhsuldar müzakirələr şəraitində keçəcək, iştirakçıların mövzu ilə bağlı sanballı, konkret təklifləri ilə seçiləcək və hazırda dünyamızda ən həssas məsələ olan sülhyaratma və sülhənailolma proseslərinə öz layiqli töhfəsini verəcək: "İnanıram ki, ümumilikdə Bakı konfransı Asiyanın 370-dən artıq siyasi partiyasını öz ətrafında birləşdirən ICAPP ailəsi üçün əlamətdar və yaddaqalan bir tədbir olacaq. Əziz dostlar, sizi bir daha səmimi salamlayır, konfransımızın işinə və hər birinizə uğurlar arzulayıram".

Sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına məktubunu oxuyub.

ICAPP-ın Daimi Komitəsinin həmsədri, Koreya Respublikasının sabiq xarici işlər naziri, Milli Təhlükəsizlik Ofisinin keçmiş direktoru Çunq Eu-yonq videoformatda çıxış edərək konfrans iştirakçılarını salamlayıb, Yeni Azərbaycan Partiyasına ICAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusuna həsr olunmuş xüsusi konfransına evsahibliyi etdiyinə görə təşəkkürünü bildirib. O, ICAPP adından Azərbaycan dövlətinə və xalqına YAP-ın 30 illiyi münasibətilə təbriklərini çatdırıb.

Çunq Eu-yonq qeyd edib ki, Azərbaycan regionun aparıcı dövlətinə çevrilmişdir. Qazanılan uğurlar Heydər Əliyevin gələcəyə baxışı, cəsarəti və öz xalqına inamı nəticəsində mümkün olub. Eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətləri çox yüksək qiymətləndiririk.

YAP-ın ICAPP-ın önəmli tədbirlərinə evsahibliyi etdiyini deyən Daimi Komitənin həmsədri xatırladıb ki, bunun nəticəsində ICAPP gələcəyə baxışını daha da genişləndirib və Asiya cəmiyyətlərini stabillik, harmoniya və inkişafa səsləyə bilib. Bugünkü konfransın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusuna həsr edilməsi çox düzgün qərardır. O, söyləyib ki, dünyada təhlükəsizliyə təhdid yaradan hallara qarşı ciddi mübarizə aparılmalı və problemlər beynəlxalq miqyasda danışıqlar vasitəsilə həll olunmalıdır. Təhlükələrin qarşısını almaq və sülhün bərqərar olması üçün dialoq və diplomatiya yeganə və ən yaxşı yoldur. ICAPP-ın Daimi Komitəsinin həmsədri diqqətə çatdırıb ki, heç bir dövlət mövcud çətinliklərə təkbaşına cavab verə bilməz: "Bunların hamısı qlobal çətinliklərdir və onlar qlobal cavab tələb edir. Ona görə də biz resurslarımızı, cəhdlərimizi bir araya gətirməliyik. Biz hamımız birlikdə yaxından işləməliyik. Heç bir ölkə bir-birindən ayrı deyildir. Biz əlimizdən gələni etməliyik ki, geosiyasi təhlükəsizlik bərqərar olsun və dünya hamımız üçün daha təhlükəsiz məkana çevrilsin. Biz insanların şəraitini, rifahını hər şeydən üstün tutmalıyıq. Siyasi partiyalar cəmiyyətin hər bir təbəqəsi ilə sıx bağlıdır. Ona görə də partiyalar bu istiqamətdə çalışmalıdırlar. Fikir mübadiləsi aparılmalı və güclü strategiyalar işlənib hazırlanmalıdır. Beləliklə, partiyalar ictimai fikri hökumət siyasətinə çevirməlidirlər. Siyasi partiyalardan tələb olunur ki, beynəlxalq tədbirlərdə fəal tərəfdaş kimi çıxış etsinlər. ICAPP bu baxımdan unikal platformadır".

"Birgə işləyərək biz bu məsələlərə daha dərindən baxmalıyıq və elə bir yol tapmalıyıq ki, sülh bərqərar olsun. Mən inanıram ki, siyasi partiyaların sülhyaratma prosesinə cəlb edilməsi qlobal təhlükəsizliyin təmin olunması baxımından yaxşı imkandır. Ümidvaram ki, bizim cəhdlərimizlə xüsusi konfrans dünyamızı daha yaxşı, təhlükəsiz bir məkana çevirmək üçün bəşəriyyətə çox mühüm bir imkan yaradacaq" , - deyə ICAPP-ın Daimi Komitəsinin həmsədri qeyd edib.

Sonra konfrans iştirakçıları birgə foto çəkdirib.

Daha sonra Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) Xarici əlaqələr şöbəsinin sədr müavini Afif Demirkıranın moderatorluğu ilə "Sülh quruculuğu prosesində siyasi partiyaların iştirakı" mövzusunda sessiya keçirilib.

AK Partinin Xarici əlaqələr şöbəsinin sədr müavini Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə təbriklərini çatdırıb: "Qürur hissi duyuram ki, ICAPP-ın xüsusi konfransı çox gözəl bir şəhər olan Bakıda keçirilir. Biz ICAPP ailəsi olaraq istərdik ki, bir daha Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə təbriklərimizi çatdıraq".

O qeyd edib ki, yaşadığımız dünyada müharibələr və münaqişələr çoxdur. "İnsanlar hər zaman sülh barəsində danışır. Amma dünya ciddi təhdidlərlə üz-üzədir" deyən A.Demirkıran söyləyib ki, siyasi partiyaların təhlükəsizliyin və sülhün təmin olunmasında mühüm rolu var: "Siyasi partiyalar sülhün təmin olunması prosesində fəal iştirak edə və münaqişələrdən sonra dialoqun başlanmasını həyata keçirə bilərlər".

Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının üzvü, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qeyd edib ki, 1992-ci ildə YAP-ın yaradılması milli inkişafın təmin olunması üçün vacib idi. Diqqətə çatdırıb ki, o vaxt Ulu Öndər Heydər Əliyev ziyalıların müraciətinə müsbət cavab verdi və xalqın iradəsi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən partiya yaradıldı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın güclü dövlətə çevrildiyini vurğulayan Səməd Seyidov bildirib ki, Vətən müharibəsində torpaqlarımız işğaldan azad olundu, ölkəmizin ərazi bütövlüyü təmin edildi. Bununla da Azərbaycan regionda yeni reallıq yaratdı.

ICAPP-ın Daimi Komitəsinin üzvü, Rusiyanın "Yedinaya Rossiya" Partiyasının Ali Şurası Bürosunun üzvü, Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədr müavini Andrey Klimov xüsusi konfransın çox mühüm məsələlərə həsr olunduğunu bildirib. A.Klimov qeyd edib ki, dünyada əsas prinsiplərdən biri beynəlxalq normalar əsasında dövlətlərin suverenlik hüququna müdaxilə etməməkdir. Lakin təəssüf ki, bəzi ölkələr digər dövlətlərin suverenliyinə, daxili işlərinə müdaxilə etməyə çalışırlar. Andrey Klimov sülh və təhlükəsizlik məsələlərində partiyaların əməkdaşlığının vacib olduğunu söyləyib.

Kamboca Xalq Partiyası Mərkəzi Komitəsinin üzvü Xeav Sambat təşkilatçılığa və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, YAP-ın 30 illiyi münasibətilə təbriklərini çatdırıb. O həmçinin YAP-ın fəaliyyətini yüksək qiymətləndirib.

X.Sambat Kamboca Xalq Partiyasının ölkənin aparıcı qüvvəsi olaraq sülh siyasətini dəstəklədiyini söyləyib. O qeyd edib ki, Kamboca kiçik ölkə olsa da, dünyadakı sülh məsələlərinə məsuliyyətlə yanaşır.

ICAPP-ın Daimi Komitəsinin üzvü, Koreya Milli Assambleyasının üzvü və ICAPP Parlamentarilər İttifaqının sədr müavini Ha Tae-keunq bildirib ki, bu il Azərbaycan ilə Koreya Respublikası arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi qeyd edilib. O, diqqətə çatdırıb ki, Azərbaycanla Koreya Respublikası arasında müdafiə, iqtisadiyyat və digər sahələrdə əməkdaşlıq məsələləri diqqət mərkəzindədir.

Siyasi partiyaların sülh və təhlükəsizlik məsələlərində aktiv roluna toxunan Ha Tae-keunq beynəlxalq təşkilatlar vasitəsilə əməkdaşlığın daha da genişləndirilməsinin və gücləndirilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, gələn ilin aprelində ICAPP Biznes Şurasının yaradılması rəsmi şəkildə elan olunacaq və bu, əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsinə təkan verəcək.

Sonra YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən biri Sudeyf İmamverdiyev çıxış edib. O, 1990-cı illərin əvvəlində ölkəmizdə mövcud olan siyasi böhran şəraitində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunduğunu bildirib. Belə bir çətin vəziyyətdə xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi. Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın inkişaf yoluna qədəm qoyduğunu deyən Sudeyf İmamverdiyev bildirib ki, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

"Siyasi partiyalar arasında əməkdaşlıq vasitəsilə regional və qlobal təhlükəsizliyin təşviqi" mövzusunda keçirilmiş sessiyada çıxış edən Türkiyənin Ədalət və İnkişaf Partiyasının Xarici Əlaqələr Departamentinin sədr müavini Mehmet Ceylan xüsusi konfransın yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib. O qeyd edib ki, möhkəm ənənələr əsasında qurulmuş partiyalar beynəlxalq sülhün təmin olunmasında mühüm rola malikdir. Bu konfrans fikir mübadiləsi və beynəlxalq məsələləri müzakirə etmək üçün çox vacib platformadır.

"Cənubi Qafqazdakı son hadisələr gündəliyimizin ən vacib məsələlərindəndir. Vətən müharibəsində Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi regionda yeni əməkdaşlıq imkanları yaradır. Ermənistan yaranmış bu imkanları dəyərləndirməli, Azərbaycanla sülh sazişi imzalamalıdır", - deyə M.Ceylan qeyd edib. O həmçinin bildirib ki, Ermənistandakı təxribatçı çıxışlara baxmayaraq, Azərbaycan sülh üçün mühüm təşəbbüslər irəli sürür.

Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Xarici əlaqələr komitəsi sədrinin müavini Somfon Siçaleun qeyd edib ki, Bakıda keçirilən xüsusi konfrans YAP-ın yaradılmasının 30 illiyinə təsadüf edir və bu, önəmli tarixi hadisədir. O, YAP üzvlərini bu münasibətlə təbrik edib və partiyaya fəaliyyətində uğurlar arzulayıb.

"Hazırkı dövrdə qlobal təhlükəsizliyin təmin olunması çox vacibdir. Bunun üçün siyasi partiyalar əməkdaşlıq etməlidirlər. Partiyalar arasındakı əməkdaşlıq yeni dövrün çağırışlarına cavab vermək üçün vacibdir. Biz çalışmalıyıq ki, işbirliyini genişləndirməklə çağırışların öhdəsindən gələk", - deyə Somfon Siçaleun diqqətə çatdırıb.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva bildirib ki, Asiya regionunda və bütün dünyada sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunması istiqamətində siyasi partiyaların əməkdaşlığının gücləndirilməsində ICAPP-ın rolunun genişləndirilməsi xüsusilə əhəmiyyətlidir. O deyib ki, ICAPP-ın təşkilatçılığı ilə keçirilən bugünkü konfrans qeyd edilən məsələlərin həlli istiqamətində müzakirələrin təşkilində oynadığı rola görə mühüm önəmə malikdir.

Azərbaycanın müstəqil xarici siyasətinin fonunda Yeni Azərbaycan Partiyasının fəaliyyətində beynəlxalq əməkdaşlığın prioritet olduğunu bildirən A.Sofiyeva qeyd edib ki, partiya həm ICAPP, həm də qurumda təmsil olunan ölkələrin siyasi partiyaları ilə münasibətləri inkişaf etdirmək üçün səylər göstərir.

Malayziya Çinli Assosiasiyası Beynəlxalq Kommunikasiya və Diplomatiya Bürosunun Sədri, Mərkəzi Komitəsinin üzvü Ti Çinq Senq YAP-ın təsis olunmasının 30 illiyi münasibətilə təbriklərini çatdırıb. O, siyasi partiyaların bəşəriyyət üçün aktual və önəmli məsələlərlə əlaqədar əməkdaşlığının vacibliyini qeyd edib. Vurğulayıb ki, siyasi partiyalar sülh quruculuğuna, regional təhlükəsizliyə öz töhfələrini verməlidirlər.

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Nqo Le Van xüsusi konfransda müzakirə olunan mövzunun çox aktual olduğunu söyləyib. O, siyasi partiyaların sülh və təhlükəsizlik məsələsini müzakirəyə çıxarmasının təqdirəlayiq olduğunu nəzərə çatdırıb.

Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri Beycan İlyas xüsusi konfransın keçirilməsinin əhəmiyyətindən bəhs edib. Tədbirə dəvətə görə təşəkkürünü bildirən B.İlyas Yeni Azərbaycan Partiyası ilə Türk Demokratik Partiyası arasında səmərəli əməkdaşlığın mövcud olduğunu diqqətə çatdırıb və eyni zamanda ICAPP-ın fəaliyyətinin siyasi partiyalar arasında dialoqun inkişafı baxımından önəm kəsb etdiyini deyib.

Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar siyasi sferanı da əhatə edir. Bu islahatlar nəticəsində ümummilli, sülh və təhlükəsizlik məsələləri ilə bağlı siyasi partiyalar birlik və həmrəylik nümayiş etdirirlər. Onun sözlərinə görə, ICAPP-a üzv siyasi partiyalar da bu konfransda müzakirə olunan məsələlərlə əlaqədar sıx əməkdaşlıq etməlidirlər.

Respublikaçı Alternativ Partiyasının Siyasi Komitəsinin üzvü, Milli Məclisin deputatı Erkin Qədirli deyib ki, təhlükəsizlik amili beynəlxalq münasibətlərin əsasını təşkil edir. Siyasi partiyalar da təhlükəsizlik məsələsində aktiv əməkdaşlıq etməlidirlər. Bu baxımdan keçirilən xüsusi konfrans böyük əhəmiyyət kəsb edir.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxışında təhlükəsizlik və əməkdaşlıq sahəsində gənclərin rolundan bəhs edib. Bu sahədə ölkəmizdə mövcud olan müsbət vəziyyətdən danışan Bəxtiyar İslamov qeyd edib ki, ICAPP-a daxil olan siyasi partiyaların gənclərinin də sülh və təhlükəsizlik kontekstində aktual məsələlərlə əlaqədar müzakirələr aparmaq və əməkdaşlıq etmək üçün böyük potensialı var.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə bildirib ki, sülh və təhlükəsizlik məsələsi bu gün qlobal çağırışdır. Pərvin Kərimzadənin sözlərinə görə, İkinci Qarabağ müharibəsində Azərbaycan torpaqlarını işğaldan azad etməklə regionda qaynar münaqişəyə son qoydu. YAP İdarə Heyətinin üzvü Azərbaycan qadınlarının cəmiyyətdəki rolundan, sülh naminə təşəbbüslərindən də bəhs edib.

Sonra ICAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransının Bakı Bəyanatı qəbul olunub. Bəyanatı Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının baş katibi Ço Byunq-cae səsləndirib.

Konfransın yekununda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, ayrı-ayrı ölkələri, bütün bəşəriyyəti narahat edən çox vacib çağırışlardan biri sülh və təhlükəsizlik məsələsidir. ICAPP-ın bu mövzuya həsr olunmuş xüsusi konfransının keçirilməsi mühüm əhəmiyyətə malikdir: "Mən ICAPP-ın Asiyanın siyasi həyatında rolunu ayrıca qeyd etmək istəyirəm. Fəaliyyət göstərdiyi dövrdə Asiyada ayrı-ayrı siyasi problemlərlə əlaqədar çox ciddi müzakirələr aparılıb. İnanıram ki, ICAPP bundan sonra Asiyada siyasi dialoqun təmin edilməsində və dərinləşməsində daha böyük işlər görəcək".

Əli Əhmədov mövcud çağırışlar fonunda ICAPP tərəfindən Asiya Təhlükəsizlik Konfransı adlı platformanın yaradılmasını təklif edib.

Sonda ICAPP-ın Daimi Komitəsinin həmsədri, Koreya Respublikasının sabiq xarici işlər naziri, Milli Təhlükəsizlik Ofisinin keçmiş direktoru Çunq Eu-yonq çıxış edərək "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda keçirilən xüsusi konfransda geniş fikir mübadiləsinin aparıldığını və bunun gələcək əməkdaşlığa mühüm töhfə olduğunu diqqətə çatdırıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## ICAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransının Bakı Bəyanatı

Biz, 10 ölkənin 11 siyasi partiyasının liderləri və nümayəndələri 2022-ci il 20-22 noyabr tarixlərində Azərbaycan Respublikasının Bakı şəhərində "Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu" mövzusunda ICAPP-ın xüsusi konfransına toplaşaraq "Sülhyaratma proseslərində siyasi partiyaların iştirakı" və "Siyasi partiyalar arasında əməkdaşlıq yolu ilə regional və qlobal təhlükəsizliyin təşviqi" adlı iki mövzuya diqqətimizi yönəltdik və aşağıdakıları bir daha təsdiqlədik:

1. Milli dövlətlərə əsaslanan qlobal təhlükəsizlik və beynəlxalq hüquq sisteminin böhran yaşadığı hazırkı dövrdə cəmiyyətin bütün təbəqələri ilə sıx təmasları olan siyasi partiyaların sülh və əməkdaşlıq məsələlərində dialoqa töhfə verən vasitəçi və iştirakçı kimi imkanlarından geniş istifadə olunmasına böyük ehtiyac vardır;

2. Əksər siyasi partiyaların üzvlərinin və elektoratının müxtəlif etnik, dini, mədəni mənsubiyyəti və dəyərləri olan insanlardan ibarət olması onların tolerantlıq və dialoqun əsas təminatçılarından və təbliğatçılarından birinə çevrilməsinə zəmin yaradır. Siyasi partiyaların gücləndirilməsi daha gözəl gələcək naminə ortaq baxışla birləşən daha güclü və möhkəm cəmiyyətlər deməkdir;

3. İdeoloji fərqlərinə baxmayaraq, demək olar ki, bütün partiyaların sülh, əməkdaşlıq, təhlükəsizlik, rifah kimi ortaq bəşəri dəyərləri bölüşməsi cəmiyyət daxilində siyasi partiyalar səviyyəsində qarşılıqlı anlaşma və əməkdaşlıq üçün təməl şərtləri formalaşdırır;

4. Hazırkı şəraitdə qlobal sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə vermək baxımından müxtəlif ölkələrin və regionların siyasi partiyaları arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinin, onların vaxtaşırı bir araya gələrək aktual qlobal məsələləri müzakirə etməsinin, təcrübə və fikir mübadiləsi aparmasının, konkret mövzular üzrə birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti daha da artmışdır.

5. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış üçtərəfli bəyanat Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinə zəmin yaratmış, bütövlükdə Cənubi Qafqaz regionunda təhlükəsizlik və hərtərəfli əməkdaşlıq üçün yeni imkanlara yol açmışdır. Cənubi Qafqazda sülh və təhlükəsizliyin faydalarının yalnız bu iki ölkənin sərhədləri ilə məhdudlaşmadığına inanan ICAPP davamlı əməkdaşlıq vasitəsilə regionun sülh və təhlükəsizliyinin genişləndirilməsi və möhkəmləndirilməsinə sadiqdir.

Biz evsahibliyi edən Azərbaycan Respublikasının Yeni Azərbaycan Partiyasına səmimi qonaqpərvərliyə və konfransın mükəmməl təşkilinə görə dərin minnətdarlığımızı ifadə etdik. Həmçinin ICAPP Katibliyinə konfransın uğurla keçməsi üçün göstərdiyi dəstəyə görə təşəkkürümüzü bildirdik.

Sənəd 2022-ci il noyabrın 22-də Azərbaycanın Bakı şəhərində yekdilliklə qəbul edilib.

# Azərbaycan Milli Məclisi və Rusiya Federal Məclisinin ikitərəfli parlamentlərarası komissiyasının növbəti iclası keçirilib

Noyabrın 22-də Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli parlamentlərarası komissiyasının 18-ci iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasa Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini Qalina Karelova həmsədrlik ediblər.

Tədbiri açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan və Rusiya arasında parlamentlərarası əlaqələrin dinamik inkişafından söz açıb, Milli Məclisin Rusiya Federasiyası subyektləri ilə də parlament əlaqələrinin dərinləşməsinə böyük əhəmiyyət verdiyini deyib, parlamentarilərimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığına toxunub. O, Azərbaycan və Rusiya dövlət başçılarının səyləri nəticəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsindən bəhs edərək, hər iki ölkənin qanunvericilik orqanlarının bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib.

Azərbaycan və Rusiya arasında ikitərəfli parlamentlərarası komissiyanın həmsədri Azərbaycan və Ermənistan arasındakı mövcud vəziyyət barədə də məlumat verib. O, bildirib ki, Azərbaycan üçtərəfli Bəyanatın bütün şərtlərinə əməl edib, lakin Ermənistan bu bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir.

İclasda Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini Qalina Karelova çıxışında bildirib ki, Azərbaycan Rusiya üçün dost və strateji tərəfdaş ölkədir. Hazırda ölkələrimiz arasında mövcud olan parlamentlərarası əməkdaşlıq, iqtisadi və humanitar əlaqələr bir çox məsələlərin həlli baxımından xüsusi əhəmiyyət kəsb edir. Qalina Karelova vurğulayıb ki, bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasınınn 30 ili tamam olur. Dostluğa söykənən Rusiya-Azərbaycan münasibətləri bundan sonra da güclənib inkişaf edəcək.

Sonra iclasın gündəliyində olan məsələlərə baxılıb və müvafiq qərarlar qəbul edilib.

İclasda Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edərək Azərbaycan-Rusiya münasibətlərindən danışıb.

Görüşdə Milli Məclisin Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, qrupun üzvü Mixail Zabelin, Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov çıxış edərək, Azərbaycan-Rusiya əməkdaşlıq münasibətləri, iqtisadi sahədəki perspektivlər, ölkələrimiz arasında ticarət, tikinti və kənd təsərrüfatı sahəsində tərəfdaşlıq və digər məsələlər barədə danışıblar.

Rusiya Dövlət Dumasının deputatı Kazbek Taysayev çıxışında 2023-cü ilin "Heydər Əliyev ili" olduğunu söyləyərək bununla bağlı Rusiyanın bir çox şəhər və bölgələrində tədbirlərin keçiriləcəyini bildirib. Daha sonra o, Ermənistana etdiyi son səfərindən bəhs edib. Həmçinin Dövlət Dumasının Elm və təhsil komitəsinin sədri Sergey Kabışov iclasa onlayn qoşularaq ölkələrimiz arasında elm və təhsil sahəsində əməkdaşlıq barədə fikirlərini bölüşüb.

Daha sonra iclasda Milli Məclisin deputatı Emin Hacıyev, Rusiya tərəfdən isə İlyas Umaxanov, Aleksandr Başkin, Anatoliy Artamonov, İnna Svyatenko və Dmitri Savelyev çıxış edərək Azərbaycan-Rusiya münasibətlərinə dair qeyd və təkliflərini səsləndiriblər.

Gündəlikdəki məsələlərin müzakirəsindən sonra Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli parlamentlərarası komissiyasının 18-ci iclası başa çatıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədr müavini Qazaxıstan parlamentinin deputatı ilə görüşüb

Noyabrın 22-də Milli Məclisin Sədr müavini, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev Qazaxıstan Parlament Məclisinin deputatı, Qazaxıstan-Azərbaycan parlamentlərarası işçi qrupunun üzvü, tanınmış politoloq Aydos Sarım və Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkərimovla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan vitse-spiker iki qardaş xalqı birləşdirən ortaq dəyərlərdən danışaraq, ölkələrimizin istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından bəhs edib. O, Türk Dövlətləri Təşkilatında, eləcə də digər beynəlxalq təşkilatlarda hər iki ölkənin bir-birinə qarşılıqlı dəstəyinin maraqlarımıza uyğun olduğunu qeyd edib. Vitse-spiker ölkələrimiz arasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dostluq münasibətlərinin dövlət başçıları İlham Əliyev və Kasım-Jomart Tokayevin dövründə daha da dərinləşdiyini məmnunluqla diqqətə çatdırıb. Adil Əliyev Kasım-Jomart Tokayevin yenidən Qazaxıstanın Prezidenti seçilməsi ilə əlaqədar bir daha qardaş xalqı təbrik edib.

Vitse-spiker qonağın Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş tədbirdə iştirak üçün ölkəmizə səfərini yüksək qiymətləndirib. O, özünün bitərəf millət vəkili olmasına baxmayaraq, YAP-ın Azərbaycan tarixində böyük işlər gördüyünü və hazırda öz gərgin fəaliyyətini davam etdirdiyini bildirib.

Azərbaycan tarixinin ən böyük hadisələrindən biri olan tarixi torpaqlarımızın düşməndən azad edilməsi ilə yekunlaşan Vətən müharibəsinə toxunan Sədr müavini Azərbaycanın qələbəsinin həm də ölkəmizin dostlarının qələbəsi olduğunu vurğulayıb.

Adil Əliyev Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması cəhdlərinə Fransa kimi ölkələrin qısqanclıqla yanaşdığını, hər addımda separatçılığı dəstəkləməklə sülhün qarşısında əngəl olmağa çalışdığını və bununla da beynəlxalq hüququ kobud şəkildə pozduğunu qonaqların diqqətinə çatdırıb.

Səmimi görüşə görə minnətdarlığını bildirən Qazaxıstan Parlament Məclisinin deputatı Aydos Sarım parlamentlərarası əməkdaşlığın dostluq münasibətlərinə mühüm töhfələr verdiyini qeyd edərək, iki qardaş ölkənin hər zaman bir-birinin yanında olmasından və dəstəyindən bəhs edib. O, Azərbaycanın Vətən müharibəsində qazandığı qələbəyə ən çox sevinənlərdən birinin qardaş qazax xalqı olduğunu diqqətə çatdırıb, ölkələrimizin beynəlxalq təşkilatlardakı qarşılıqlı fəaliyyətindən danışıb.

Görüşdə tərəfləri maraqlandıran digər mövzularda da müzakirələr aparılıb.

*"Azərbaycan"*

# AŞ PA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin nümayəndələri Milli Məclisdə olublar

Noyabrın 22-də Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc ilə AŞ PA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin üzvü Konstantinos Efstatiu arasında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qonaqları salamlayaraq, onlara son illərdə komitə tərəfindən görülən işlər barədə məlumat verib. Bildirib ki, insan hüquqları həm qanunvericilik siyasətində, həm hüquq prosesində, həm də dövlət idarəçiliyində mühüm yer tutur.

Komitə sədri qeyd edib ki, 44 günlük Vətən müharibəsindəki qələbədən sonra Azərbaycan daha geniş beynəlxalq əlaqələrin qurulmasında maraqlıdır. Azad olunmuş torpaqlara Böyük qayıdış, insanların hüquqları və azadlıqları ilə bağlı mühüm məsələlər daim diqqətdə saxlanılır.

"Media haqqında" və "Siyasi partiyalar haqqında" qanunlardan söz açan Zahid Oruc bu sənədlərin hazırlanması prosesindən bəhs edib. Bildirib ki, "Media haqqında" qanun qəbul edilməzdən əvvəl ölkəmizdəki media orqanlarının təmsilçilərinin iştirakı ilə geniş müzakirə aparılıb. "Siyasi partiyalar haqqında" qanun layihəsi isə 1966-cı il Mülki və Siyasi Hüquqlar Haqqında Pakta, 2000-ci il Avropa Şurasının İnsan Haqları Konvensiyasına, Kopenhagen sammitində qəbul edilmiş Deklarasiyaya, Venesiya Komissiyasının 2010-2020-ci il Konvensiyasına, Avropa İnsan Hüquqları Məhkəməsinin onlarca qərarlarındakı direktivlərə söykənərək hazırlanıb. Bunun nəticəsində mükəmməl, təkmil bir layihə yaradılıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Kamal Cəfərov Azərbaycanın qanunvericilik prosesində AŞ PA-nın sənədlərini nəzərə aldığını söyləyib. O, 30 il müddətində davam edən Ermənsitan-Azərbaycan münaqişəsi zamanı ölkəmizə qarşı ayrı-seçkiliyin, ikili standartların müşahidə edildiyini təəssüf hissi ilə bildirib.

Milli Məclisin deputatı Tahir Kərimli bildirib ki, Azərbaycanda Avropa İnsan Hüquqları Məhkəməsinin bütün qərarları nəzərə alınır. O, həmçinin diqqətə çatdırıb ki, Avropa Azərbaycan vətəndaşlarının Ermənistan tərəfindən pozulan hüquqlarına biganə münasibət bəsləyir. Eyni zamanda Fransa Senatının Azərbaycana qarşı qərəzli qətnaməsi qəbuledilməzdir.

AŞ PA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin üzvü Konstantinos Efstatiu bildirib ki, insan hüquqlarına hörmət bəslənməsi cəmiyyətin əsasını təşkil edən məsələdir. Qeyd edib ki, bütün Avropada qanunverici orqanlar həm qanunların qəbul olunması, həm də onların icrasına nəzarət nöqteyi-nəzərindən çox böyük əhəmiyyət kəsb edirlər.

Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam edib. Qonaqların sualları Milli Məclisin deputatları tərəfindən cavablandırılıb.

Görüşdə AŞ PA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin əməkdaşı Elinor Huriqan və Avropa Şurasının Bakı Ofisinin rəhbəri Petr Zix iştirak ediblər.

*"Azərbaycan"*

# Milli Məclisin komitə iclasında büdcə zərfinə daxil olan qanun layihələri ikinci oxunuşda müzakirə edilib

Noyabrın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli iclası açaraq gündəliyi təqdim edib. O, gündəlikdə əsasən 2023-cü il üçün büdcə zərfinə daxil olan qanun layihələrinin ikinci oxunuşda müzakirəyə çıxarıldığını bildirib. Bunlar "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi", "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" , "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2023-cü il üçün ehtiyac meyarının həddi haqqında", Vergi Məcəlləsində, Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə ikinci oxunuşda olan qanun layihələridir.

Komitə sədrinin müavini büdcə zərfinə daxil olan qanun layihələrinin komitə və plenar iclaslarda geniş şəkildə müzakirə olunduğunu və maliyyə naziri Samir Şərifovun büdcə zərfi barədə kifayət qədər müfəssəl məlumat verdiyini diqqətə çatdırıb. Ölkəmizin tarixində ən böyük büdcəyə münasibətin çox müsbət olduğunu vurğulayan Əli Məsimli büdcəyə bəzi dəyişikliklərin təklif edildiyini də bildirib.

Çıxış edən maliyyə nazirinin müavini Azər Bayramov bildirib ki, gələn ilin dövlət büdcəsi dövlətin öhdəliklərinin yerinə yetirilməsi, iqtisadi dayanıqlığın və inkişafın təmini üçün lazımi maliyyə təminatını yaradır. Maliyyə nazirinin müavini büdcə müzakirələrində deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, təkliflərinə münasibət bildirib.

Dövlət büdcəsində neftin bir barelinin qiymətinin dünyadakı maliyyə institutlarının təqdim etdiyi proqnozların ən aşağı həddində götürüldüyünü bildirən nazir müavini neftin ölkənin ümumi daxili məhsulunda və büdcə daxilolmalarında payının getdikcə azaldığını vurğulayıb.

Azər Bayramov yeni səfirliklərin və diplomatik nümayəndəliklərin açılması və digər məsələlərlə bağlı xərclərin artdığı üçün büdcədə müvafiq düzəlişlərin edilməsinin təklif olunduğunu diqqətə çatdırıb. O, dəyişikliklərin qanunvericiliyə uyğun nəzərə alındığını bildirib.

Çıxış edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev bildirib ki, Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun ölkəmiz haqqında verdiyi rəylər müsbətdir. O, deyib ki, gələn ilin dövlət büdcəsi "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun hazırlanıb və əsas diqqət tarazlığın qorunması və dayanıqlı inkişafa yönəldilib.

Regionlara sərmayələrin yatırılması və maliyyə imkanlarının yaradılması barədə danışan Mərkəzi Bankın sədrinin birinci müavini Rəşad Orucov maliyyə institutlarının zəmanət mexanizmləri alətlərindən daha çox istifadə etməsinin vacibliyini vurğulayıb.

Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayeva Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı məlumat verib. O, işğaldan azad edilmiş ərazilərdə sosial sığortaların subsidiyalaşdırılmasının diqqətdə saxlanıldığını bildirib.

Müzakirələrdə deputatlar Vahid Əhmədov, Ziyad Səmədzadə, Vüqar Bayramov, Mahir Abbaszadə, Aydın Hüseynov, Rüfət Quliyev, Məzahir Əfəndiyev, Dövlət Gömrük Komitəsinin idarə rəisi Mirqasım Vahabov çıxış edərək fikirlərini bölüşüblər, rəy və təkliflərini səsləndiriblər.

Deputatlar ikinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələrini Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

Sonra komitə sədrinin müavini diqqətə çatdırıb ki, gündəlikdəki digər məsələlər birinci oxunuşda təqdim edilən 4 qanun layihəsidir. Belə ki, növbəti üç qanun layihəsi - Mülki Məcəllədə dəyişikliklər edilməsi barədə, Mülki Prosessual Məcəllədə, Vergi Məcəlləsində və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Valyuta tənzimi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "İpoteka haqqında" və "İnvestisiya fondları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri qiymətli kağızlarla bağlı qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır.

Miqrasiya Məcəlləsində və "Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində isə azad iqtisadi zonada fəaliyyət üçün verilən giriş vizasının, bu məqsədlə gəlmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisinə daxil olması, müvəqqəti qalması məsələlərinin tənzimlənməsi üçün hüquqi əsaslar müəyyən edilir.

Komitə üzvləri birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələrini də Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

*"Azərbaycan"*

# Gələn il ehtiyac meyarı yaşayış minimumuna bərabərləşəcək

Noyabrın 22-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib. Komitə sədri Musa Quliyev diqqətə çatdırıb ki, müzakirəyə 2023-cü ilin dövlət büdcəsi zərfinə daxil edilən 8 qanun layihəsi ikinci oxunuşda təqdim olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Musa Quliyev qanun layihələri barədə fikirlərini açıqlayaraq bildirib ki, "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" qanun layihəsinə əsasən, növbəti ildə Fondun həm gəlir, həm xərc hissəsi 6,3 milyard manat təşkil edəcək. Gələn il orta aylıq pensiyanın məbləği 423 manat, yaşa görə pensiyanın məbləği 455 manat, əlilliyə görə pensiya 369 manat, ailə başçısını itirməyə görə pensiyanın məbləğinin isə 374 manat olacağı proqnozlaşdırılır.

Sonra Musa Quliyev İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsindən danışıb. Bildirib ki, növbəti ildə Fondun gəlirləri və xərcləri bərabər olmaqla 212,7 milyon manat nəzərdə tutulub. Bu isə Fondun qarşıya qoyduğu 12 istiqamətdə məşğulluq məsələlərinin həllinə imkan yaradacaq. Fondun özünüməşğulluq proqramını uğurla həyata keçirdiyini deyən komitə sədri qeyd edib ki, növbəti ildə 17 minə yaxın vətəndaşın bu proqrama cəlb olunması planlaşdırılır.

Komitə sədri gələn il həm yaşayış minimumunun, həm də ehtiyac meyarının artacağını söyləyib. Bildirib ki, ilk dəfə olaraq ehtiyac meyarı yaşayış minimumuna bərabərləşəcək və hər ikisi 246 manat təşkil edəcək. Bu, sosial-iqtisadi sahədə aparılan islahatların müsbət nəticəsi kimi dəyərləndirilir.

Sonra iclasda iştirak edən Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun növbəti il üçün büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla, 6 milyard 264 milyon manat məbləğində proqnozlaşdırılır. Gəlirlərin 76 faizi və yaxud 4 milyard 784 milyon manat məcburi dövlət sosial sığorta haqlarından daxilolmalar hesabına proqnozlaşdırılıb. Növbəti il üçün transfert 1 milyard 468 milyon manat həcmində müəyyən olunub. Qeyd edilib ki, xərclərin 97 faizi və yaxud 6 milyard 78 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Əmək pensiyalarının ödənilməsinə 5 milyard 907 milyon manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərclərinə 170 milyon manat vəsait sərf olunacaq. Himalay Məmişov büdcə ilə bağlı digər göstəriciləri də səsləndirərək, fondun cari fəaliyyəti, əldə edilən nailiyyətlər, gələcəkdə nəzərdə tutulan layihələr barədə də məlumat verib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli çıxışında diqqətə çatdırıb ki, İşsizlikdən Sığorta Fondunun 2023-cü il üçün büdcəsi 212,7 milyon manat olaraq proqnozlaşdırılıb. O, özünüməşğulluq sahəsində şəffaflığın təmin edildiyini, 42 istiqamət üzrə kiçik təsərrüfatların yaradıldığını deyib, peşə hazırlığı ilə bağlı görülən işlərdən danışıb. Fond sədri müasir innovasiyaların tətbiqi, rəqəmsallaşdırma tədbirləri, elektron inzibatçılıq, o cümlədən əmək müqavilələrinin elektron formada bağlanması barədə məlumat verib. O, qeyri-formal məşğulluğun aradan qaldırılması sahəsində atılan addımlardan, gənclərin gələcək əmək bazarına hazırlanması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib.

Sonra parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev büdcə zərfinə daxil olan digər 4 qanun layihəsi barədə məlumat verib.

Bildirilib ki, "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) əsasən, sığorta stajının müddətinin 3 il artırılaraq 2026-cı ilə qədər uzadılması nəzərdə tutulur.

"Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə əlaqədar qeyd edilib ki, təklif olunan dəyişiklik Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 10 il müddətində məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması mexanizmini, o cümlədən tətbiq ediləcək kontingent və şərtləri müəyyənləşdirir. Layihədə eyni zamanda fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslər üçün güzəştli sosial sığorta haqqı müəyyən olunur və həmin fəaliyyət növü də dövlət sosial sığorta haqqının subsidiyalaşdırılmasına aid edilir.

Diqqətə çatdırılıb ki, "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) layihədə təklif olunan dəyişikliyə görə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssisə Əmək Məcəlləsinin 21-1-ci maddəsi nəzərə alınmaqla, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işləmək üçün azı bir il müddətinə bağlanılmış əmək müqaviləsi olduqda, ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün 2023-cü il yanvarın 1-dən 5 il müddətinə birdəfəlik müavinət müəyyən olunur.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihəsində isə məcəlləyə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssis" anlayışının əlavə olunması təklif edilir və həmin mütəxəssislərə güzəşt və imtiyazlar müəyyən edilir. Təklif olunan dəyişiklikdə mütəxəssislərin 2023-cü ildən 5 il müddətində əsas və əlavə məzuniyyət müddətindən asılı olmayaraq, əlavə 5 gün ödənişli məzuniyyət hüququ əldə etməsi əksini tapıb. Məcəllənin 159-cu maddəsinə 2023-cü il yanvarın 1-dən 5 il müddətində işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssislərin əməkhaqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların tətbiq edilməsi ilə bağlı dəyişiklik təklif olunur.

Sonra gündəlikdəki məsələlər ətrafında müzakirələr aparılıb. Komitə üzvləri İlham Məmmədov, Jalə Əliyeva, Aqil Məmmədov, Sevinc Hüseynova, Soltan Məmmədov 2023-cü ilin büdcəsi ilə bağlı qanun layihələri barədə fikirlərini açıqlayıblar, qanunlara təklif olunan dəyişikliklərin məqsədəmüvafiq olduğunu söyləyiblər. Millət vəkilləri bəzi məqamlarla əlaqədar qeydlərini və suallarını səsləndiriblər.

Himalay Məmişov və Mustafa Abbasbəyli deputatların qaldırdığı məsələlərə aydınlıq gətiriblər, suallarını ətraflı cavablandırıblar.

Onlayn iclasın sonunda gündəliyə daxil edilən "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında", "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2023-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri, habelə "Əmək pensiyaları haqqında", "Sosial sığorta haqqında", "Sosial müavinətlər haqqında" qanunlarda və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

*"Azərbaycan"*

# Milli Məclisin deputatları ATƏT PA-nın payız sessiyasında iştirak edəcəklər

Milli Məclisin ATƏT Parlament Assambleyasındakı (PA) nümayəndə heyətinin rəhbəri Azay Quliyev, deputatlar Tural Gəncəliyev, Əminə Ağazadə və Nizami Səfərov qurumun payız sessiyasında iştirak etmək üçün noyabrın 23-də Polşanın paytaxtı Varşavaya səfər edəcəklər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sessiyada hərbi münaqişələrin ATƏT regionuna təsirləri, humanitar fəlakət şəraitində əsas insan hüquq və azadlıqlarının müdafiəsi kimi məsələlər müzakirə olunacaq.

Sessiya zamanı deputatlarımız Azərbaycanla Ermənistan arasındakı münasibətlərin cari durumu haqqında çıxışlar edəcək və ölkəmizin maraqlarına aid məsələləri diqqətə çatdıracaqlar.

Noyabrın 26-da isə ATƏT PA Bürosunun iclası keçiriləcək. İclasda ATƏT PA-nın İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit üzrə ümumi komitəsinin sədri Azay Quliyev iştirak edəcək.

Səfər noyabrın 27-də başa çatacaq.

# İlham Əliyevin qətiyyətli siyasəti Ermənistanı yeni reallıqlarla barışmağa məcbur edir

## Səməd SEYİDOV: "Azərbaycanın inkişafı, güclü dövlətə çevrilməsi və torpaqlarını azad etməsi ölkəmizə xaricdən olan baxışları da yeniləyib"



**Vətən müharibəsindən sonra tamamilə yeni tarixi mərhələyə qədəm qoyan Azərbaycanın regional və qlobal mövqelərini daha da gücləndirməsi respublikamızı xarakterizə edən əsas reallıqlardan biridir. Bu mərhələnin əsas cəhətlərindən biri Bakının 44 günlük müharibədə yaratdığı reallıqlardan irəli gələrək öz milli maraqlarını inamla təmin etməsidir. Bu sırada Ermənistanın sülhə məcbur olunması istiqamətində atılan addımlar göstərir ki, Prezident İlham Əliyev ölkəmizin uğurlarını qətiyyətlə təmin edir. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovla müsahibəmiz də bu mövzudadır.**

*- Səməd müəllim, müharibə günlərində olduğu kimi postmüharibə dövründə də Azərbaycan uğurlarını davam etdirir. Azərbaycan müharibədən sonra həm də yeni dövrə daxil olub. Bilmək istərdik bütün bunların fonunda Azərbaycana beynəlxalq səviyyədə nə cür münasibət formalaşıb?*

-Tamamilə düzgün qeyd etdiniz ki, bu gün Azərbaycan uğurlarını davam etdirir və müharibədən sonra yeni mərhələ başlayıb. Bu barədə danışmazdan əvvəl Azərbaycanın son illərdəki nailiyyətlərinin tamamilə yeni səviyyəyə, mərhələyə yüksəlməsinin bir neçə faktorla bağlı olduğunu qeyd etmək istərdim. Onların içərisində ən vacib məsələlərdən biri xalqımızın özü, müdrikliyi, seçdiyi yol, gələcəyini və taleyini doğru müəyyən etməsi ilə bağlıdır.

Azərbaycan xalqı müstəqilliyini bərpa edəndə seçim qarşısında idi. Həmin vaxt xalq onun öz yolundan sapmasını, yanlış istiqamətdə getməsini istəyən qüvvələrə belə hansısa səviyyədə inanmaq istədi. Lakin aydın oldu ki, bu, səhv yoldur və elə bir insanın arxasınca getmək lazımdır ki, o, doğurdan da dövləti və xalqı irəli apara bilsin.

Bu baxımdan Azərbaycan xalqının müdrikliyi ondadır ki, Ulu Öndər Heydər Əliyevi özünə rəhbər seçdi. Ona görə ki, Heydər Əliyevin ideyaları xalqın istək və arzularının ifadəsi idi. Heydər Əliyevin böyüklüyü ondan ibarət idi ki, o, əsl lider, dövlət xadimi kimi xalqın istəklərini, arzularını reallaşdıraraq, onu konkret praktiki müstəviyə keçirə bildi. Bu konkret praktiki müstəvi ilk növbədə dövlətin yaradılması və inkişaf yollarının müəyyən olunmasıdır. 1993-cü ildə hakimiyyətə gələn Heydər Əliyev 1994-cü ildə xəyal hesab olunan bir məsələni reallaşdırdı və "Əsrin müqaviləsi"ni imzaladı. Bu artıq müasir Azərbaycan dövlətçiliyinin formalaşmasının təcəssümü idi. Hətta bir qədər əvvələ dönərək deyə bilərik ki, Bakıda ölkəmizi arzuolunmaz istiqamətdə aparan qüvvələr hakimiyyətdə olduğu zaman Naxçıvanda Heydər Əliyev tərəfindən Azərbaycanın gələcəyini müəyyən edən konturlar çəkilir, bu istiqamətdə addımlar atılırdı.

Beləliklə, fikrimi ümumiləşdirərək demək istəyirəm ki, biz Azərbaycanın xarici siyasətinin uğurlarından danışanda bu siyasətin kökündə dayanan amilləri də mütləq qeyd etməliyik. Bu amillər xalqın müdrikliyi, onun arzularını reallaşdıran, onu praktik müstəviyə yüksəldən Heydər Əliyev fenomenidir.

Bu iki amil isə İlham Əliyev fenomenini üzə çıxardı. Xalqın maraqları və Heydər Əliyev fəlsəfəsi yeni Azərbaycanın milli maraqlarını ən yüksək səviyyədə təmin etmək üçün formalaşmış bir şəxsiyyətdə təcəssüm etdi. Məhz ona görə bu gün biz tamamilə başqa Azərbaycan barəsində danışa bilirik. Torpaqlarımızı işğaldan azad etdikdən və ərazi bütövlüyümüzü təmin etdikdən sonra biz artıq fərqli Azərbaycandan bəhs edirik.

İnkarolunmaz həqiqətdir ki, indi Azərbaycana xaricdən yeni nəzərlərlə baxırlar. Prezidentimizin rəhbərliyi ilə ölkəmizin inkişafı, güclü dövlətə çevrilməsi və bütün bunların nəticəsi kimi torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycana xaricdən olan baxışları da yeniləyib. Beynəlxalq strukturlar da Azərbaycanla tamamilə başqa bir tərzdə rəftar etməyə başlayıblar.

*- Yəqin ki, region ölkələri ilə Azərbaycan arasında olan münasibətlərdə baş verən keyfiyyət dəyişiklikləri də bundan irəli gəlir...*

- Bəli, Azərbaycanın regionda yaratdığı yeni reallıqlar ölkələrin bizə olan münasibətlərini də yeni mərhələyə yüksəldib. Azərbaycan dəyişməklə, ətrafımızdakı dövlətlər də dəyişiblər. Gəlin bu dəyişiklikləri ölkələr üzrə nəzərdən keçirək.

Ermənistandan başlayaraq demək olar ki, kapitulyasiya aktını imzaladıqdan sonra bu ölkə faktiki iflasa uğramış bir dövlət kimi nəzərə çarpır. Amma iki il əvvəl Ermənistan tamamilə başqa cür tanınırdı.

Gürcüstan bu gün Azərbaycanla əlaqələrini daha da inkişaf etdirmək niyyətində olduğunu bildirir və mövcud əlaqələri daha yüksək səviyyədə qiymətləndirir. Prezident İlham Əliyevin Gürcüstana səfəri bunu bir daha təsdiq edir. Ona görə də Gürcüstanda da Azərbaycana münasibət, baxış dəyişib.

Vətən müharibəsindən sonra Azərbaycan-Türkiyə münasibətləri tamamilə yeni məzmun kəsb edir. İki qardaş dövlətin əlaqələrinin ən yüksək göstəricisi Şuşa Bəyannaməsidir. Bu sənəd elə bir birlik yaradıb ki, faktiki olaraq biz bir millət olmaqla yanaşı, artıq bir orduya sahibik, vahid amal haqqında danışmaq və bu istiqamətlərdə işlər görmək iqtidarındayıq. Ona görə biz bu gün Türkiyə ilə qardaşlığı tamamilə yeni formada bəyan edirik. İki qardaş dövlətin prezidentlərinin də qeyd etdiyi kimi Türkiyənin gücü bundan sonra Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Deməli, Türkiyə ilə münasibətlər də dəyişərək artıq tamamilə fərqli bir müttəfiqlik səviyyəsinə yüksəlib.

Həmçinin Azərbaycan-Rusiya münasibətlərində də dəyişikliklər baş verib. Bakı ilə Moskva arasında münasibətlər həmişə qarşılıqlı hörmət əsasında qurulub. İndi isə bu münasibətlər müttəfiqlik məzmunu daşıyır. Azərbaycan yüksəlməsəydi, gücü olmasaydı, torpaqlarını öz ordusu ilə azad etməsəydi, Rusiya ilə müttəfiqlik də mümkün olmazdı.

Pakistanla da münasibətlər tamamilə yeni müstəvidə inkişaf edir. İki dövlət arasındakı əlaqələr Vətən müharibəsində daha da möhkəmləndi, yeni səviyyəyə yüksəldi.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə də münasibətləri köklü şəkildə dəyişib. Vətən müharibəsinin başa çatmasından bir müddət sonra Türkmənistanla Xəzər dənizində təbii qazın birgə hasilatı üçün saziş imzalanıb. Türkmənistanın təbii qazının Azərbaycan üzərindən idxalı artıb. Respublikamızın Özbəkistanla, Qazaxıstanla münasibətlərində tamamilə yeni mərhələ başlayıb. Qırğızıstan və Tacikistan da daxil olmaqla, Mərkəzi Asiya respublikaları Azərbaycana münasibətlərə artıq yeni prizmadan yanaşırlar.

Ən vacib məsələlərdən biri də odur ki, Azərbaycanın türk dünyasında yeri indi başqadır və ölkəmiz öz aparıcı mövqeyi ilə həm də türk dünyasının əməkdaşlığını yeni mərhələyə yüksəldib. Yeni Azərbaycan öz yüksəlişi ilə türk dünyasındakı əməkdaşlığı da dəyişdirib. Ümumi şəkildə desək, bu gün Azərbaycan türk dünyasının aparıcı və birləşdirici dövlətidir. Biz əvvəllər bunu yalnız Türkiyənin timsalında görə bilərdik. İndi isə Azərbaycan da türk dünyasında aparıcı dövlətlərdən biridir. Bu yaxınlarda Prezident İlham Əliyevin Səmərqənddə keçirdiyi vacib görüşlər və Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışı zamanı səsləndirdiyi fikirlər bunun əyani sübutudur.

*- İranın da Azərbaycana baxışlarında dəyişiklik var, amma bu, adını çəkdiyiniz ölkələrlə olduğu kimi xoşməramlı müstəvidə deyil...*

- Əslində, bu dəyişikliklər fonunda İranla da münasibətlər yeni müstəviyə yüksəlməliydi. Mehriban qonşuluq, ortaq dəyərlər prizmasından biz belə gözləyirdik. Cənub-Şimal dəhlizi, Xəzər dənizində əməkdaşlıq, İranda 40 milyona yaxın azərbaycanlının yaşaması kimi məsələlər əlaqələrə yeni təkan verməliydi. Lakin qeyd etdiyim dövlətlərlə münasibətlərdə dəyişikliklər müsbət istiqamətdə getdiyi halda, İranla münasibətlərdə paradoksallıq baş verdi. İrandan gözləmədiyimiz və bəlkə də gözlədiyimiz, ancaq bu şəkildə özünü göstərəcəyini fikirləşmədiyimiz münasibət görməyə başladıq.

Qeyd edim ki, buna oxşar vəziyyət özünü daha əvvəllər də, Azərbaycan torpaqları işğal altında olarkən İran-Ermənistan münasibətlərinin səviyyəsi ilə özünü göstərmişdi. Ona görə ki, Azərbaycanın yaxın hesab etdiyi heç bir ölkə Ermənistanla İran qədər sıx əlaqələr yaratmamışdı. Hətta Rusiya belə Ermənistanla münasibətlərdə siyasi neytrallığını qorumağa çalışır, balanslaşdırılmış siyasət yürüdürdü. İran isə ortaq mənəvi dəyərlərimiz olduğu halda tamamilə başqa xətt tutmuşdu.

Müharibədən sonra isə İranın Azərbaycana münasibəti başa düşülən deyil. Qısa müddət ərzində Azərbaycan sərhədlərinə yaxın sayca üçüncü genişmiqyaslı hərbi təlimlərin keçirilməsinin dostca izahı yoxdur. İranın hərbi rəhbərliyi bəyanat verir ki, bu təlimləri həm dostlara, həm düşmənlərə mesaj vermək üçün keçiririk. Yaxşı, dostlar, düşmənlər deyəndə kimi nəzərdə tutursunuz? Araz çayı üzərində körpülər quraşdıraraq tankları keçirməklə nəyi məşq edirsiniz?

İran Zəngəzur dəhlizini özünə təhlükə hesab edir. Bu da ondan irəli gəlir ki, İranda vəziyyəti düzgün təhlil etmirlər. Başa düşə bilmirlər ki, bu dəhliz İranın özü üçün də yeni iqtisadi dividendlərin yaranması deməkdir. Düzgün təhlillər aparılmadığı üçün isə İran yanlış davranış nümayiş etdirir. Digər tərəfdən bu onu göstərir ki, İran Azərbaycanın yaratdığı yeni reallıqlara hazır deyil. İran bu reallıqları həzm edə bilmir. Həzm etmək üçün yeni reallığı dərk etmək lazımdır. Bu reallığı dərk etmək üçün konkret məsələlər gündəmə gətirilib təhlil edilməlidir. İranda süni şəkildə yaranmış xof məcbur edir ki, onlar tamamilə reallıqla əlaqəsi olmayan addımlar atsınlar, hərbi təlimlər keçirsinlər, dostluqdan uzaq açıqlamalar versinlər və sairə.

Başqa məqam isə İranın bu həqiqətləri dərk edib-etməməsidir. Onlar dərk etməlidirlər ki, Ermənistanın siyasəti həm də İranın özünə qarşıdır. Ancaq istənilən halda, yəni İranın bunu dərk edərək, yaxud dərk etməyərək Azərbaycanın sərhədlərində genişmiqyaslı təlim keçirməsi qonşuluq və dostluq münasibətlərinə ziddir. İran rəhbərliyi Azərbaycanla dostluq münasibətləri haqda həmişə yüksək fikirlər söyləyib. Amma bu necə dostluqdur ki, sərhədlərimizdə üçüncü dəfə təlimlər keçirilir. Bu necə dostluqdur ki, Araz çayının üzərindən tankların keçidi sınaq edilir. Bu necə dostluqdur ki, Ermənistanla münasibətlər yeni səviyyəyə qaldırılır, Qafanda konsulluq açılır, Təbrizdə Ermənistanın konsulluğunun açılması barədə danışılır. Bu, İranın Azərbaycanın yeni yaratdığı reallıqları qəbul etməməsinin və bunun nəticəsində düzgün siyasi qərarlar verməməsinin nəticəsidir.

Əminəm ki, İran bunu başa düşəcək. Bunu başa düşməyə isə Azərbaycanın gücü, Azərbaycan-Türkiyə münasibətləri vadar edəcək. Azərbaycan-Türkiyə münasibətləri ölkəmizə qarşı olan bütün cəhdlərə qarşı ən tutarlı cavab və sipərdir. Azərbaycanla hədə-qorxu ilə danışmaq mümkün deyil.

Tam səmimiyyətlə deyə bilərik ki, İran təhlükəni Azərbaycandan yox, yaxın olduğu Ermənistandan gözləməlidir. Ona görə ki, Ermənistanın məqsədi hər zaman regionda gərginliyin mövcudluğu, xalqlar arasında nifaq salınması olub. Ermənistanın apardığı siyasət regionda sabitliyi pozaraq dividendlər qazanmaq niyyəti güdüb. Azərbaycan dövləti sabitliyi üstün tutur, Ermənistan isə sabitliyi pozulmağa, təhdid yolu ilə milli maraqlarını təmin etməyə çalışır. Məsələn, Azərbaycanın regionda yürütdüyü siyasət heç bir halda İranın milli maraqlarına qarşı yönəlməyib. Bakı bəyan edib ki, öz ərazisindən İrana qarşı istifadə oluna bilməz.

Lakin Ermənistanın siyasəti 180 dərəcə fərqlidir. Bu ölkə İranla dostluq etdiyi halda, ona qarşı olan qüvvələri ərazisinə gətirir. Misal üçün, ABŞ-nin dünyada ən böyük səfirliyi Ermənistandadır. Ermənilər hər yolla çalışırlar ki, Ermənistanda ən çox Qərbdən olan nümayəndəliklər fəaliyyət göstərsinlər. Bəs həmin nümayəndəliklər hansı ölkələri təmsil edir? Onların böyük əksəriyyəti ABŞ-ni təmsil edir ki, onun da İranla münasibətləri gərgindir. Qərb ölkələri Avropa İttifaqını, ATƏT-i təmsil edirlər ki, onlarla da İran arasında əlaqələr çox soyuqdur. Deməli, Ermənistan onları ölkəyə gətirirsə, hansısa formada İranın maraqlarına zidd addımlar atır. Hiyləgərliyin dərəcəsinə baxın ki, bir tərəfdən İrana yalvarır, digər tərəfdən onun maraqlarına qarşı çıxır. Belə ki, farslara tərəf üz tutaraq onlarla tarixi köklərinin eyni olduğunu və bu səbəbdən Ermənistanın Qərbə tərəf qaçdığı dövr ərzində İranın vaxtilə ona xəyanət etmiş "qan qohumlarını" yedirib-içirtməli və qorumalı olduğunu bəyan edir.

Eyni sözləri Ermənistanın Rusiya siyasəti barədə də demək olar. Ermənistan KTMT-nin üzvüdür, bütün iqtisadiyyatı Rusiyadan asılıdır, hətta sərhədlərini də Rusiya qoruyur. Amma Nensi Pelosinin səfəri zamanı bir gecədə İrəvanda Rusiya ilə dostluq posterləri yığışdırılmış, hər yerdə Ukrayna bayraqları asılmışdı.

Oxşar fikirləri Ermənistanın Türkiyəyə və Azərbaycana münasibəti barədə də demək olar. Azərbaycanla münasibətlərin normallaşdırılmasına paralel olaraq Türkiyə ilə də münasibətlərin normallaşdırılması üçün danışıqlar getdiyi halda Ermənistan beynəlxalq səviyyədə həm Azərbaycana, həm də Türkiyəyə qarşı iş aparır. Bu, Ermənistan fəlsəfəsinin ikiüzlülüyü deyilmi? Bu, Ermənistanın mahiyyətinin riyakarlılığı deyilmi? Riyakarlıq və ikiüzlülük isə sabitliyə gətirə bilməz.

*- Səməd müəllim, Ermənistanın danışıqlar prosesindəki ziddiyyətli davranışları fonunda Azərbaycanın onu sülhə və öhdəliklərini yerinə yetirməyə məcbur etməsini necə qiymətləndirmək olar?*

- Ermənistan kapitulyasiya aktını imzalayandan sonra bir dövlət kimi özünün mövcudluğunu sübut edə bilmir. Bu baxımdan Azərbaycan müharibənin qalibi, dünyada imzası olan, güclü, tamamilə yeni müstəvidə bir dövlət kimi bu gün iflasa uğramış, özünü sübuta yetirməyən, normal və müstəqil siyasət yürüdə bilməyən bir qurumla danışıqlar aparır.

Hakimiyyətdə olan N.Paşinyan və onun ətrafında olan qüvvələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Praqa görüşündə də bu bəyan edildi. Paşinyan Azərbaycanla münasibətlərin normallaşdırılması barədə danışır və çətin də olsa, bu proses gedir. Ancaq Ermənistanda bunu qəbul etməyən revanşistlər, müharibə istəyənlər də var. Bunlardan da başqa erməni diasporunun da proseslərlə bağlı öz marağı var. Diaspor nə hakimiyyətlə, nə də revanşistlərlə hesablaşmadan öz gündəmini ortaya qoyur. Bu gündəmi Fransa prezidentinin açıqlamaları, regionda gərginliyin bitməməsi, saxta "erməni soyqırımı" iddialarının müzakirəsi təşkil edir və bunun vasitəsilə diaspor Qərbdə özünə xal qazanmağa çalışır.

Çətinlik ondan ibarətdir ki, birincisi, Ermənistan hakimiyyəti özünün vahid siyasətini formalaşdıra bilmir. İkincisi, vahid siyasəti formalaşdırsa, danışıqlar masasında əyləşsə belə ondan sonra qorxu, təhdid və təzyiq altında verdiyi sözlərdən, imzaladığı sənədlərdən imtina edir, təxribatlara əl atır. Təsəvvür edin ki, biz belə bir ölkə ilə danışıqlar aparırıq.

Əvvəl qeyd etdiyim kimi, Ermənistan bir tərəfdən İranın yanına qaçır, digər tərəfdən ona qarşı hiyləgər siyasət yürüdür. Bir tərəfdən Rusiya ilə münasibətləri darmadağın edir, digər tərəfdən ondan kömək umur. Bax Ermənistanın siyasəti budur. Göründüyü kimi, Ermənistanın siyasəti yalnız ikiüzlülük deyil, həm də xəyanət əsasında formalaşır. Ermənilər Osmanlı dövründə türklərə xəyanət ediblər. Sonra ərazisində yaşadıqları Azərbaycana xəyanət ediblər. İndi isə Rusiyaya xəyanət edirlər. Lakin artıq yeni himayədar tapmaq cəhdləri bir tərəfdən regiondakı ümumi geosiyasi vəziyyətlə, digər tərəfdən isə ermənilərin regionda qaçmadığı və ya sığınmağa çalışmadığı qonşu dövlətin qalmaması ilə əlaqədar çətinləşib. Tarix boyu Şah Abbasdan Osmanlıya, onlardan ruslara, daha sonra sovetlərə qaçaraq, onlar vəziyyətdən istifadə edib Azərbaycanın böyük bir ərazisini öz əllərinə keçiriblər. Nəhayət, həm Sovet İttifaqına, həm də bizə xəyanət edib, yeni Rusiya Federasiyasından yapışaraq, onlara da eyni şəkildə satqınlıq edərək Qərb sivilizasiyasının bir hissəsi olduqlarını bəyan edirlər. Ancaq daha qaçmağa yer qalmayıb, dairə qapanıb.

Erməni siyasi qüvvələri həm də öz xalqına xəyanət edir. Bu baxımdan erməni xalqının faciəsi ondan ibarətdir ki, onun siyasi rəhbərliyi xalq tərəfindən verilmiş mandatı düzgün istifadə etmək iqtidarında deyil. Nəinki düzgün istifadə etmək iqtidarında deyil, həm də başqa dövlətlərin və siyasi mərkəzlərin maraqlarını regionda əks etdirməklə məşğuldur.

Prezident İlham Əliyev və N.Paşinyan arasında Praqada Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi və Fransa prezidenti E.Makronun iştirakı ilə keçirilən görüşdə tarixi nailiyyətlər əldə olundu. Bu görüş həmin vaxt Praqada 44 ölkənin rəhbərinin iştirakı ilə keçirilən "Avropa siyasi birliyi" Zirvə toplantısı çərçivəsində baş tutdu. Zirvə toplantısı çərçivəsində ən sanballı tədbir də məhz bu görüş oldu. Bundan başqa Praqada nəticəyönümlü başqa bir tədbir və ya görüş olmadı.

Bu görüşdə iki mühüm məsələ faktiki olaraq öz həllini tapdı. BMT-nin Nizamnaməsinə və 1991-ci il Alma-ata deklarasiyasına əsasən, Ermənistan Azərbaycanın, Azərbaycan da Ermənistanın ərazi bütövlüyünü tanıdı. Görüşdə təklif olunan məsələlərdən biri də Avropa İttifaqının sərhədlərin delimitasiyasını müşahidə missiyasının regiona gəlişi idi. Azərbaycan öz ərazisinə belə bir missiyanın gəlişinə etiraz etdi ki, bu da tamamilə düzgün yanaşmadır. Çünki Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası ilə bağlı komissiyalar yaradılıb, görüşlər keçirilib. Ona görə başqa bir formada kiminsə ərazilərimizə gəlib delimitasiya və demarkasiya ilə bağlı müşahidələr aparmasına ehtiyac yoxdur.

Ermənistan isə dərhal bu təklifə razı oldu və onları dəvət etdi. Amma göründüyü kimi, Ermənistan Rusiya tərəfindən qorunan sərhədlərinə NATO üzvlərindən ibarət müşahidə missiyasını dəvət edərək bir-birinə qarşı olan qüvvələri öz ərazisində üz-üzə gətirir. Yəni nə dərəcədə burnunun ucunu görməyən siyasət aparasan ki, Rusiya hərbçilərinin olduğu yerə Qərb müşahidəçilərini gətirəsən. Təbii ki, bu, Rusiyada xoş qarşılanmır.

Bununla yanaşı, Ermənistan ATƏT-in missiyasını da ərazisinə gətirmək istəyir. Bu da tamamilə qeyri-qanuni, konsensusdan uzaq missiyadır. Üzv dövlətlərin birgə qərarı olmadan göndərilən müşahidə missiyası legitim ola bilməz.

Beləliklə, Ermənistan həm Azərbaycanla, həm digər qonşuları və tərəfdaşları ilə ziddiyyətli siyasət yürüdür. Bir daha əvvələ qayıdaraq qeyd edirəm ki, İranla əlaqələri inkişaf etdirmək niyyətində olduğunu göstərən Ermənistan bu ölkəyə qarşı olan qüvvələri ərazisinə gətirir. Türkiyə ilə danışıqlar apardığı halda ona qarşı beynəlxalq səviyyədə gündəlikdə olmayan məsələləri qaldırır. İrəvanda son vaxtlar Rusiya ilə bağlı elə fikirlər səsləndirdilər ki, bu, Moskvada heç cür müsbət qarşılana bilməz. Belə fikirlər o zaman səslənə bilərdi ki, Ermənistanın iqtisadiyyatı Rusiyadan asılı olmasın. O zaman belə bəyanatlar verilə bilərdi ki, Ermənistan sərhədlərini özü qorusun. O zaman belə hərəkətlər edilərdi ki, ərazisində Rusiyanın hərbi bazası olmasın. Amma bunların hamısının mövcudluğu şəraitində və KTMT-in üzvü olduğu halda Ermənistanın belə bəyanatlar verməsi Rusiyaya da qarşı məkrli siyasətin yürüdülməsinin göstəricisidir.

Azərbaycana gəldikdə, Ermənistan ərazi bütövlüyümüzü tanıdığı halda ATƏT, Avropa İttifaqı, Avropa Şurasında və başqa təşkilatlarda, Fransa və ABŞ-dəki lobbisi vasitəsilə ölkəmizə qarşı qətnamələrin qəbuluna çalışır. Bununla da Azərbaycanla danışıqlar apardığı, Azərbaycanın ərazi bütövlüyünü tanıdığı və guya sülh yaratmaq niyyəti olduğu halda respublikamıza qarşı hansısa sənədlərin qəbuluna çalışırlar. Görürsüz, danışıqlar masasının arxasından qalxan kimi tamamilə fərqli siyasət yürüdürlər. İran, Rusiya, Türkiyə və Gürcüstanla da bağlı eyni şəkildə fəaliyyət sərgiləyirlər.

Bax belə bir subyektlə biz danışıqlar aparırıq. Ona görə Ermənistanda gedən proseslər həm də onu ciddi bir tərəf kimi qəbul etməyə imkan vermir. Lakin bunlara baxmayaraq, Azərbaycan Ermənistanı qətiyyətlə öhdəliklərini yerinə yetirməyə məcbur edir və bütün proseslər ölkəmizin milli maraqları çərçivəsində aparılır.

*- Fransa prezidenti Makronun Praqa görüşündən sonra Azərbaycana qarşı söylədiyi fikirlər nəyə xidmət edirdi?*

- Brüssel formatı çərçivəsində artıq bir neçə görüş keçirilib və müsbət istiqamətdə nəticələr var. Bu çərçivədə Praqada keçirilən görüşdə Fransa prezidentinin də iştirakı Azərbaycanın xoş niyyəti idi. Təəssüflər olsun ki, Fransa prezidenti bu xoş niyyəti dəyərləndirə bilmədi və növbəti dəfə öz acizliyini ortaya qoydu. Öz siyasətini Avropa səviyyəsində başqa bir müstəvidə göstərən Fransanın prezidenti bu məsələdə özünü aciz və ölkəsinin bəyan etdiyi dəyərləri müdafiə etmək iqtidarında olmayan tərəf kimi göstərdi. Ona görə ki, vasitəçi tərəf tuta bilməz, tərəf tutursa, vasitəçi ola bilməz. Makronun açıqlamaları Fransanın dövlət kimi nüfuzuna da böyük zərbədir.

Bu nöqteyi-nəzərdən ortaya çıxan nəticə həm də o oldu ki, Fransada siyasi korrupsiya dərin kök salıb. Heç təsadüfi deyil ki, bu gün Avropa Şurasında da Fransada siyasi korrupsiya, o cümlədən siyasi partiyaların içərisində korrupsiya müzakirə olunan məsələlərdən biridir.

Fransanın düşünən beyinləri bunu anlayır. Misal üçün bir neçə gün bundan əvvəl Fransanın Azərbaycandakı səfiri məqalə yazaraq, ölkəsinə hansısa formada bəraət qazandırmağa çalışdı. Ancaq reallıqda biz görürük ki, erməni diasporu və onun ətrafında birləşən qüvvələr faktiki olaraq Fransa siyasətini girov götürüblər. Fransa siyasətində fransız milli maraqları əvəzinə erməni diasporunun maraqları ifadə olunur. Fransanın ən böyük faciələrindən biri budur.

Ortaya çıxan nəticə həm də odur ki, erməni diasporu Ermənistanda gedən prosesləri əsla nəzərə almır, bu ölkənin gələcəyi, mövcudluğu haqqında düşünmür. Hətta onlar Ermənistan dövləçiliyinə belə zərbə vurmağa hazırdırlar ki, öz maraqlarını Qərb paytaxtlarında daha yüksək səviyyədə təmin edə bilsinlər. Onlara erməni xalqının mənafelərinin təmin olunması yox, münaqişənin mövcudluğu daha çox maraqlıdır. Onlara sülhün bərqərar olmasındansa erməni xalqının hansısa "soyqırımlara" məruz qalması daha vacibdir, daha effektivdir, daha sərfəlidir. Bu nöqteyi-nəzərdən çox təəssüf olsun ki, Fransanın siyasi elitası öz maraqlarını yox, həmin destruktiv qüvvələrin maraqlarını Fransanın maraqları kimi təqdim edirlər. Bu da birincisi, Fransanın milli siyasətinə tamamilə ziddir, ikincisi, Fransanın nüfuzunu aşağı salır, üçüncüsü və ən əsası Fransanın vasitəçilik missiyasında iştirakını qeyri-mümkün edir.

*- Fransanın artıq ömrünü başa vurmuş Minsk qrupu ətrafında spekulyasiyaları barədə nə demək olar?*

- Vətən müharibəsindən sonra Fransada və ermənipərəst siyasi mərkəzlərdə başa düşdülər ki, artıq müharibə haqqında danışmaq mümkün deyil. Ona görə ki, Azərbaycan özü BMT qətnamələrininin icrasını təmin edib. Başa düşdülər ki, özünə hörmət qoyan dövlət Azərbaycanın beynəlxalq prinsipləri pozduğunu iddia edə bilməz.

Bundan sonra Azərbaycana qarşı sərhədlərdə təxribat törətmək yolu ilə məkrli ssenarini işə saldılar. Bu ssenarini Azərbaycanın daxilində, Qarabağda edə bilmədilər. Çünki birincisi, bura Azərbaycanın öz ərazisidir, ikincisi isə burada müvəqqəti Rusiya sülhməramlıları var. Həm də bu ərazidə təxribat olanda Azərbaycan öz hərbi zərbəsini endirib və kimsə də ölkəmizə bir söz deyə bilməyib. Ona görə bu çirkin senarini Azərbaycan-Ermənistan sərhədlərində həyata keçirməyə cəhd etdilər. Sentyabrda bu təxribatı törətdikdən sonra bütün dünyaya hay-həşir salmağa başladılar ki, Azərbaycan Ermənistanın ərazi bütövlüyünü pozub, hərbçilərimizi öldürüb və sairə. Bunu emosional şəkildə dünyaya çatdırmaq üçün foto və videomontajlardan istifadə etdilər. Ermənilərin planı bu yalan iddialar əsasında Azərbaycana qarşı beynəlxalq kampaniyanın başlanması, sənədlərin qəbulu və həmin sənədlərdən danışıqlar prosesində Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etmək, Qarabağdakı ermənilər üçün status almaqdır. Status məsələsi gündəmdən çıxıb, amma ermənilər bu yollarla status məsələsini yenidən gündəmə gətirmək istəyirlər və Minsk qrupu ətrafında spekulyasiyalar da buradan qaynaqlanır.

Bundan irəli gələrək ermənilər bütün dünyada Azərbaycana qarşı yeni informasiya müharibəsi başladıblar. Lakin əvvəldə qeyd etdiyim kimi, bu gün onların qarşısındakı fərqli Azərbaycandır, güclü Azərbaycandır, ərazi bütövlüyünü bərpa etmiş, beynəlxalq hüququ təmin etmiş Azərbaycandır. İndi dünyada Azərbaycana başqa cür yanaşırlar. Bu baxımdan Azərbaycana təsir göstərmək mümkün deyil və ermənilərin istənilən ssenarisi iflasa məhkumdur. Regionda yeni reallıqlar yaradan Azərbaycan bundan sonra da milli maraqlarını qətiyyətlə təmin edəcək.

*- Fransa senatında qəbul olunmuş bədnam qətnamə barədə nə deyə bilərsiniz?*

- Daha əvvəl də qeyd etdiyim kimi, bu gün beynəlxalq miqyasda Azərbaycanın gücü, mövqeyi möhkəmlənib. Avropanın yeni formalaşan təhlükəsizlik, iqtisadiyyat, informasiya, mədəniyyət, millətlərarası münasibətlərində Azərbaycan yer alıb. Çünki Azərbaycan əraziləri erməni işğalında olduğu zaman münasibətlər tamam başqa bir rakursda idi. Artıq Azərbaycan öz ərazilərini azad edib və ölkəmizin mövqeyi tamam başqa cür qəbul edilir.

II Qarabağ müharibəsinə qədər bizə olan təzyiqlər torpaqların işğal faktı ilə barışmaqla bağlı idi. İndi isə bizə qarşı başqa bir səmtdə təzyiq göstərilir. Çünki biz artıq regionda güc mərkəziyik, Avropada öz təsir imkanlarımız var. Azərbaycanın qardaş Türkiyə ilə birgə fəaliyyəti də bu məsələlərə tamamilə başqa cür təsir göstərir. İndi məhz bu fəlsəfə gündəmə gəlib. Əslində II Qarabağ müharibəsinə qədər də Fransa ikitərəfli oyun oynayırdı. Sadəcə hazırda məqsədlər bir qədər başqadır. Azərbaycanın yaratdığı yeni reallıq indi tamam fərqli bir yanaşma tələb edir.

Nəzərə alsaq ki, hazırda III virtual Qarabağ müharibəsi gedir, Fransa və onun kimi qərəzli mövqedə olan digər dövlətlər bu gün sözün əsl mənasında vurnuxurlar. Buna baxmayaraq, Azərbaycanın bir çox Avropa ölkələri, Avropa İttifaqı ilə yaxşı münasibətləri mövcuddur. Prezidentimiz Avropada ən yüksək səviyyədə qəbul olunur. Eyni zamanda Azərbaycan Avropayla enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı genişləndirir, Avropaya qaz nəqlini iki dəfədən çox artırır. Həmçinin iqtisadi, təhlükəsizlik və informasiya sahələrində münasibətlər yeni səviyyəyə yüksəlir.

Bu gün Fransa daxilində elə bir mənzərə yaradıblar ki, özləri öz siyasətlərinin qurbanı olurlar. Erməni diasporu Qərb ölkələrində xərçəng xəstəliyi kimi yer alıb. Bu xərçəng xəstəliyi Fransada böyük dövlət olduğu üçün aydın görünməsə də, bunun elementlərini müşahidə etmək mümkündür. Bunu Makronun bir gün "hə" deyib, sonra "yox" deməsindən açıq şəkildə sezmək olur. İndi isə onlar Fransa senatında elə cəfəng xarakterli məsələlərə yer veriblər ki, bu, məsxərəyə çevrilib. Sadəcə olaraq Fransa senatında qəbul edilən həmin o bədnam qətnamə reallıqdan o qədər uzaq və qərəzlidir ki, bütün dəyərsizliyinə və lüzumsuzluğuna baxmayaraq konkret məna kəsb edir. Yəni artıq Fransa özünün danışıqlar prosesindəki vasitəçiliyini tamamilə etibarsız etmişdir və bu qətnamənin hansısa bəndinə ciddi yanaşmaq absurd görünür. Əslində, Birinci vitse-prezidentimizin UNESCO ilə bağlı atdığı addım həm UNESCO-ya, həm Fransa senatına dərs olmalıdır. Milli Məclis də artıq bu qətnamə ilə bağlı bəyanat verib və hər zaman olduğu kimi, bundan sonra da ölkəmizə qarşı bu cür hərəkətlərə, qərəzli mövqeyə Azərbaycan öz sərt reaksiyasını verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Heydər Əliyevlə başlanan, İlham Əliyevlə davam edən siyasət

## Bu, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib

Ötən ay müstəqilliyinin bərpasının 31 ilini geridə qoyan Azərbaycanın bütün parametrlər üzrə ən qüdrətli dövrünü yaşaması əsas tarixi reallıqlardan biridir. Təsadüfi deyil ki, bu gün ölkəmiz dünyada Qafqazın lideri, torpaqlarını güc yolu ilə azad edən qalib dövlət, özünün müstəqil və qətiyyətli siyasəti olan, Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilən, qlobal sülhə mühüm töhfələr verən ölkə kimi tanınır. Və bütün bu həqiqətlər zəncirvari şəkildə birləşərək tarixin ən güclü Azərbaycanını dünyaya bəyan edir.

### Azərbaycan təhlükələrdən xilas olaraq bugünkü uğurlara istiqamət aldı

Bu gün tariximizin qürurverici dönəmindən ötən dövrə nəzər salanda Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra hansı dolanbaclardan, hansı maneələrdən keçdiyini daha aydın görürük. Bir daha qətiləşdiririk ki, əgər Heydər Əliyev olmasaydı, onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası siyasi arenaya daxil olmasaydı, Ulu Öndər 1993-cü ilin ağır günlərində hakimiyyət sükanının arxasına keçməsəydi, bugünkü güclü Azərbaycan barəsində qürurla bəhs edə bilməzdik.

Tarixi elə müstəqil Azərbaycanın tarixi ilə bərabər olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxışı zamanı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev bu məqamlar üzərində xüsusilə dayandı. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi: "Bu gün Yeni Azərbaycan Partiyasının yubileyini qeyd edərkən hər birimiz, şübhəsiz, hər birimiz yenə də Ulu Öndərin xatirəsinə ehtiramımızı ifadə edirik. Çünki illər keçdikcə və dünya dəyişdikcə hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi".

Müstəqilliyimizin qorunması, dövlətçiliyimizin yaşadılması üçün ziyalıların Heydər Əliyevə müraciət etmələri təsadüfi deyildi. Çünki Azərbaycan cəmiyyəti buna qədər Ulu Öndərdən Vətən və xalq sevgisi görmüşdü. Heydər Əliyev istər Azərbaycana sovet dövündə rəhbərliyi zamanı, istərsə də SSRİ rəhbərliyində təmsil olunduğu illərdə ölkəmizin inkişafı üçün əlindən gələni etmişdi. Məhz Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan o dövrdə tarixinin ən böyük iqtisadi yüksəlişinə nail olmuşdu. Cəmiyyət həyatının bütün sahələrində yüksək göstəricilər əldə olunmuş, şəhərdən tutmuş ucqar kəndlərə qədər Azərbaycanın siması dəyişmiş, inkişaf etmiş, insanların sosial rifahı yüksəlmişdi. Daha sonra Ulu Öndər öz siyasi təcrübəsi ilə milli azadlıq mücadiləsinin güclənməsinə layiqli töhfələr vermiş, Naxçıvanı erməni işğalından qətiyyətlə qorumuşdu.

Buna görə də 1993-cü ilin ağır günlərində Azərbaycan xalqı ən doğru seçimini edərək Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Məhz Ulu Öndərin sayəsində Azərbaycan bütün təhlükələrdən xilas olaraq bugünkü uğurlara doğru istiqamət aldı. Heydər Əliyev müasir dövlətçiliyimizin əsaslarını yaratdı, hüquqi dövlət quruculuğunu reallaşdırdı, mütərəqqi islahatlar yolu ilə Azərbaycanı inkişaf yoluna çıxardı, dünya birliyinin ehtiram olunan üzvünə çevirdi.

### Dünya Azərbaycanın qüdrətinə şahidlik edir

Ötən 19 ildə Azərbaycan Ulu Öndərin yaratdığı möhkəm və sarsılmaz təməllər üzərində inkişaf edərək, tarixinin ən qüdrətli dövlətinə çevrilib. Bütün bunları təmin edən Prezident İlham Əliyevin rəhbərliyi ilə gedilən möhtəşəm inkişaf yolu müstəqillik tariximizin mühüm hadisəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyevin siyasi xətti davam və inkişaf etdirilərək güclü Azərbaycan dövləti quruldu: "Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır".

Heydər Əliyevin banisi olduğu müasir Azərbaycan dövləti bu gün regionda söz sahibi olan dövlətdir. Ölkəmiz həm də qlobal enerji təhlükəsizliyində aparıcı rol oynayır. Ən əsası, Azərbaycan dövləti malik olduğu enerji resursları ilə iqtisadi və sosial inkişafı sürətləndirdiyi kimi, özünün milli maraqlarını da qətiyyətlə təmin edir. Bu mənada Azərbaycan regionda öz sözünü deməklə yanaşı, qlobal miqyasda da ehtiramla qəbul olunan, prinsipial mövqeyi olan ölkədir.

Heydər Əliyevlə başlanan, İlham Əliyevlə davam etdirilən inkişaf siyasətinin mərkəzində dayanan əsas məsələlərdən biri torpaqlarımızın işğaldan azad edilməsi idi. Düzgün və qətiyyətli siyasət, Azərbaycanın yüksəlişi, beynəlxalq mövqelərini daha da möhkəmləndirməsi nəticə etibarilə torpaqlarımızın da işğaldan azad olunmasını təmin etdi. Vətən müharibəsində qazanılan qələbə Azərbaycanın tarixinin ən qüdrətli dövləti olmasının praktik təsdiqidir.

İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan Ulu Öndərin etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Bu inkişaf hər bir azərbaycanlının qürur mənbəyidir. Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng bərpa və yenidənqurma işlərinin timsalında dünya bir daha Azərbaycanın qüdrətinə, iradəsinə şahidlik edir. Bütün bunlar bir daha təsdiq edir ki, bu siyasi kurs Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yeni rekord

## Bu, İlham Əliyevin iqtisadi islahatlarının möhtəşəm nailiyyətidir

"Son 19 ildə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir".



Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə çıxış edən Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdə qazanılan möhtəşəm nailiyyətləri dəyərləndirdi.

Tarixə qısa ekskurs etsək, 2003-cü ildən 2022-ci ilədək Azərbaycanın çox böyük inkişaf yolu keçdiyini görərik. Əgər 2003-cü ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 6 milyard dollar idisə, bu gün həmin rəqəm 30,7 milyard, xərcləri isə 33,3 milyard manat proqnozlaşdırılır.

2004-cü ildə "Regionların Sosial İqtisadi İnkişafına dair I Dövlət Proqramı"nın icrasına başlanarkən 1,8 milyard dollar valyuta ehtiyatlarına malik olan Azərbaycan hazırda bu göstəricini 56 milyard dollara yüksəldib.

Ölkə iqtisadiyyatı 3 dəfədən çox artıb.

Ümumiyyətlə, 2022-ci ildə ümumi daxili məhsul - 7,2 faiz, qeyri-neft sektoru 11,5 faiz, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Xarici borcumuz ÜDM-nin 12,5 faizini təşkil edir. Onu da əlavə edək ki, Dünya Bankı bu il Azərbaycan iqtisadiyyatının real ifadədə 3,1 faiz, 2023-cü ildə isə 2,7 faiz artacağını proqnozlaşdırır. Yəni 2022-2023-cü illərdə ölkə iqtisadiyyatının orta artım tempinin 2,9 faiz olacağı güman edilir. Qeyd edilir ki, qeyri-enerji sektorunun, münaqişədən sonrakı yenidənqurma da daxil olmaqla, artan dövlət sərmayəsi ilə dəstəklənən iqtisadi artıma təkan verəcəyi gözlənilir.

Göründüyü kimi, Azərbaycan getdikcə iqtisadi imkanlarını daha da gücləndirir. Nəzərə almalıyıq ki, müharibədən çıxmış və işğaldan azad edilmiş torpaqlarda böyük tikinti-quruculuq işlərinə başlayan Azərbaycan bütün bunları heç bir beynəlxalq təşkilatdan maliyyə yardımı almadan öz qüdrəti sayəsində həyata keçirir.

Son 19 ildə İlham Əliyevin yürütdüyü müstəqil siyasət Azərbaycanın iqtisadi müstəqilliyə, müzəffər orduya sahib olan qüdrətli dövlətə çevrilməsini şərtləndirib. Hazırda da dünyanı təhdid edən qlobal iqtisadi böhran fonunda Azərbaycanın dayanıqlı inkişafı məhz İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar sayəsində əldə edilib. Uzaqgörən lider kimi qəbul etdiyi qərarlarla, reallaşdırdığı inkişaf strategiyası ilə Azərbaycanın gücünə güc qatan İlham Əliyevin bütün dövrlərdə müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası ölkəmizin istənilən böhrandan az itki ilə çıxmasını təmin edib.

Prezidentin söylədiyi kimi, iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir: "Ulu Öndərin yolu ilə gedərək biz, əlbəttə, bu gün dünyada baş verən dəyişikliklərə də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq".

Aparılan uğurlu iqtisadi-maliyyə siyasəti nəticəsində ölkəmizin xarici dövlət borcu əhəmiyyətli dərəcədə aşağı düşüb. Bu isə həm hazırkı dövr üçün, həm də gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Prezident bu ilin sonuna qədər xarici borcun ümumi daxili məhsuldakı payının 10 faizə qədər endiriləcəyini də vurğulayıb: "Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər".

İlham Əliyev çıxışında qarşıdakı hədəfləri və onların həlli ilə bağlı yol xətirəsini də müəyyənləşdirdi. Dedi ki, iqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir.

Cənubi Qafqazın iqtisadi mərkəzinə çevrilən Azərbaycanın coğrafi mövqeyi, böyük tranzit potensialı, nəhəng regional layihələri və əlverişli biznes mühiti ölkəmizə xarici investisiyaların cəlb olunmasına böyük töhfə verir. Müstəqillik illərindən bugünədək Azərbaycana yatırılmış investisiyaların həcminə nəzər yetirsək görərik ki, iqtisadiyyata yatırılan investisiyanın yarısı xarici sərmayələrdir. Bu, əlbəttə ki, xarici investorların Azərbaycana olan inamının göstəricisidir.

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan həm də regionda yaratdığı yeni reallıqlara uyğun addım atır. Artıq qarşıya qoyulan hədəflər də bəllidir. Bütün bu proseslər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" inkişaf strategiyasına uyğun reallaşdırılır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Taxıl idxalını minimuma endirmək üçün...

## Mövcud imkanlardan və dövlətin dəstəyindən maksimum istifadə olunmalıdır



Rusiya-Ukrayna müharibəsi və digər səbəblər üzündən dünyada ərzaq böhranı riski qalmaqdadır. Bu yaxınlarda Rusiyanın Sevostopol hadisəsini bəhanə edərək "Taxıl sazişi"ndən çıxması, daha doğrusu çıxmaq istəməsi yəqin ki, hamının yadındadır. Yalnız Türkiyənin səyi nəticəsində şimal qonşumuz yenidən anlaşmanın şərtlərini yerinə yetirməyi qəbul etmişdir.

Heç kəs inkar etməz ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünyanın taxıla olan ehtiyacının ödənilməsində müstəsna rol oynayır. Məhz onun qətiyyəti sayəsində taxıl anlaşmasını daha 120 gün müddətində uzadılması mümkün olmuşdur. Təsadüfi deyil ki, Avropa İttifaqının prezidenti Şarl Mişel bunun dünya üçün "yaxşı xəbər" olduğunu bildirmişdir. Onu da qeyd edək ki, qardaş ölkənin səyi nəticəsində Rusiya və Ukraynadan dünya bazarlarına milyonlarla ton taxıl ixrac olunmuşdur.

Bütün bunlar bir daha göstərir ki, taxıl böhranına səbəb təkcə buğda qıtlığı deyil. Rusiya-Ukrayna müharibəsi səbəbindən Qərbin Rusiyaya taxıl ixracına imkan verməməsi, Rusiyanın da cavab olaraq Ukraynadan dəniz vasitəsilə buğda ixracına mane olması qıtlığın digər əsas səbəbidir. Məlumat üçün bildirək ki, cari ildə şimal qonşumuz 152 milyon ton buğda tədarük edib ki, bu da 55-60 milyon ton ixraca imkan verir. Ancaq Qərb ölkələrinin buna imkan verib-verməyəcəyi hələlik bilinmir.

Azərbaycan da daxili tələbatı ödəyəcək qədər buğda istehsal etmir. Bu üzdən taxıl idxal edən ölkələrdən sayılırıq. Ölkəmiz ildə təxminən xaricdən 1,2-1,3 milyon ton buğda idxal edir. Odur ki, hökumət daxili bazarın tələbatının tam ödənilməsi üçün lazım olan bütün tədbirləri görür. İqtisadçı ekspertlər də etiraf edirlər ki, qiymət artımı qaçılmaz olsa da, taxıl qıtlığından söhbət gedə bilməz. Bu gün Azərbaycanın kifayət qədər taxıl ehtiyatı var. Hazırkı taxıl ehtiyatımız 200-250 gün ehtiyaclarımızı ödəməyə bəs edir. Üstəlik də, Azərbaycan Qazaxıstanla yeni müqavilələr bağlayıb. Bu müqavilələr hesabına Qazaxıstandan taxıl məhsullarının idxalı dəfələrlə artıb.

Bununla belə, ölkəmizin taxıl idxalından asılılığını maksimum dərəcədə aradan qaldırmaq üçün bu sahə ilə məşğul olan fermerləri daha çox buğda əkməyə təşviq etmək lazımdır. Necə deyərlər, qonşu işığına (çörəyinə) ümid etmək olmaz.

Elə isə bu sahədə vəziyyət necədir? Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, pivot suvarma sistemlərinin mövcud olduğu 20 min hektar sahə üzrə 18 subyektlə müqavilələr bağlanılıb. Bu işə 50 hektardan çox sahəsi olan təsərrüfatlar cəlb edilib. Bağlanmış müqavilələr cari il əkilən taxıl üçün nəzərdə tutulur. Fermerlərə məhsul subsidiyasının verilməsi ölkədə ərzaqlıq buğdanın keyfiyyətinin və həcminin artırılmasına səbəb olacaq.

Məlumatda həmçinin bildirilir ki, kiçik təsərrüfat sahibləri qonşuları ilə torpaq sahələrini birləşdirərək minimum 50 hektar sahə üzrə müraciət edə bilərlər. Təbii ki, bu, müasir suvarma sistemlərini tətbiq edən təsərrüfat sahələri olmalıdır. Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanacaq müqaviləyə əsasən, müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına (tədarükçülərə) təhvil verilən ərzaqlıq buğdaya gələn ildən başlayaraq 5 il müddətində məhsul subsidiyası tətbiq ediləcək.

İndiyədək təqribən 30-40 aqroparkla və 20-dən çox iri fermer təsərrüfatı ilə görüş keçirilib və hazırda belə görüşlər davam edir. Danışıqlar əsasən iki istiqamətdə aparılır. Birincisi, mövcud pivot sistemlərinin tətbiq edildiyi sahələr üzrə müqavilələr imzalanır. İkincisi isə ərzaqlıq buğda istehsal etmək üçün pivot suvarma sistemlərinin qurulması ilə bağlıdır.

Onu da qeyd edək ki, KTN-də ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair tədbirlərin icrası ilə bağlı İşçi Qrupu yaradılıb. Ayda iki dəfə İşçi Qrupu aidiyyəti aqroparklardan nümayəndələr və digər maraqlı şəxslərlə birlikdə müzakirələr aparır. Müzakirələrdə problemdən danışılır, təkliflər verilir. Bu müzakirələrdən sonra hər bir aidiyyəti qurum üzərinə düşən öhdəlikləri aydın başa düşür.

Məlumdur ki, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi taxılçılığın inkişafı üçün yeni imkanlar yaradıb. Həmin ərazilərdən səmərəli istifadə etməklə ölkəmiz idxaldan asılılığı xeyli azaltmağı hədəfləyib. Prezident İlham Əliyev bu barədə demişdir: "Azad edilmiş ərazilərdə həm kənd təsərrüfatı, həm maldarlıq, həm bitkiçilik üçün çox münbit iqlim və təbii şərait var. Biz, əlbəttə ki, maksimum dərəcədə bundan səmərəli şəkildə istifadə etməliyik. Eyni zamanda ərzaq təhlükəsizliyi ilə bağlı mövcud olan məsələlər, bu günün məsələləri deyil. Sadəcə olaraq, Rusiya-Ukrayna müharibəsi nəticəsində bu məsələlər daha da kəskinləşir. Əlbəttə, torpaqlarımız işğalçılardan azad olunandan sonra mən dərhal göstəriş verdim ki, biz vaxt itirmədən bu torpaqlarda əkin-biçinlə məşğul olmalıyıq. …Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



**QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR**
***dirçəliş yolundadır***





# Daha bir qrup ağalılı Yeni ili Zəngilanda qarşılayacaq

Azərbaycan 44 günlük müharibədəki parlaq zəfərdən sonra tamamilə yeni, çağırışlarla dolu və uğurlu bir dövrə qədəm qoyub. 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü təmin edən ölkəmiz müharibədən dərhal sonra Qarabağda və Şərqi Zəngəzurda nəhəng bərpa və quruculuq işlərinə başlayıb.

Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdəki çıxışı zamanı Prezident İlham Əliyev də söylədi ki, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq: "Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq".

### Böyük qayıdış milli prioritetdir

Keçmiş məcburi köçkünlərin öz yurdlarına tezliklə qaytarılmasını qarşısına milli prioritet olaraq qoyan Azərbaycan dövləti işğaldan azad edilən ərazilərdə təhlükəsiz və yüksək həyatın təmini üçün mühüm layihələr gerçəkləşdirir. İlk olaraq Qarabağın və Şərqi Zəngəzurun infrastrukturu qurulur, eyni zamanda "ağıllı kənd", "ağıllı şəhər"lər salınır.

30 il ərzində Ermənistanın xaraba qoyduğu bir ərazini, Zəngilanın Ağalı kəndini çox qısa zamanda qurub, bərpa edən dövlətimiz bu kəndi zəfərdən sonra qayıdışın ilk ünvanına çevirməklə yanaşı, həm də Cənubi Qafqazda ilk "ağıllı kənd" konsepsiyası ilə qurulmuş möhtəşəm məkana çevirdi.

2022-ci ilin 19 iyulunda vaxtilə Ağalıdan zorla didərgin salınan insanlar öz yurdlarına döndülər, köçkünlük yükündən qurtularaq onlar üçün qurulmuş yeni həyata qədəm qoydular. Sözügedən tarixdən etibarən Ağalı kəndinə əhalinin dörd mərhələdə köçürülməsinə start verildi.

Sentyabrın 7-də isə Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsinə başlanıldı. Məcburi köçkünlərin 12 ailədən (63 nəfər) ibarət növbəti qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyi"ndən öz yurd-yuvalarına yola salındı. Böyük qayıdışa uyğun olaraq ikinci mərhələdə daha 25 ailənin (125 nəfər) köçürülməsi planlaşdırılırdı və digər 13 ailə (62 nəfər) isə sentyabrın 10-da Ağalı kəndinə köçürüldü. 30 illik yurd həsrəti bitən ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi yaşamağa başladılar.

"Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Eləcə də burada ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi tikilib.

Artıq Ağalıda ilk məktəb zəngi də çalınıb və bu tədris ilindən ağalılı şagirdlər öz kəndlərindəki məktəbə yollanıblar.

### Gələn il martın sonuna qədər daha yüz nəfərin Ağalıya köçürülməsi planlaşdırılır

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev məlumat verib ki, "ağıllı kənd"də ümumilikdə 210 evin tikintisi nəzərdə tutulub. Artıq 87 evin tikintisi başa çatıb, 113 evin tikintisi isə davam etdirilir. Dekabrda sakinlərin növbəti qrupu kəndə köçəcək.

V.Hacıyev bildirib ki, 2023-cü il martın sonuna qədər daha yüz nəfərin Ağalıya köçürülməsi planlaşdırılır. Gələn ilin ortalarında Zəngilandakı digər kəndlərin, o cümlədən artıq layihələndirmə işləri başa çatan Zəngilan şəhərində də tikinti işlərinə başlanılacaq.

Xüsusi olaraq qeyd edək ki, bu gün dünyanın da gözü Azərbaycan dövlətinin qısa zaman içərisində xarabalıqlardan abad məkana çevirdiyi, ən müasir infrastruktur qurduğu ilk "ağıllı kənd"imiz Ağalıdır. Ötən müddət ərzində xeyli sayda beynəlxalq ictimaiyyət nümayəndəsi, səyyahlar, media mənsubları yollarını Zəngilandan salaraq Cənubi Qafqazın ilk "ağıllı kənd"i ilə tanış olub, bura gələrkən yolboyu şahid olduqları erməni vandalizminin fonunda Azərbaycan xalqının quruculuğuna bir daha heyrətlə tamaşa ediblər.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Böyük qayıdışın manifesti

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq edib. Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub.





Bu dövlət proqramı isə yeni inkişaf mərhələsində milli hədəflərimizə çatmağa xidmət edən mühüm sənəddir.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, bu sənəd həm də Prezident İlham Əliyevin ərazilərimizin dirçəldilməsi ilə bağlı iradəsinin əməli ifadəsidir.

### Qarabağın və Şərqi Zəngəzurun yaxın və uzaq gələcəyini əyani təsvir edən dövlət proqramı

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli bildirib ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışa dair I Dövlət Proqramı XXI əsrdə azad Qarabağın və Şərqi Zəngəzurun mükəmməl yol xəritəsidir: "Bu, möhtəşəm tarixi zəfərə imza atmış Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyü şəraitində Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması sahəsində apardığı məqsədyönlü siyasətin strategiyası və taktikasını özündə əks etdirən mühüm sənəddir. Dövlət proqramı, həmçinin Böyük qayıdışın manifestidir. Həmin sənəd Qarabağın və Şərqi Zəngəzurun yaxın və uzaq gələcəyini əyani şəkildə təsəvvür etməyə imkan yaradan bələdçidir".

Deputat bildirib ki, iqtisadi cəhətdən son dərəcə əhəmiyyətli olan dövlət proqramı siyasi-ideoloji cəhətdən də əsaslandırılmış sənəddir: "Proqramın müddəaları həm də ciddi elmi əsaslara malikdir. Təqdim edilmiş dövlət proqramı Azərbaycanın müstəqillik tarixinə İlham Əliyev proqramı kimi daxil olur. Heç şübhəsiz ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə indiyədək dövlət səviyyəsində imzalanmış digər dövlət proqramları kimi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" da vaxtında və yüksək səviyyədə yerinə yetiriləcəkdir".

İsa Həbibbəylinin sözlərinə görə, AMEA-nın kollektivi də Qarabağın və Şərqi Zəngəzurun real gələcəyini və inkişaf perspektivlərini əks etdirən bu mühüm əhəmiyyətə malik olan dövlət proqramının həyata keçirilməsi üçün üzərinə düşən vəzifələri məsuliyyətlə həyata keçirəcək.



### Proqram sistemli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, proqram Qarabağ və Şərqi Zəngəzura qayıdışın birinci mərhələsində vətəndaşlarımızın öz ata-baba yurdlarında məskunlaşması üçün sistemli və ünvanlı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur: "Dövlət proqramının əsas hədəfləri infrastrukturun, iqtisadiyyatın formalaşması və inteqrasiyası, sosial inkişaf və ərazilərdə ekoloji mühitin yaxşılaşdırılmasıdır. Hədəflər müasir çağırışlara uyğundur. Təəssüf ki, Qarabağ və Şərqi Zəngəzurda infrastruktur mənfur düşmən tərəfindən tamamilə dağıdılıb. Hazırda onun yenidən qurulması istiqamətində işlər gedir, nəqliyyat və logistik imkanların genişlənməsi, şəhər, qəsəbə və kənd tipli yaşayış məntəqələrinin qurulması həyata keçirilir".

Deputat bildirib ki, gələn ildən etibarən işğaldan azad edilmiş ərazilərdə 10 il müddətinə gəlir vergisi güzəştlərinin tətbiqi də planlaşdırılır: "Bu, iqtisadiyyatın formalaşması baxımından vacibdir. Prezident İlham Əliyevin göstərişi ondan ibarətdir ki, dədə-baba yurduna köçən vətəndaşlarımız işlə təmin olunsunlar. Ərazilərdə məskunlaşan vətəndaşlarımızın sosial təminatı da proqramın prioritetlərindəndir. Proqramda konkret hədəf və fəaliyyətlər, həmçinin qiymətləndirmə əksini tapıb".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Narkotik satışı, oğurluq, sərnişinlərə qeyri-etik təkliflər...

### Paytaxtda taksi sürücüləri arasında keçirilən reyd zamanı bu qanun pozuntuları müəyyən edilib

Bakıda taksi sürücüləri arasında keçirilən növbəti reydin nəticələrinə əsasən, taksi fəaliyyəti ilə məşğul olan 31 sürücünün müxtəlif qanun pozuntularına yol verdikləri qeydə alınıb.

Sürücülərdən biri narkotik vasitələrin qanunsuz dövriyyəsi, digəri oğurluq cinayəti, 29-u isə qadın sərnişinlərə qarşı qeyri-etik təkliflərinə görə polis tərəfindən saxlanılıb. Onlardan 29 nəfəri inzibati məsuliyyətə, 2 nəfəri isə cinayət məsuliyyətinə cəlb edilib.

Görünən odur ki, bəzi sürücülər özlərinin çirkin cinayət əməlləri üçün də bəzən taksilərdən istifadə edirlər. Müşahidələr göstərir ki, taksi xidmətləri zamanı baş verən hüquqpozmalar hətta reydlər zaman aşkarlananlardan da çoxdur. Ona görə də respublikada qeyri-qanuni şəkildə taksi fəaliyyəti ilə məşğul olan, Nazirlər Kabinetinin taksi tələbi ilə bağlı elan etdiyi reqlamenti pozanların aşkarlanması üçün keçirilən reydlər müntəzəm xarakter daşımalıdır.

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov bildirib ki, hazırda paytaxtda taksi xidmətləri əlçatan olsa da, keyfiyyət və təhlükəsizlik baxımından xeyli çatışmazlıqlar var: "Hər gün taksilərlə bağlı müxtəlif problemlər yaşanır, fərqli şikayətlər səsləndirilir. Görünən odur ki, ölkədə taksi şirkətləri ilə sürücülər, eləcə də sürücülərlə sərnişinlər arasında problemlər çoxdur. Ona görə də polisin bu istiqamətdə apardığı reydlərin sayını artırmaq faydalıdır. Getdikcə taksi fəaliyyəti ilə bağlı intensivləşən sui-isifadə hallarının qarşısı alınmalıdır. Reydlər nəticəsində qeyri-qanuni taksi fəaliyyəti ilə məşğul olanları, çirkin əməlləri üçün belə xidmətlərdən istifadə edən sürücüləri aşkarlamaq mümkündür. Nəzərə almaq lazımdır ki, məzmunundan asılı olmayaraq istənilən qanun pozuntusu real qəza deməkdir".




***N.QARDAŞXANOVA, "Azərbaycan"***

# Türkiyənin antiterror əməliyyatı davam edir

### Hulusi Akar ilin əvvəlindən bəri 3585 terrorçunun zərərsizləşdirildiyini bəyan edib

Noyabrın 21-də YPG terrorçuları Türkiyənin cənubuna raket zərbələri endirib. Qaziantep vilayətinin Karkamış sərhəd bölgəsinin atəşə tutulması Suriyanın şimalından həyata keçirilib. Qaziantep valisi Davud Gül bildirib ki, terrorçular ümumilikdə Karkamış bölgəsinə 5 mərmi atıb, nəticədə 3 nəfər ölüb, 6 nəfər yaralanıb.



Bundan əlavə, Suriya ilə həmsərhəd Kilis vilayətinə raket zərbələri endirilməsi nəticəsində türk hərbçiləri yaralanıb. YPG/PKK terrorçuları Oncupınar keçid məntəqəsini atəşə tutub.

Türkiyə ordusu bölgədə terror təhlükəsinin aradan qaldırılması üçün əməliyyatlara başlayıb. Cinayət təşkilatlarının obyektlərinə hücumlar həm Türkiyə daxilində, həm də onun hüdudlarından kənarda həyata keçirilir. Bunu Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar dünən parlamentdə ölkənin müdafiə nazirliyinin büdcəsi ilə bağlı müzakirələrdə çıxışı zamanı deyib.

Terrorçuların hərəkətlərinə cavab olaraq noyabrın 20-nə keçən gecə Türkiyə Silahlı Qüvvələri Pençe-Kılıç əməliyyatı keçirib. Birinci mərhələdə İraq və Suriyanın şimalında terrorçuların 81 hədəfi, sonra isə qanlı təşkilatın yaraqlılarının daha 8 yerləşdirmə məntəqəsi məhv edilib.

Müdafiə Nazirliyinin rəhbəri Türkiyə Silahlı Qüvvələrinin son illərdə apardığı əməliyyatların statistik məlumatlarına istinad edib.

Akarın dediyinə görə, bu il yanvarın 1-dən indiyədək Türkiyə Silahlı Qüvvələri ölkə ərazisində, eləcə də Şimali İraq və Suriyada 3585 terrorçunu zərərsizləşdirib, ümumilikdə Türkiyənin antiterror mübarizəsinin yeni mərhələsinin başladığı 24 iyul 2015-ci il tarixdən bu rəqəm 36 854 nəfər təşkil edir.

Nazir Türkiyənin istənilən sakininin ölümünün qanlı cinayətkar təşkilatlar üçün ağır nəticələr verəcəyini vurğulayıb.

Akar Türkiyə Silahlı Qüvvələrinin bu ilin aprelindən bəri Şimali İraqın 3 bölgəsində davam etdirdiyi "Pençe-Kilit" əməliyyatından da danışıb. "Pençe-Kilit əməliyyatı çərçivəsində 460 terrorçu zərərsizləşdirilib, 530 min döyüş sursatı olan anbar aşkar edilib, 1146 silah, 1929 mina və partlamamış hərbi sursat ələ keçirilib", - deyə nazir vurğulayıb.

Nazirin dediyinə görə, ölkənin təhlükəsizliyinin mühüm tərkib hissəsi dövlət sərhədinin pozulması hallarının qarşısının alınmasıdır.

Hulusi Akar bildirib ki, təkcə ilin əvvəlindən Türkiyə hərbçiləri 234 282 nəfərin sərhədi qanunsuz keçməsinin qarşısını alıb, 7 107 qanunsuz miqrantı saxlayıb. 724 terrorçu yaxalanaraq hüquq-mühafizə orqanlarına təhvil verilib".

Egey dənizi və Aralıq dənizinin şərq hissəsindəki vəziyyətə toxunan türkiyəli nazir vurğulayıb ki, Türkiyə regionda Ankaranın maraqlarını pozacaq status-kvonun formalaşmasına imkan verməyəcək.

***R.HİLALOĞLU, "Azərbaycan"***

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Noyabrın 22-si saat 10:35-dən 14:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Əzizli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətindəki mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Noyabrın 22-si saat 09:17-dən 14:48-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Füzuli, Şuşa, Xocavənd, Tərtər və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri də fasilələrlə atəşə tutulub.

Bu istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# REGİONLAR

## Kənd təsərrüfatı məhsullarının istehsalı 3,2 faiz artıb

**Dövlət Statistika Komitəsi cari ilin yanvar-oktyabr ayları üzrə kənd təsərrüfatı məhsullarının istehsalı barədə rəqəmləri açıqlayıb.**

Bildirilib ki, bu dövrdə ölkə üzrə faktiki qiymətlərlə dəyəri 9 milyard 728,7 milyon manat olan kənd təsərrüfatı məhsulları istehsal edilib. Bunun da 4 milyard 424,5 milyon manatlığı heyvandarlıq, 5 milyard 304,2 milyon manatlığı isə bitkiçilik məhsullarının payına düşür.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 3,2, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,1, bitkiçilik məhsulları üzrə isə 3,2 faiz artıb.

## Tədarük məntəqələrinə 275 min tondan çox pambıq təhvil verilib

**Son məlumata görə, fermerlər kondisiya çəkidə 275327 ton pambıq yığaraq tədarük məntəqələrinə təhvil veriblər. Pambığın orta məhsuldarlığı hektardan 26,41 sentnerdir.**

Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, İmişli, Saatlı, Tərtər, Yevlax və Zərdab rayonlarında orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksəkdir.

Artıq birinci yığım başa çatmış bəzi bölgələrdə pambığın ikinci yığımı başlayıb.



Bu il Azərbaycanın 16 rayonunda ümumilikdə 100 min hektardan artıq sahədə pambıq əkini aparılıb. Ən çox pambıq Saatlı, Ağcabədi, Sabirabad və Bərdə rayonunlarının ərazisində əkilib. Bu rayonların ərazisində pambıq əkinlərinin sahəsi 11 min hektardan çoxdur. Ümumilikdə ölkə üzrə pambıq əkini sahələrinin 45 faizdən çoxu bu 4 rayonun payına düşür.

Pambıq yığımı prosesinə 447 kombayn və 3085 traktor yedəyi cəlb olunub. Pambıqyığan kombaynların sayı sahələrdən məhsulun 100 faizə yaxınını texnika vasitəsilə yığmağa imkan verir.

Pambıq yığımının optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

●İLƏ YEKUN VURULUR

# Hər qarış torpağı bərəkətdir

**Lənkəran ölkəmizin iri iqtisadi, ictimai-siyasi, mədəni mərkəzlərindəndir. Səsi-sorağı əsrlərin o başından gələn bu diyar tarixin bütün dövrlərində əhalisinin milli-mənəvi dəyərləri, torpağa bağlılığı, vətənə məhəbbəti, sədaqəti ilə seçilmişdir.**



El arasında Lənkərana cənub bölgəsinin paytaxtı da deyirlər. Tarixdən məlum olduğu kimi, XVIII əsrin 2-ci yarısından başlayaraq inkişaf etməyə başlayan Lənkəran şəhərində yadelli işğalçılardan qorunmaq üçün qalalar və digər müdafiə istehkamları inşa olunmuşdur. Şəhərdə bir sıra başqa tikinti işləri də aparılmış və nəticədə Lənkəran getdikcə böyümüş, inkişaf etmişdir.

İnkişafdan söz düşmüşkən, etiraf edək ki, sovetlərin mövcud olduğu 70 il ərzində Lənkəran sürətli inkişaf yolu keçmişdir. Xüsusən Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə həmin inkişaf daha sürətli olmuşdur. Həmin illər Lənkəranda çox mühüm obyektlər tikilib istifadəyə verilmişdir. Xanbulançay su dəryaçası onlardan biridir. Onun istifadəyə verilməsi rayonda çayçılığın, tərəvəzçiliyin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Və bir də həmin illər Lənkəran o qədər abadlaşmışdır ki, respublikamıza gələn ali, hörmətli qonaqları, nümayəndə heyətlərini mütləq bura gətirirdilər. Onların bu əsrarəngiz diyar haqqında dedikləri xoş sözlər bu gün də rayonun Tarix və Diyarşünaslıq Muzeyindəki xatirə kitabında saxlanılır.

Təəssüf ki, SSRİ-nin süquta uğramasından sonra baş verən məlum hadisələr nəticəsində hər yerdə olduğu kimi, Lənkəranda da vəziyyət dəyişmişdir. Təsərrüfatlar, zavod və fabriklər fəaliyyətlərini dayandırmış, insanlar işsiz qalmış, baxımsızlıq üzündən yollar, küçələr, bağlar, xiyabanlar bərbad hala düşmüş, əhalinin elektrik enerjisi, təbii qaz, içməli su təchizatı yox dərəcəsinə enmişdir. Bütün bunları müasir dövrümüzlə müqayisə edəndə adamın həmin məşəqqətlərə inanmağı gəlmir. Həm də inanmağı gəlmir ki, cəmi 25-30 ilə Azərbaycan bu səviyyədə inkişaf yolu keçə bilmişdir.

Bu illər ərzində Lənkəranda da sosial-iqtisadi problemlər mərhələli şəkildə həllini tapmışdır. İlk növbədə əhalinin işıq, təbii qaz, içməli su problemləri həll olunmuş, sonra yollar, küçələr, yaşayış məntəqələri abadlaşdırılmış, ardınca yeni müəssisələr yaradılmış, iş yerləri açılmış, müasir tipli məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları istifadəyə verilmişdir. Azərbaycanda ilk müalicə-diaqnostika mərkəzi Lənkəranda açılmış və regionlar üzrə ilk açıq ürək əməliyyatı bu mərkəzdə aparılmışdır. Lənkəran Beynəlxalq Hava Limanı, Olimpiya İdman Kompleksi, Uşaq Sağlamlıq Mərkəzi və digər obyektlər də bu cənub şəhərini məşhurlaşdıran, tanıdan ünvanlardır. Və çox fərəhli haldır ki, həmin obyektlərin çoxunun təməlqoyma və istifadəyə verilmə mərasimlərində dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva iştirak etmişlər.

Təsərrüfat sahəsinə gəldikdə, bu gün Lənkəranda çayçılığın, sitrus meyvəçiliyin, çəltikçiliyin inkişafı ilə bağlı mühüm proqramlar həyata keçirilir. Köhnə çay plantasiyaları təmir edilir, yeniləri salınır, müasir çay fabrikləri tikilib istifadəyə verilir. İndi keyfiyyətli, ekoloji cəhətdən təmiz Lənkəran çayı xarici ölkələrdə tərəddüdsüz alınır. Dövlət proqramları çərçivəsində rayonda sitrus meyvəçiliyinin həcmi genişləndirilmiş, Koreya, Hollandiya və digər ölkələrdən məhsuldar, xəstəliyədavamlı, dadlı-ləzzətli sortlar gətirilmişdir. Onların bir çoxu müalicəvi əhəmiyyətə malikdir.

Çəltik Lənkəran üçün ənənəvi bitkidir. Hazırda onun inkişafı, istehsalının artırılması üçün geniş imkanlar var. Çayçılıq və sitrusçuluqda olduğu kimi, bu sahənin inkişafı üçün də dövlət tərəfindən lazımi şərait yaradılır, sahibkarlara, torpaq mülkiyyətçilərinə subsidiyalar verilir. Bunun nəticəsidir ki, göstərilən sahələrin hər birində dinamizm özünü göstərir.

Lənkəran həm də təkrarsız təbiəti ilə turizm mərkəzidir. Cənub-qərbdən yaşıl örtüklü dağlar, şərqdən mavi gözlü Xəzər, çaylar, bulaqlar, şəlalələr, limon, narıngi, portağal, feyxoa bağları bura qonaq gələn hər kəsi ovsunlayır. Turizm sahəsi üzrə rayonda Turizm İnformasiya Mərkəzi fəaliyyət göstərir. İstirahət mərkəzlərinin, müalicəvi əhəmiyyətli yerlərin sayı ildən-ilə artır. İndi rayonda onlarca belə obyektlər var.

2022-ci ilin başa çatmasına bir aydan bir az çox vaxt qalır. Lənkəranlılar 2019-2023-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı dövlət proqramının daha bir ilini yola salmağa hazırlaşırlar. Bu il sənayenin inkişafı ilə bağlı bir sıra işlər görülmüşdür. "LP" MMC tərəfindən plastik məmulatların istehsalı müəssisəsinin inşası artıq başa çatmaq üzrədir. Digah kəndində dam örtükləri istehsal edən "Nur" kiçik müəssisəsi isə fəaliyyətə başlayıb. Eyni zamanda qənnadı məhsulları hazırlayan "Laran" MMC-nin tikintisi tamamlanmışdır. Paralel olaraq "Gilan Lənkəran Konserv" zavodunda aylıq istehsal gücü 1500 ton olan tomatdoldurma xətti və "Lənkəran Konserv" ASC-də leço istehsalı üçün yeni avadanlıqlar quraşdırılıb. "Həyat" çörək zavodunda da yeni avadanlıqların quraşdırılmasının yekunlaşmasına çox qalmayıb.

Cari ildə rayonun Osakücə kəndində "Beta" şirkəti, İstisu qəsəbəsində "Yaşıl Çay" fermer təsərrüfatı, Haftoni qəsəbəsində, Vilvan və Xanbulan kəndlərində fermer və ailə təsərrüfatları tərəfindən yeni, daha məhsuldar çay plantasiyaları salınmış, "Beta" şirkəti tərəfindən tingçilik təsərrüfatı yaradılmışdır. Söz düşmüşkən, bildirək ki, hazırda rayon üzrə 567,3 hektar çay plantasiyası mövcuddur. Həmin plantasiyalardan 230 tondan çox yaşıl çay yarpağı yığılmışdır. Sitrus bağlarının həcmi isə 1967,8 hektardır və bağlarda yığım davam edir.

Kommunal xidmətlərə gəldikdə, cari ilin ötən dövründə rayon ərazisində 920 paqonmetr yeni qaz xətti çəkilmiş, istismar müddətini başa vuran sayğaclar, qaztənzimləyicilər yeniləşdirilmişdir. Hazırda rayonda 47,5 min nəfərdən çox abonent təbii qazdan istifadə edir. Həmçinin cari il xeyli sayda əhali abonentinə su və kanalizasiya şəbəkəsinə qoşulmaq üçün texniki şərt verilmişdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Vətən müharibəsi iştirakçısı iş adamlarına nümunə göstərib




Astaranın Çayoba kəndində Vətən müharibəsi iştirakçısı, sahibkar Ümüdvar Məmmədovun təşəbbüsü və şəxsi vəsaiti hesabına açıq və qapalı mini-futbol və voleybol meydançaları inşa olunub.

Ü.Məmmədov Vətən müharibəsi başlanan ilk gündən sahibkarlıq fəaliyyətini dayandıraraq ehtiyatda olan zabit kimi döyüşlərə qatılmış, Xocavənd, Füzuli, Qubadlı və Zəngilan rayonlarının azad edilməsində qəhrəmanlıqla döyüşmüş, Zəfər Gününü cəbhədə qeyd etmişdir. Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə Prezidentin sərəncamları ilə "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə", "Zəngilanın azad edilməsinə görə", "Xüsusi şücaətə görə" və "Vətən müraibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Müharibədən sonra sahibkarlıq fəaliyyətini davam etdirən Ümüdvar Məmmədov gənc nəslin fiziki cəhətdən sağlam böyüməsində idmanın əvəzsiz rol oynadığını nəzərə alaraq Çayoba kəndində idman meydançasının inşasına başlamış, Zəfər Gününün ikinci ilində tikinti işlərini tamamlamışdır. Geniş ərazidə müasir standartlara uyğun salınmış idman meydançalarına süni ot örtüyü döşənmiş, işıqlandırma sistemi və qoruyucu məhəccərlər quraşdırılmışdır.

Açılışda çıxış edən Astara RİH-nin başçısı belə bir təşəbbüsə görə Ümüdvar Məmmədova təşəkkür edərək bildirmişdir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi, əsgər və zabitlərimizin fədakarlığı ilə 30 il işğalda olan torpaqlarımız azad edilmişdir: "Xalqımıza qələbə sevincini yaşadan, müharibədə şücaəti ilə fərqlənən oğullardan biri də Ümüdvardır. O, qələbənin əldə edilməsində fiziki cəhətdən sağlam gənclərin rolunu görərək idman meydançasının salınmasını zəruri hesab etmiş və bu işi uğurla başa çatdırmışdır".

Sonda şəhidlərimizin bizlərə əmanət etdiyi övladlarına hədiyyələr təqdim edilmiş, şəhid ailələri, qazilər və Vətən müharibəsi iştirakçıları üçün ziyafət süfrəsi təşkil olunmuşdur.

*S.CAVADOV,*
*"Azərbaycan"*

**Dünyadakı böhranlı vəziyyətə baxmayaraq, ölkəmizdə qeyri-neft sektoru inkişafdan qalmır. Bu isə o deməkdir ki, Azərbaycan neftdən asılılığını azaltmaqla yanaşı, ixrac potensialını da artırır, başqa sözlə desək, "Made in Azerbaijan" brendi həm çeşid, həm də coğrafiya cəhətdən getdikcə genişlənir.**



# "Gilan & Knauf" şirkətinin məhsullarına xaricdə tələbat çoxdur

Bu işdə Prezident İlham Əliyevin qeyri-neft məhsullarının "Made in Azerbaijan" brendi altında xarici bazarlara ixracının artırılmasını nəzərdə tutan 2016-cı il 5 oktyabr tarixli fərmanı böyük rol oynayır. Fərman Azərbaycanda istehsal olunan məhsulların ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılmasında yeni imkanlar açır.

Həmin imkanlardan istifadə edib məhsullarını xarici bazarlara çıxaran müəssisələrdən biri də Goranboydakı "Gilan & Knauf" zavodudur. Azərbaycanın inşaat bazarında 15 ildən artıqdır fəaliyyət göstərən zavodun tikintisinə 2006-cı ildə başlanmışdır. Müəssisə 2008-ci ildə artıq ilk məhsullarını istehsal etmişdir. Şirkət ilk olaraq istehsal etdiyi məhsulların təbliği, ölkədə və ölkədən kənarda tanınması, reklam işləri üçün marketing təşkilatını yaratmışdır. Bundan sonra məhsulların reklam siyasəti, texniki dəstək, ayrı-ayrı dövlət qurumları, o cümlədən Azərbaycan İnşaat Memarlıq Elmi Tədqiqat İnstitutu ilə əməkdaşlıq əlaqələri qurulmuşdur. Ardınca istehsal olunan gipskarton lövhələri və profillər üzrə normativ sənədlər hazırlayan şirkət Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi, eləcə də inşaat standartları üzrə Almaniyanın bir neçə institutu ilə səmərəli əməkdaşlığa başlamışdır ki, bu da istehsal olunan inşaat məhsullarının dünya standartlarına cavab verməsinə imkan vermişdir. Yalnız bundan sonra kadr hazırlığı aparılmış, ali, orta və ibtidai-peşə təhsili müəssisələri ilə fəal əməkdaşlıq əlaqələri yaradılmışdır. O cümlədən Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə əməkdaşlıq sazişi imzalanmış və həmin universitetlə birlikdə Knauf Tədris-Məsləhət Mərkəzi yaradılmışdır. Sonralarsa Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Azərbaycanda iki Knauf Resurs Mərkəzi fəaliyyətə başlamışdır.

Həyata keçirilən bütün bu tədbirlər müəssisədə istehsal olunan məhsulların beynəlxalq standartlara cavab verməsi ilə nəticələnmişdir. Əsasən gipskarton lövhələri və profil istehsal edən müəssisə indi demək olar ki, tam gücü ilə işləyir. 192 nəfərin çalışdığı müəssisə müasir texnologiya ilə təchiz olunmuşdur. Alman mütəxəssislərinin quraşdırdığı avadanlıqlara elə almanların özləri xidmət göstərir. Bundan başqa, işçilər təcrübələrini artırmaq üçün Türkiyə, Ukrayna, Rusiya və Azərbaycanda müntəzəm təlimlər keçirlər. Qablaşdırma məhsulları, o cümlədən palet, kalsit və digər məhsullar da Azərbaycanda istehsal olunur.

Hazırda müəssisənin məhsulları MDB və bir neçə digər xarici ölkəyə ixrac edilir. Onu da qeyd edək ki, istehsala başladığı gündən indiyədək "Gilan & Knauf" zavodunun məhsulları haqqında mənfi rəy söylənilməmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Lerikdə dünyanın ən kiçik xalçası toxunub

**Yeni toxunan xalçada cəmi 41 sıra, onun hər bir kvadrat santimetrində isə 311 ilmə var. Bununla lerikli xalçaçı həm dünya, həm də öz rekordunu təzələyib.**

Rayonun Monidigah kənd sakini, miniatür xalça ustası İlqamət Hadiyev dünyada ən kiçik ölçülərə malik xalça toxuyub. Xalçanın üzərində qələbəmizin simvolu olan "dəmir yumruq" şəkli əks olunub. O, əl işini Vətən müharibəsində müzəffər ordumuzun əldə etdiyi şanlı zəfərə həsr edib: "Dəmir yumruq" xalçasını beş gün ərzində toxuyub bitirmişəm. Bu xalça nəinki mənim toxuduğum miniatür xalçalar arasında, hətta dünyada ən kiçik ölçülü xalçadır. Eni 1,8 santimetr, uzunluğu 2,2 santimetr, qalınlığı isə 1 millimetrdir. Xalçanın hər kvadrat santimetrinə 311 ilmə düşür. Ötən il bundan bir az böyük, Vətən müharibəsində şəhid olan igidlərin əziz xatirəsinə "Xarıbülbül" xalçası həsr etmişdim. Onun eni 1,9 santimetr, uzunluğu isə 2,1 santimetrdir. Həmin xalçada cəmi 33 sıra, hər kvadrat santimetrində 275 ilmə var. "Xarıbülbül" xalçasının qalınlığı da 1 millimetrdir. Beləliklə, həm dünya rekordunu, həm də öz rekordumu təzələmiş oldum".

# Gənc sahibkarlar Tovuza toplaşdılar

**Gənclər və İdman Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Tovuzda Gənc sahibkarların III forumu keçirilmişdir.**

Foruma ölkənin müxtəlif rayonlarından sahibkarlıqla məşğul olan 100-dən çox gənc qatılmışdır.

Məqsədi gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi, mövcud dövlət dəstəyi mexanizmləri barədə onların məlumatlandırılması, yeni imkanlar və çağırışlar barədə fikir və təkliflərinin öyrənilməsi olan forumda dövlət qurumlarının, gənclər sahəsində fəaliyyət göstərən ictimai təşkilatların nümayəndələri və sahibkarlıq fəaliyyəti ilə məşğul olan, həmçinin bu sahəyə maraq göstərən gənclər iştirak etmişlər.

Çıxışlarda bildirilmişdir ki, Gənc sahibkarların forumları gənclərin məşğulluq prosesinə aktiv cəlb olunması, infrastruktur resurslarından səmərəli istifadə, gənclər üçün maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dəstək olan platformaya çevrilməkdədir.

"Gənc sahibkarlara dövlət dəstəyi: imkanlar və çağırışlar" panel müzakirələrin əsas başlığıdır. Müzakirələrdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, Sahibkarlığın İnkişafı Fondu, Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxsi və Dövlət Vergi Xidmətinin məsul əməkdaşları öz qurumlarının gənc sahibkarlarla bağlı həyata keçirdiyi işlər və sahibkarlara dövlət dəstəyi mexanizmləri barədə iştirakçılarla birgə müzakirələr aparmışlar.




Daha sonra TEDx formatında "Maliyyə sektorunun gələcəyini texnologiya necə dəyişəcək", "Sadə idarəetmə" mövzusunda təqdimatlar keçirilmişdir.




# ƏRƏB BAHARI

## Argentina şokdadır



Mundialda çempionluğa əsas namizədlərdən biri kimi göstərilən Argentina yığması C qrupunun ilk turunda Səudiyyə Ərəbistanı ilə qarşılaşdı. Matç ərəblərin 2:1 hesablı qələbəsi ilə yekunlaşdı. Beləliklə, çempionatda ilk sensasiya qeydə alındı.

Futbolda taktika, oyun planı və s. çox vacib məsələlərdəndir. Ancaq əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq inadkarlığı komandaları qarşılaşmaya daha fərqli motivasiya edir. Dünən qalib gələn ərəblərdə məhz bunun şahidi olduq. Meydançanın bütün fazalarında daha yaxşı təsir bağışlayan Səudiyyə Ərəbistanı hesabda irəli çıxdıqdan sonra topu rəqibinə verərək komanda şəklində müdafiə olundu. Boş zonaları çox yaxşı bağladılar. Mərkəz və cinah müdafiəçiləri bir-birilərini çox yaxşı idarə etdilər. Xüsusilə Argentinanın hücumları zamanı müdafiənin arxasına atdığı ötürmələrdə qapıçı Məhəmməd Al-Ovaisin möhtəşəm qurtarışları matçın diqqətçəkən məqamlarından biri idi.

Məğlub olmasına baxmayaraq, Argentina öz qrupunda yenə favoritdir. Ancaq bundan sonrası o qədər də asan olmayacaq. Bu qarşılaşmada da gördük ki, komanda bütün zonalarda istənilən səviyyədə deyil. Çünki çempionluq üçün hücumla yanaşı, müdafiə və yarımmüdafiə də əhəmiyyətlidir. Cənubi amerikalıların xüsusən müdafiə olunmaqda çətinlik çəkdiklərinin şahidi olduq.

Qeyd edək ki, bu, Lionel Messinin son mundialı olacaq. Karyerası ərzində bütün mümkün titulları qazanmış super-ulduzun kolleksiyasında yeganə çatışmazlıq dünya kubokudur. O, açıqlamasında 40 yaşına qədər futbol oynamaq fikrində olmadığını deyib. Deməli, Messi üçün son şans Qətər mundialıdır. Amma bu nəticədən sonra onun arzusunun gerçəkləşməsi sual altındadır…

FIFA WORLD CUP Qatar2022

| A qrupu | B qrupu | C qrupu | D qrupu |
|---|---|---|---|
| Qətər | İngiltərə | Argentina | Fransa |
| Ekvador | İran | Səudiyyə Ərəbistanı | Avstraliya |
| Seneqal | ABŞ | Meksika | Danimarka |
| Niderland | Uels | Polşa | Tunis |

| E qrupu | F qrupu | G qrupu | H qrupu |
|---|---|---|---|
| İspaniya | Belçika | Braziliya | Portuqaliya |
| Kosta Rika | Kanada | Serbiya | Qana |
| Almaniya | Mərakeş | İsveçrə | Uruqvay |
| Yaponiya | Xorvatiya | Kamerun | Cənubi Koreya |

### 23 noyabr təqvimi

| | | | | |
|---|---|---|---|---|
| F qrupu: | 14:00 | Mərakeş | - | Xorvatiya |
| E qrupu: | 17:00 | Almaniya | - | Yaponiya |
| E qrupu: | 20:00 | İspaniya | - | Kostarika |
| F qrupu: | 23:00 | Belçika | - | Kanada |

## Ötən günün nəticələri

**C qrupu**
Argentina- Səudiyyə Ərəbistanı
1 - 2

Meksika-Polşa
0 - 0

**D qrupu**
Danimarka-Tunis
0 - 0

## İran millisində zədə şoku



**"DÇ-2022"nin ilk turunda İngiltərə ilə matçda sıradan çıxan İran millisinin üzvü Əlirza Beyrənvandın durumuna aydınlıq gəlib. Qol.az xəbər verir ki, 30 yaşlı qapıçı kəllə-beyin travması alıb. O, bu səbəbdən yığmanın mundialdakı digər matçlarını buraxacaq.**

Qeyd edək ki, Əlirza Beyrənvand İngiltərəyə qarşı görüşdə (6:2) komanda yoldaşı ilə toqquşaraq zədələnib. Burun nahiyəsindən xəsarət alan qolkiper oyunu davam etdirə bilməyib və 18-ci dəqiqədə meydanı xərəkdə tərk edib.

Xatırladaq ki, İran B qrupunda İngiltərə ilə yanaşı, Uels və ABŞ-yə qarşı da mübarizə aparır.

## "Komanda uduzanda günahkar baş məşqçi olur"



Seneqal millisinin baş məşqçisi Aliu Sisse "DÇ-2022"nin ilk turunda Niderlanda məğlub olduqları görüş (0:2) barədə danışıb. Mütəxəssis ən azı heç-heçəyə layiq olduqlarını deyib: "Yüksək səviyyəli matç oldu. Hesab oyunun bütün mahiyyətini əks etdirmir. Bəli, qol vura bilmədik, amma yaxşı şanslarımız oldu. Qarşıdakı iki görüşdə şanslarımızı reallaşdırmağa çalışacağıq. Biz əsəbiləşdik. Futbolçular meydanda çox enerji itirdilər, ən azı heç-heçəyə layiq idik. Bəlkə də mən günahkaram. Komanda uduzanda günahkar baş məşqçi olur. Futbolda səmərəlilik vacibdir, qol vurmasan, qazanmazsan. Biz bunun üzərində işləyəcəyik. Niderland üzərində qələbə bizi düzgün yola sala bilərdi. Amma bu baş vermədi. Məğlubiyyət bizi motivasiya edir. Oyunumuz o qədər də pis deyildi, indi daha da yaxşılaşdırmaq lazımdır".

Qeyd edək ki, mundialın 2-ci turunda Seneqal ev sahibi Qətərlə qarşılaşacaq. Qarşılaşma noyabrın 25-də baş tutmalıdır.

## Sautqeyt nədən narazıdır?



**İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt "DÇ-2022"nin qrup mərhələsinin ilk turunda İranı məğlub etdikdən (6:2) sonra fikirlərini bildirib.**

Komandasından razı olduğunu deyən mütəxəssis buraxdıqları iki qola görə məyusluğunu gizlətməyib: "Düzünü desəm, bundan bezmişəm. Əlbəttə, qələbə qazandığımıza, yaxşı oynadığımıza görə sevinməliyik. Hazır görünürdük və indiki kimi komanda olmaq istəyirdik. Oyunçular fasilələrin çoxluğuna baxmayaraq, yaxşı çıxış etdilər. Bizim pressinqimiz və hərəkətimiz çox yaxşı idi. Sevinməliyəm, amma matçın bu mərhələsində iki qol buraxmamalıyıq. ABŞ-lə qarşılaşmada biz zirvədə olmalıyıq. Turnirə yaxşı başladıq, ancaq inkişaf etməliyik. Oyuna ümumilikdə 24 dəqiqə vaxt əlavə edildi. Belə vəziyyətdə tam konsentrasiyanı saxlamaq çətindir. Yavaş tempdə oynadığımız zaman o qədər də təsirli olmuruq".

## 64 illik həsrətə son



Uels millisi 64 ildən sonra dünya çempionatında qol vurub. Buna yığmanın üzvü Qaret Beyl mundialın ilk turunda ABŞ-yə qarşı matçda (1:1) imza atıb.

33 yaşlı hücumçu 82-ci dəqiqədə penaltini dəqiq yerinə yetirib. Bu isə Uels yığmasının 64 il sonra mundiallarda ilk qolu olub. Komanda sonuncu dəfə 1958-ci ildə İsveçdə keçirilən dünya çempionatında qol vurub.

Qeyd edək ki, Uels millisi B qrupunda ABŞ-lə yanaşı, İngiltərə və İrana qarşı da mübarizə aparır. Uels növbəti oyununu noyabrın 25-i İrana qarşı keçirəcək.

## Tarixin ən bol qollu qarşılaşmaları

Dünya çempionatları tarixində ən çox qol vurulan oyunların siyahısı müəyyənləşib.

IFFHS mundiallardakı ən məhsuldar matçları açıqlayıb. "DÇ-2022"nin qrup mərhələsində keçirilən İngiltərə-İran görüşü turnir tarixində 6:2 hesabı ilə nəticələnən ilk qarşılaşma olub.

Qeyd edək ki, dünya çempionatı matçında vurulan ən çox qol 12-dir. Bu, 1954-cü ildə Avstriya-İsveçrə (7:5) qarşılaşmasına təsadüf edib.

| Tarix | Mərhələ | Oyun | Qol sayı |
|---|---|---|---|
| 26/06/1954 | 1/4 final | Avstriya - İsveçrə - 7:5 | 12 |
| 05/06/1938 | 1/8 final | Braziliya - Polşa - 6:5 | 11 |
| 20/06/1954 | Qrup | Macarıstan - Almaniya - 8:3 | 11 |
| 14/06/1982 | Qrup | Macarıstan - Salvador - 10:1 | 11 |
| 08/06/1958 | Qrup | Fransa - Paraqvay - 7:3 | 10 |
| 19/07/1930 | Qrup | Argentina - Meksika - 6:3 | 9 |
| 17/06/1954 | Qrup | Macarıstan - Cənubi Koreya - 9:0 | 9 |
| 23/06/1954 | Qrup | Almaniya - Türkiyə - 7:2 | 9 |
| 28/06/1958 | 3-cülük oyunu | Fransa - Almaniya - 6:3 | 9 |
| 27/05/1934 | 1/8 final | İtaliya - ABŞ - 7:1 | 8 |
| 12/06/1938 | 1/4 final | İsveç - Kuba - 8:0 | 8 |
| 02/07/1950 | Qrup | Uruqvay - Boliviya - 8:0 | 8 |
| 09/07/1950 | Final qrupu | Braziliya - İsveç - 7:1 | 8 |
| 17/06/1954 | Qrup | İngiltərə - Belçika - 4:4 | 8 |
| 03/06/1962 | Qrup | SSRİ - Kolumbiya - 4:4 | 8 |
| 23/07/1966 | 1/4 final | Portuqaliya - Şimali Koreya - 5:3 | 8 |
| 01/06/2002 | Qrup | Almaniya - Səudiyyə Ərəbistanı - 8:0 | 8 |
| 08/07/2014 | Yarımfinal | Braziliya - Almaniya - 1:7 | 8 |
| 21/11/2022 | Qrup | İngiltərə - İran - 6:2 | 8 |

## Lui Van Qal qələbəyə rəğmən oyundan razı deyil



**"Depayı meydana buraxdıqdan sonra qol vuracağımızı gözləyirdim. Və belə də oldu. Memfis oyunun gedişatını dəyişdirə bilən futbolçudur".**

Bu sözləri Niderland millisinin baş məşqçisi Lui Van Qal "DÇ-2022"nin ilk turunda Seneqalla görüşdən sonra mətbuat konfransında deyib. O, 2:0 hesablı qələbəni belə şərh edib: "İlk qolumuzu vuran Kodi Qakpo da qələbədə mühüm rol oynadı. Amma çox yaxşı oynamadıq. Son məşqdə bunu qabaqcadan görmüşdüm. Çox yaxşı formada deyilik, doğrudur. Niderland millisi daha yaxşı oynaya bilər. Hiss etdim ki, komandada gərginlik var. Noppertə gəlincə, o, hələ də bizim əsas qapıçımızdır".

## Ronaldu ölkəsini favorit hesab etmir



**Portuqaliya millisinin hücumçusu Kriştiano Ronaldu "DÇ-2022"nin favoritlərini açıqlayıb. İspaniyanın "Marka" nəşri xəbər verir ki, o, Portuqaliyanı favoritlər sırasında görməyib:**

"Portuqaliyanın böyük potensialı var, amma biz Qana ilə oyun haqda düşünməliyik. Ən yaxşı komanda olsaq, finala kimi yüksələcəyik. Çempion komanda turnirin ən yaxşı komandası olacaq. Bizdə gənc və yaxşı oyunçular var. Bəs turnirin favoritləri kimlərdir? Braziliya, Argentina, Fransa, İspaniya, Almaniya ən çox şansı olan komandalardır. Onlar azarkeşləri də daxil olmaqla yaxşı görünürlər. Bununla belə, 2016-cı ildə Portuqaliya artıq göstərdi ki, biz təəccübləndirə və öz oyunumuzu tətbiq etməyə qadirik".

Xatırladaq ki, Portuqaliya "DÇ-2022"də Qana, Cənubi Koreya və Uruqvay milliləri ilə eyni qrupda mübarizə aparacaq.

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



## 22 noyabr Ənvər Paşanın doğum günü idi

*Bağçanın ortasında, mum yanar süfrəsində,*
*Bu cahandan gedişim məmləkət sevdasından...*
*Bir türküdən*

Cəsurluq, igidlik Ənvər bəyin alnına yazılmışdı. Bir il sürən Trablus-Qərb müharibəsinin axırlarında Balkan savaşının başlaması ilə əlaqədar Benqazidə olan türk zabitləri kimi o da İstanbula çağrılmış və həmən bu çağırışın ardınca yola çıxmışdı. Sevimli övladını cəbhədən-cəbhəyə yola salan anası - əslən Balkan türklərindən olan Ayşə Dilara xanım bir çoxları kimi davaya göndərdiyi oğluna sarılıb ağlayan və bununla balasını pərişan edən anaların əksinə olaraq ciyərparasını bu qorxulu səfərə türk qadınlarına xas bir qürurla və mətanətlə uğurlamışdı: "Gedirsən... bu sənin öz seçdiyin yoldur, bu yolda şəhidlik də var, amma vətəni qorumaq da sənin tək igid oğullara düşər".

Sonra isə ondan özü ilə götürməyə şəkil istəyən oğluna arxasına "Oğlum, Ənvər, başladığın işi bitirmədən dönsən, südümü sənə halal etmərəm…" yazdığı fotosunu vermişdi. Ənvər Paşa da anasının tapşırdığı kimi etmişdi; dönməmişdi, başladığı iş uğrunda atdığı hər addımda ana öyüdü onu izləmişdi, ürəkdirək vermişdi, boynuna böyük məsuliyyət qoymuşdu. Oğuz igidləri sayaq - "Vətən haqqı - ana haqqı" deyib yola çıxmışdı...

Yol isə davam edirdi. Əbəs yerə deməyiblər, ömür bitər, yol bitməz... "Məmləkət canımız, ərmağan qanımız" - Ənvər Paşanın amalı, döyüş şüarı idi. Getdiyi hər yerdə, elə Türküstanda da ona "Cəbhədə mitralyoz ayna kimi parlayır, Türküstan türkləri bayraq açmış, səni gözləyir!" coşqusuyla qucaq açmışdılar…

Qısa vaxt ərzində bu torpaqlarda da o, Türküstan, Başqırdıstan, Qazaxıstan nümayəndələri ilə görüşüb məsləhətləşmişdi, gələcəyin məşhur türkoloqu, gənc əsgər başqırd Əhməd Zəki Vəlidi Toğanla tanış olmuşdu. Tezliklə ətrafına beş minə qədər fədailər ordusu toplanmışdı. Ancaq ənənəvi xəyanətlər, "yeri, vur, səninləyik" deyib arxadan qaçmalar bu yerlərdə də addım-addım izləmişdi onu… Bu, onun taleyi idi. Ağrılı, təəssüf doğuran, eyni zamanda qaçılmaz qəzavü-qədər… Hər dəfəsində də özünün yer üzündəki mənəvi istinadgahı kimi Naciyəsinə səslənirdi: "Mənə dua et, həm də çox dua et, sənin duana, alqışına çox ehtiyacım var. Məni unutma…"

…Döyüş meydanında ilk xəyanət acısını ona Sarıqamış faciəsindən əvvəl 3-cü ordu komandanı Hafiz Haqqı Paşa yaşatmışdı. Bu xəyanətin təməlində çox gənc olmasına baxmayaraq hərb sahəsində ulduz kimi parlayan Ənvər Paşaya qarşı olan qısqanclıq, bu gənc, amma bacarıqlı zabitin, sultan kürəkəninin uğurlarına paxıllıq hissi dayanırdı. Rəqibləri bu gənc qəhrəmanı daha böyük zəfərə və şöhrətə götürəcək qələbələri həzm edə bilmirdilər, qısqanırdılar. Hər vəchlə bu uğurların qarşısını almağa qərarlı idilər. Doğrudur, döyüşün ilk mərhələsində 3-cü ordu komandanı albay (polkovnik-red.) Hafiz Haqqı Paşa rusları sıxışdıraraq geri çəkilməyə, açıq-açığına qaçmağa məcbur etmişdi. Ancaq o, uğursuzluğa düçar olub, canını götürüb qaçan rus əsgərlərini təqib etmək əvəzinə başçılıq etdiyi hissəni döyüş meydanından on beş kilometr geri çəkmişdi. Ənvər Paşa indinin özündə də Hafiz Haqqı Paşanın bu müəmmalı hərəkətinin hansı səbəb üzündən baş verdiyini heç cür anlaya bilmir, daha doğrusu, bunun bir xəyanət olduğunu düşünməyə özünü inandıra bilmirdi. Əzmi qırılmış, pərən-pərən düşmüş düşmən ordusunu təqib edib nəfəsini kəsmək əvəzinə əmin-arxayın şəkildə bir qədər geri çəkilib, qarşı tərəfin yenidən toparlanmasına imkan vermək, bununla da Sarıqamış faciəsinə zəmin yaratmaq kimi məsuliyyətsizliyə Hafiz Haqqı Paşa kimi biri təkbaşına qol qoya bilməzdi. Özünü köməyə yetirməli olan ehtiyat qüvvələrin heç bir səbəb olmadan ləngiməsi nə ilə bağlıydı? Mövqe və şöhrət xəstəliyindən qaynaqlanan dəhşətli qısqanclıq bəlası nə idi? Hansısa gözəgörünməz əl gizlincə işləməkdə, döyüşən əsgərlər arasında ruh düşkünlüyünə səbəb olacaq toxumlar səpməkdəydi…

Sarıqamış faciəsinin şahidi olan rus ordu generalı Lineviç Lev Petroviçin Moskvaya dəhşət içində yolladığı teleqramdakı cümlələri tarixin qanlı yaddaşında yenə türk cəsurluğu, fədakarlığı, son nəfəsinə qədər vuruşmağın nə olduğu barədəki rəyləri möhürləyəcəkdi: "Türkləri təslim ala bilmədim, çünki əsir alınası heç kimsə yoxdur. Onlar bizdən əvvəl öz Allahlarına təslim olmuşdular".

Bu dəhşəti Hafiz Haqqı Paşa isə Ənvər Paşaya yolladığı teleqramda belə ifadə etmişdi: "Bitdi, Paşam, ordumuzun küllisi məhv oldu!.."

Öz ömrü də başladıqları böyük işlər kimi yarımçıq qalan Hafiz Haqqı Paşanın ölümündən sonra gündəliyindəki peşmanlıq etirafları, məyusluğu, bir növ tövbəsi gün üzünə çıxacaqdı. 1915-ci il, yanvarın 6-da yazdığı sətirlər onun ruh halını da, hiss etdiyi üzüntünü, məyusluğu da özündə ehtiva edirdi. Ancaq apxadan atılan daş topuğa dəyər…

"6 yanvar 1915: Xəstələrin yeməkləri və halı heç cür düzəlmir. Bu gün yenə bir çox insanı döydüm və zənn edirəm ki, "artıq düzəlir" deyərkən yenə bir fəlakət qarşısında qaldım: Yaralı və xəstələr üçün ayrılmış barakların yanında bir xəstə titrək ayaqları ilə əsə-əsə əlindəki su qabını doldurmağa gedirdi. "Hara gedirsən" deyə soruşdum. "Su gətirməyə", - dedi. Sonra da tələsik əlavə etdi: "Nə edim, əfəndim, pulla satırlar suyu. Mənim də pulum yoxdu!"

- Kim satır?

- Qapıçı.

- Haydı, göstər görüm.

Yeridi. Zavallı meyit kimi. Əlli metrlik məsafəni beş dəqiqəyə güclə qət etdi. Xəstəxana deyilən tövləyə girdik. Yenə iki ölü vardı. İçəridə bir təlaş! Tək su deyil, çörək də satılırdı. İri bədənli bir çavuş çörəyi pulla satırdı. Ölümcül hala düşüncəyə qədər onu döydüm. Daşla başını əzdim. Qaçmağa başladı. Yanımdakılar hərifi yaxaladılar. Xəstələrə baxan nəzarətçini də bərbad hala saldım. Off, hələ mühacirlərin səfaləti… Ağlayan, əli-ayağı donmuş uşaqlar, ixtiyar qocalar, qadınlar… Ya Rəbbim! Mən bu səfalətə səbəb oldum! Mən bu zəfəri tam qazanmaq üçün, bu hərbdə qalib gəlmək üçün çalışdım. Olsun! Bu fəlakətləri yox etməyə çalışacağam və əlbəttə, buna müvəffəq olacağam!" deyə and içdim".

Ancaq dediyi kimi olmadı. Bu səfaləti aradan qaldırmağa müvəffəq ola bilmədi Hafiz Haqqı Paşa…

Sarıqamış savaşından əvvəl Ənvər Paşa öz müəllimi, bölgə komandanı Həsən İzzət Paşa ilə görüşüb əsgərlərin durumuyla maraqlanmışdı. Dünyagörmüş bölgə komandanı havaların namünasib olması səbəbindən ehtiyatlı olmağı məsləhət bilmişdi. "Gözləyək" demişdi. Bu, Ənvər Paşanın bir bölgə komandanından gözləmədiyi cavab idi. O bunu eşitmək belə istəmirdi… Qeyzlənmişdi. İndiyəcən dərin saygı bəslədiyi keçmiş müəllimini ordudan uzaqlaşdırmağa dərhal qərar vermiş, ona "əgər müəllimim olmasaydın, səninlə başqa cür davranardım" - demişdi…

Haqlıydımı? Nə etməli, dönməz və qızğın bir savaşçının həlledici bir məqamda, heç gözləmədiyi halda təcrübəli bir komandanın dilindən əsgərin döyüş əzminə xələl gətirə biləcək bir cavabı eşitməsinin qarşılığı yəqin elə belə də olmalıydı…

Haqsız idimi? Bəlkə müəllimi "havaların namünasib olması" qənaətinin pərdəsi altında əslində ona arxa cəbhənin maraq çevrəsində yaşanan hadisələrin gerçəyini anlatmaq istəmişdi? Bütün hallarda öz qərarında qəti, dönməz, inadkar olan Ənvər Paşa bəlkə o məşhur faciədən öncə dünyagörmüş müəlliminin anlatmaq istədiklərinin mahiyyətinə elə də diqqət yetirməmişdi?

# ƏNVƏR PAŞA

*(romandan bir parça)*

…Halbuki öncələr hər şey o qədər yaxşı və ümid dolu coşqunluqla başlamışdı ki… Lap az qalmışdı. Günləri sayırdı. Yaxın günlərin birində onun hərbi nazir təyin olunması məsələsi həll olunacaqdı. Təkcə Tələt bəyin razılıq verməsi bəs edərdi. Amma Tələt bəyin bu mövzuda hərəkətsizliyi get-gedə daha çox hiss olunmaqdaydı. Bu xüsusda Yaqub Cəmillə bərabər yanına gedən dostlarına belə xoş üz göstərməmişdi. Amma bu, onun dəfolunmaz istəyi idi. Nəyin bahasına olursa-olsun, bu istəyə çatmalıydı; illər boyu qəlbində yeni ordu quruculuğu islahatı keçirməyin planlarını qurmuşdu. Bu sahədə baş alıb gedən hərc-mərcliyin şahidi idi. Bu gedişat dəyişməliydi, özü də Hürriyyət Qəhrəmanı Ənvər bəyin başçılığı ilə. Durmaq, vaxt itirmək zamanı deyildi. Qərarında qəti idi. Sədrəzəm Sait Paşanın kabinetinin qapısını da bu qərarlı qətiyyəti ilə açmış, istəyini aydın şəkildə, birbaşa dilə gətirmişdi:

- İstəyim hərbi nazir olmaqdır… Sizdən xahiş edirəm, imkan daxilində elə bu gün, yubanmadan istəyimi nəzərə alıb qərar verin.

Sədrəzəm Sait Halim Paşa ilk baxışda onun bu qətiyyətinə çox heyrətlənmişdi. Ənvər Paşa isə təkidlə təkrarlamışdı:

- Bu qərar mənim üçün çox mühümdür. Vətəni düşdüyü durumdan qurtaracaq, yurdun keşikçisi olacaq, ordunu nizama gətirəcək, tutduğunu qoparıb ata biləcək şəxsiyyətlər orduda olmalıdır. Həyata keçirdiyi işlərdə qətiyyətsizlik göstərən komandirlərin vətəni, ordunu nə hala saldıqlarını keçən Balkan savaşında hamımız görmüşük, sədrəzəm həzrətləri!

Ənvər Paşa elə ilk görüşdən sədrəzəm Sait Halim Paşanın ona bəslədiyi xüsusi rəğbətin şahidi olmuşdu. Sədrəzəm Ənvər Paşaya çox güvənirdi, hər zaman ona etibar edə biləcəyinə əmin idi. Belə olmasaydı, həmin görüşdən qısa müddət sonra - 1914-cü ildə, Ənvər Paşanın cəmi otuz üç yaşı olanda böyük etimad göstərib onu Osmanlı İmperatorluğunun hərb naziri təyin edərdimi?

Gənc Ənvər Paşa da bu etimadı doğrultmaq üçün vəzifəyə təyin olunan gündən imperatorluğun möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməmişdi. Onda bu təyinatdan narazı qalanlar da az deyildi. Bəziləri üzünə gülüb arxasınca fitnələr törətməyə çalışır, bəziləri isə açıq-aşkar öz xislətlərini bəlli edir, düşmənçilik mövqeyində olduqlarını gizlətmirdilər.

Ənvər Paşa bütün bunlara fikir vermədən imperatorluğun hərb sahəsində yeniliklər eləməyə səy göstərirdi. Osmanlı ordusunda Fransa modelinin yerinə Almaniya modelinin tətbiqi üçün nə qədər zəhmətlər çəkdiyini sonralar da xatırlayırdı. Buna qarşı çıxanlar da vardı, bu addımın səhv olduğunu israrla təkrar edənlər də. Ancaq Ənvər Paşa inandığı yoldan geri çəkilən deyildi. Doğru bildiyi, məmləkətin inkişafı üçün faydalı hesab etdiyi işləri həyata keçirirdi.

Hərbiyyə naziri təyin olunduğu ilk vaxtlarda sədrəzəm Sait Paşa ilə mükaliməsini, onun suallarına əminliklə verdiyi cavabları sözbəsöz xatırlayırdı:

- Hörmətli sədrəzəm cənabları, orduda gəncləşmə çox vacibdir. Düşünürəm ki, Almaniyada təhsil alan cavan hərbçiləri orduda önəmli vəzifələrə gətirmək lazımdır. Bu, həm orduda Almaniya modelinin tətbiqi üçün, həm də ordunun cavanlaşmasını təmin etmək baxımından xüsusilə faydalıdır. İzninizlə, bir çox alman zabitini Osmanlı ordusunda müşavir olmaq üçün əməkdaşlığa dəvət etmək niyyətindəyik. Ordumuzdakı bəzi zabitlərimizin tərcümeyi-hallarını da dəqiqliklə incələmişəm - həm sənədlərinə baxmışam, həm də barələrində bir çox etibarlı adamlardan lazımlı məlumatlar almışam. Fikrimcə, mindən artıq yaşlı zabit, - onların içərisində əqidəsinə və haraya xidmət etdiklərinə dair əsaslı şübhələrim olanlar da var,- ordudan kənarlaşdırılmalıdır. Hərbçilərin uniformaları dəyişdirilməlidir, orduda savadlılıq dərəcəsi artırılmalıdır. Orduda oxuyub-yazma bilməyən qalmamalıdır. Bunun üçün orduda xüsusi xətticədid sistemli əlifba tətbiq olunmasını istəyirəm. Qısaca desək, ənvəriyyə yazısı. Bu yazını ona görə tətbiq etmək vacibdir ki, Osmanlı yazısı sadələşsin, hər bir zabit və əsgər oxumağı, yazmağı bilsin. Ənvəriyyə yazısında oxunuş rahat olacaq, hərflər bir-birinə birləşməyəcək, ayrılıqda yazılaraq daha asan oxunacaq, saitlər də göstəriləcək. Bu yazı sistemi otuz beş samit və on saitdən ibarət olacaq. Bununla bağlı əlifba kitabı hazırlamağı da düşünürəm...

Sədrəzəm Sait Halim Paşa şövqlə danışan Ənvər Paşanı təmkinlə, sözünü kəsmədən dinləmiş, bu dəliqanlı və həvəsli gəncin həmin vaxt bəzilərinə xülya kimi gələn bu arzuları reallaşdıracağına, Osmanlı ordusunun inkişafına töhfələr verəcəyinə inanmışdı.

Ənvər Paşa da öz növbəsində bütün bunları eləmək iqtidarında olduğunu əməlləri ilə sübut eləmişdi. Dedikləri sözdə qalmamışdı, çoxunu həyata keçirmişdi. Doğrudur, bəzi məqamlar tənqidlə də qarşılanmış, daha yaxşı variantlar alternativ kimi göstərilmişdi. Ciddi fikir ayrılıqları olsa da, məmləkətin xeyri üçün, Vətən naminə canını da verməyə hazır olan Mustafa Kamal Paşa ənvəriyyə yazısı ilə bağlı 1918-ci ildə öz fikirlərini belə bildirmişdi: "Bu iş yaxşı niyyətlə həyata keçirilməsinə rəğmən, yarımyamalaq və zamansız edilib. Savaş zamanı hərflərlə məşğul olmaq vaxtıdır? Nə üçün? Xəbərləşməni asanlaşdırmaq üçün? Bu sistem xəbərləşməni keçmiş sistemə görə daha yavaş və daha çətin edib. Sürətin önəm daşıdığı bir vaxtda işləri ləngidən və insanları çaşdıran bu sıçrayışın üstünlüyü nədir? Fəqət, madam bir işə başladınız, bunu doğru-dürüst edəcək cəsarəti göstərin..."

Ənvər Paşanın hərbiyyə naziri kimi cəsarəti isə bəzən lazım olduğundan da artıq olurdu. Mustafa Kamal Paşanın da dediyi kimi, bunlar yaxşı niyyətlə həyata keçirilsə də, bəzən əks effekt verirdi...

Osmanlı İmperatorluğunun hərb naziri olduğu vaxt onun bütün həyatının ən enişli-çıxışlı dönəmi olacaqdı. Xüsusilə də 1915-ci il. Sarıqamış hərəkatında əsas hədəfi əlbəttə ki, bu kiçik qəsəbəni ruslardan almaq deyildi. Əsl hədəfi o idi ki, rusları Tiflisə qədər qovsun, oradan Təbriz, Bakı, Tehrana qədər uzanaraq Əfqanıstanı da təsir dairəsinə almaqla müsəlmanları hərəkətə gətirib bütövlükdə regiondakı rus işğalına son qoysun. Teleqramlarında xüsusilə vurğulayırdı: "Girəcəyimiz ölkələrdə işğalçı olmayacağıq. Oraları rus zülmündən qurtarıb, müstəqilliklərini qazanmasına nail olub geri dönəcəyik..."

Sarıqamışda, Allahu Əkbər dağlarında isə bu ali və nəcib xəyalı "soyuqdan donacaqdı..." Tarixdə fərqli rəqəmlər səslənsə də, on minlərlə əsgərin Sarıqamışın şaxtasında donub şəhid olması Ənvər Paşanın müdafiə naziri olduğu dönəmin ən tünd ləkəsi idi. Üstündən neçə zəfərlər qazanılsa da, bu tünd ləkə ağarmayacaqdı, məşum bir dönəmin sübutu kimi daim gözə çarpacaqdı...

Sarıqamış faciəsi həyatının sonrakı dönəmlərində də dözülməz ağrı ilə xatırladığı acı bir xatirə kimi həmişə yaddaşının fonunda qalacaqdı. Həmin vaxt - hərəkatın ilk dönəmlərində necə bir əndişə ilə faciənin qarşısını almaq üçün çırpındığını, özünü oda-közə vurduğunu yaxşı xatırlayırdı. Gah topların başına keçib özü atəş edirdi, gah əlinə silah alıb güllələri sağa-sola yağdırırdı, gah geri dönmək istəyən zabitləri cəzalandırırdı, gah da növbə zamanı yatan hərbçiləri gözünü də qırpmadan edam etdirirdi. Sarıqamış əngəlini keçib tezliklə Əfqanıstanın içərilərinə daxil olmaq təlaşı da bir yandan... Ölümü o qədər yaxınında hiss edirdi ki, bəlkə də bu səbəbdən elə həmin dönəmdə gecələr vəsiyyətini yazırdı. Yüz on minlik 3-cü Ordudan geriyə sadəcə iyirmi min nəfər qalanda məğlubiyyətini, bacara bilmədiyini qəbul etmək məcburiyyətində qaldı.

Sarıqamışdakı məğlubiyyətin bir səbəbini da xalqın ruh düşkünlüyündə görürdü. Yerlərdə ədalətsizliyin qarşısının alınması yollarını axtarırdı. Ərzurum gədiklərinə çatana qədər başlarına acı bir məğlubiyyətin damarlarda qanı belə dondura bilən lopa-lopa qarı yağırdı...

Əynindəki hərbi uniforma Ənvər Paşaya ilk dəfə olaraq dar gəlirdi. Ona elə gəlirdi ki, komandanların bu məğlubiyyətdən sonra ilk işi həmin libaslarla vidalaşmaq, istefalarını vermək olmalıdır. Nədənsə şərqi Anadolunun qar qarışıq çovğunlu günlərində uşaqlığının ılıq (amma məğlubiyyət hənirli) bir əhvalatını xatırlayırdı. Məhəllə başındakı ilk günlərdən "göz yağı yediyi" Nicat adlı bir uşaq tərəfindən döyülmüşdü. Üz-gözünü Osman məscidinin çeşməsində yuyandan sonra məhəllələrinə geri dönüşünü saxlamışdı. Sözləri də ətrafındakı tay-tuşunu heyrətləndirmişdi:

- Mən Nicatdan heyfimi almaq üçün geri dönürəm.

Uşaqlıqdakı həmin addımını yada salıb, ümidlənən kimi oldu. Məğlubiyyətin bənizinin rəngini qaçırıb varlığını ağ bayrağa çevirdiyi, içində yaratdığı təslimçilik hisslərindən silkinib çıxmağa hazırlaşdı.

Həmin addımını sonralar ilk cəsarət andı kimi yadına salırdı: Hər kəs məğlub olduğu yerə dönüb məğlubiyyətini qalibiyyətlə təmizləyə, yenidən qəhrəman ola bilər.

Bayaqdan ona elə gəlirdi ki, Sarıqamış meydanında hünərini, cəsarətini, onların rəmzi hərbi formasını, silahını qoyub geri qayıdır...

Üstəlik, dönəndən sonra Naciyə Sultanın da gözünə necə baxacağını düşünəndə gen dünya başına dar olurdu. Birdən-birə həmyaşıdı Nicatla dalaşdığı vaxt uşaqlıqda özünə verdiyi söz yadına düşdü: Məğlubiyyət yerinə geri dönə bilmək, qəhrəmanlığın birinci addımıdır. Rusların üzərinə əvvəl canımda təpər, sonra da ordumda güc toplayıb bir də dönəcəyəm! Şəhid verdiyimiz hər Anadolu əsgərinin qisasını birə-on alacağam!

Sonralar özünə verdiyi bu sözə, bu müqəddəs anda əməl etsə də, Sarıqamış məğlubiyyəti yüz il də unudulmayacaqdı. Ənvər Paşanın digər xidmətləri gözardı edilib bütün diqqətlərini bu itkiyə yönəldənlər də az olmayacaqdı...

Halbuki qarşıda yenə də onun imzası ilə böyük bir zəfər olacaqdı. Sarıqamış məğlubiyyətindən cəmi 61 gün sonra - 1915-ci il martın 18-də Ənvər Paşa Çanaqqalanı keçməyə çalışan ingilis donanmasına gözdağı verəcəkdi, 1916-cı ildə isə qəti qələbə qazanılacaqdı. Bu böyük zəfərlə işğalçı ingilis ordusuna "Çanaqqala keçilməz" həqiqətini başa salan Ənvər Paşa bu qələbə ilə kifayətlənməyəcəkdi, ard-arda zəfərlər sıralanacaqdı... Ancaq bu qələbələr də Osmanlı İmpertorluğunu süqutdan qurtara bilməyəcəkdi.

Osmanlı dövləti Birinci Dünya müharibəsində məğlub olduğunu qəbul etdikdən sonra "İttihad və Tərəqqi" 1918-ci ilin oktyabrında istefaya getdi. Ənvər Paşanın müdafiə naziri olduğu dönəm bununla da başa çatdı. Ənvər Paşa, Tələt Paşa və Camal Paşa İstanbulu tərk etmək məcburiyyətində qaldılar.

Ənvər Paşa əvvəlcə Krıma, oradan isə Berlinə gedir... Bu gedişdən sonra haqqında edam qərarı desən, - çıxarılır, həbs edilmə əmri desən, - o da verilir... Məhz bu qərarlara görə Anadoludakı Qurtuluş Savaşını idarə etmək xəyalı da yerləyeksan olur. Və ondan sonra Pamir dağlarına üz tutur. Orta Asiya müsəlmanlarını təşkilatlandırıb bolşevik işğalından qurtarma xəyalı da sonralar tar-mar olub öz qanı ilə bərabər Bəlcivan torpaqlarına çilənəcəkdi...

Tarixçilərin də qiymətləndirdiyi kimi, bütün faciəvi tərəflərinə rəğmən Sarıqamış hərəkatı bir dram deyildi, qəhrəmanlıq dastanı idi. Dilində "kəlmeyişəhadət", qəlbində Vətən sevgisi Allaha təslim olan qəhrəman türk əsgərinin igidlik himni! Sarıqamış döyüşündə indiyədək savaş tarixində misli - bərabəri görünməmiş əxlaq örnəyi - komandan əmrinə itaət yaşanmışdı…

İndi bütün bu suallara cavab verməyə, gerçəyi üzə çıxartmağa vaxt yox idi. Həqiqət olan o idi ki, hazırkı halda dayandığı Çeğan təpəsinin dar keçidində qarşıdan hiss edilən, əsgərlərinin seyrəlməsi səbəbindən yaranan döyüş şəraiti həqiqətən çox namünasib idi. Yenə də Sarıqamış döyüşünün gedişatında qərarlı şəkildə yazıb uniformasının döş cibinə qoyduğu vəsiyyətnaməsinin hər cümləsi yaddaşında dolaşmaqdaydı. Dili əsgərlərini qutlayır, onlara ürəkdirək verir, ağlı, düşüncəsi Sarıqamış döyüşünün ən qızğın çağında yazdığı vəsiyyətnamənin son cümlələrini təkrarlamaqdaydı:

"…Bu halda vəsiyyətim: mən vəzifəmi yerinə yetirdiyimi sanıram və o cür də ölürəm. Düşmənə qarşı sonacan mübarizə aparın. Hər halda, axırda müvəffəq olacağıq. Mən hərəkətimə peşman olmadan qəlbən rahat şəkildə ölürəm. Yaşasın dinim, vətənim, padşahım. Əgər geridə qalanlarıma yardım etmək istəsəniz: həyat yoldaşım Sultan Əfəndi həzrətlərinin ödənəyi kafi deyildir. Rahat yaşaması üçün heç olmasa başkomandanlıq maaşımın onun məvacibinə əlavəsini və anamla atamın rifahının yerində olması ilə ilahi rəhmətə qovuşmam üçün bir qədər qayğı göstərilməsi üçün rica edirəm. Yüksəlişinə çalışmaqdan başqa bir məqsəd güdmədiyim dinimə və millətimə dua edir, tanıyanlara salam deyirəm. Yaşasın Müsəlmanlıq, Osmanlılıq və osmanlıların padşahı Sultan Mehmed xan! Sərvət adına bir şeyim yoxdur. Olan-qalan nə varsa rəfiqim Sultan Əfəndi həzrətlərinə buraxıram: Ənvər".

Sarıqamış hərəkatının planı yaxşı hazırlanmışdı, ancaq tətbiqi uğurlu alınmamışdı. Sonralar rus və alman zabitləri, hərbi yazarlar Sarıqamış hərəkatını ən müxtəlif yöndən dəyərləndirib ümumi uğursuzluğuna rəğmən yenə də türk əsgərinin mübarizliyinə olan heyranlıqlarını gizlədə bilməmişdilər: "Sarıqamış hücum planı qəti nəticəni sürətlə əldə etmək üçün yaxşı plan idi. Ancaq bölgənin şərtləri nəzərə alınmamışdı, tədarük məsələləri yetərincə həllini tapmamışdı. Türk ordusunun komandirləri məlumatlı, cəsur və mübariz idilər, amma döyüş təcrübələri kifayət qədər deyildi. Xüsusilə türk əsgərinin səbri, cəsarəti, intizamı, əmrə tabeçiliyi, mühasirə əməliyyatına sona qədər dayanmaları möcüzə kimi idi. Bütün bunlar sübut edir ki, türk əsgəri məğlub olmayıb. Ənvər Paşanın yeganə istəyi bir an əvvəl Sarıqamışa çatmaq idi. Qərargah komandirləri isə hər vəchlə onun bu qərarına mane olmağa çalışırdılar".

Sarıqamış döyüşündən əvvəl havalar yaxşı idi, sonradan havaların birdən-birə kəskin dəyişməsi də uğursuzluğa aparacaqdı. Üstəlik də ordu korpusları arasında koordinasiyanın təşkil edilməməsi, girişilən əməliyyatın coğrafi və iqlim şərtlərinin tam olaraq nəzərə alınmaması sonralar Ənvər Paşanın tənqid hədəfi olması üçün əsas götürüləcəkdi... Amma buna qədər də digər uğursuzluqlar və mənhus səbəblər də mövcud idi: Şərif bəy və İhsan Paşa IX Korpus Sarıqamışa çatdığı axşam Ənvər Paşanın hücum əmrini dayandırmayıb davam etsəydilər... Hafiz Haqqı bəy yolu uzatmayıb Sarıqamışa vaxtında çata bilsəydi... Ruslar Araz boyundakı birliklərini sürətlə geri çəkərkən XI Korpus komandiri onları saxlayaraq düşmən qüvvələrinin möhkəmlənməsinə imkan verməsəydi... Bu "şərtlər"in hamısının bir araya gəlməsi ilə şans rus əsgərlərinin üzünə güləcəkdi.

Amma gəl gör ki, bütün bu çatışmazlıqlarla bir sırada, kimin necə qiymətləndirməsindən asılı olmayaraq başlarında Ənvər Paşa olmaqla böyük bir ordunun uca Yaradana inanıb hər cür çətinliyə, yoxluğa və soyuğa qarşı fövqəladə dərəcədə bir dözüm və mətanətlə qalib gəlmək üçün irəliyə hərəkət etməsi misilsiz bir hərb nümunəsi idi. Sonralar bəzilərinin Ənvər Paşanın öz fərdi ehtirası, şəxsi mənfəətləri üçün ordunu Sarıqamışın önünə çəkməsi iddiaları cəfəng idi, yanlış rəy idi... Bu, nəinki mübariz bir paşaya, həm də onun əmrində "Allah... Allah!" deyib ölüm-dirim döyüşünə girən türk əsgərinə, onun qəhrəmanlığına da ünvanlanan bir həqarətdir, haqsızlıqdır. Çünki Sarıqamış hərəkatı sadəcə bir müharibə məğlubiyyəti deyildi, həm də öz əzminə, səbatına, nəhayət, verdiyi qurbanlarına görə böyük türk millətinin fəxarət dastanı idi...

***Hüseynbala MİRƏLƏMOV***

# İlmələrdə, naxışlarda yazılan tarix

Min illərin tarixi yaddaşında ilmə-ilmə, xana-xana süzülüb gələn xalçaçılıq sənətinin yaşı xalqımızın yaşı qədər qədimdir desək, yanılmarıq. Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bu gün bütün dünyada məşhurdur. Bu bölgələrdə toxunan xalçalar ilmələrinin sıxlığına, rəng çalarlarına, üz ipliyinin xovuna, toxunuşuna və ornamentlərinə görə yaxşı mənada seçilir. Müxtəlif rəng çalarlarına malik Gəncə xalçaları isə hər zaman özünəməxsus üslubu ilə fərqlənib. Hazırda Azərbaycan xalçaları dünyanın ən məşhur muzeylərini bəzəyir.



Bu qədim sənət nümunələrinin ən etibarlı saxlanc yerlərindən biri Azərbaycan xalça muzeyidir. Muzeyin yaranmasından 55 il ötür. 1967-1993-cü illərdə bu incəsənət ocağı Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, 1993-2014-cü illərdə Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, 2014-2019-cu illərdə Azərbaycan Xalça Muzeyi, 2019-cu ildən bu günədək Azərbaycan Milli Xalça Muzeyi kimi fəaliyyət göstərir.

Sənətkarlarımızın yaratdıqları xalça sənəti inciləri yüzilliklər boyu dünyanın bir çox muzeylərini - Nyu Yorkun Metropoliten, Londonun Viktoriya və Albert, Sankt-Peterburqun Ermitaj, Parisin Luvr muzeyini bəzəmişdir.

Qubada toxunan xalçalardan -"Pirəbədil", "Qımıl", "Sırt-Çiçi" zərifliyi, rəsm və naxış elementləri ayrıntılarının nəcibliyi, səthə taxılmış kimi görünən, toxunması belə hiss olunmayan elementləri, xırdalanmış cizgi rəsmi, yığcam rəng qammaları ilə insanı heyran edir. Şirvan xalçalarından - "Muğan", "Şilyan" bir növ ilk - qədim xalçalarımıza oxşayır. Bu xalçalarda qədim xalça kompozisiyaları ciddi ritmlə realizə edilir, sakit kolorit üstündür. Qarabağ xalçaları - "Xanlıq", "Malıbəyli", "Ləmpə"də yüksək kompozisiya ustalığı, ağlasığmaz fantaziya, kolorit əlvanlığı ilə ön planda dayanır. Bakıda hazırlanan xalçalardan - "Xilə Buta"nın, "Novxanı"nın, "Fatmayi"nin zərif cizgi rəsmi, mürəkkəb ornamentləri vardır. Olduqca böyük şərtiliyə əsaslanan "Faxralı", "Şıxlı", "Borçalı", "Qaçağan", "Qədim Göyçə", "Dəmirçilər" kimi Gəncə və Qazax məktəblərinə aid xalçalarda əsasən naxışların həndəsi üslubuna daha çox üstünlük verilir.

Azərbaycan Milli Xalça Muzeyi məhz belə nadir sənət nümunələrini öz kolleksiyasında toplamışdır. Muzeyin zəngin kolleksiyasında qiymətli metaldan hazırlanmış zərgərlik məmulatları, zinət əşyaları və soyuq silahlar; çini, kağız, şüşə, ağac və daş üzərində oyma ilə işlənmiş əşyalar, bədii tikmə, parça və kişi, qadın, uşaq milli geyimləri, zərif naxışlı bədii metal məmulatları və sair xalq tətbiqi sənət nümunələri nümayiş etdirilir. Muzeyin ekspozisiyasında toxuculuğun müxtəlif üsullarını, 10-dan artıq toxunma növünü, onun sirlərini öyrənmək və əyani tanış olmaq olar. Muzeyin nüfuzlu elmi mərkəz kimi tanınması onun beynəlxalq miqyasa çıxışına imkan verir. Muzeyin zəngin maddi və elmi bazası əsasında 1983-1988-ci və 2003-cü illərdə "Şərq xalça sənəti", "Azərbaycan xalça sənəti" və "Azərbaycan xalçası və xalq tətbiqi sənəti" mövzularında I, II və III beynəlxalq simpoziumlar keçirilmişdir. Azərbaycanın mədəni irsinin uzaq və yaxın xaricdə təbliğ edilməsi məqsədilə muzey respublikada və 30-dan artıq xarici ölkədə, Fransa, Avstriya, İsveç, Danimarka, Belçika, Hindistan, Yaponiya, İsrail, Böyük Britaniya, Kuba, İran, Hollandiya, Kamboca, Madaqaskar, Türkiyədə xalça və xalq tətbiqi sənətinə aid sərgilər təşkil etmişdir.

Muzeyin kolleksiyası ardıcıl olaraq yenilənir. Azərbaycan Milli Xalça Muzeyi ötən illər ərzində milli irs nümunələrinin qorunub-saxlanılması və təbliği ilə yanaşı, kolleksiyalarının zənginləşdirilməsi işində də böyük nailiyyətlərə imza atıb. Təqdim olunan nadir sənət nümunələri muzeyin 2022-ci ildə bu istiqamətdə fəaliyyətini uğurla davam etdirdiyindən xəbər verir.

Yeni daxil olan eksponatlar - XVIII əsrin əvvəlinə aid bədii tikmələrin və XIX əsrin ikinci yarısına aid sırğaların adını çəkmək olar. "Pasha Holding"in maliyyə dəstəyi ilə əldə olunmuş Qarabağa aid bədii tikmə nümunəsi kompozisiyasının quruluşu, rəng ahəngdarlığı cəhətdən Azərbaycan tikmələrini fərqləndirən bütün əsas xüsusiyyətləri özündə əks etdirir. XVI əsrə aid bu cür kompozisiyalı tikmələr Səfəvi saray emalatxanalarında hazırlanır və dövrün yüksək dəyərli dekorativ-tətbiqi sənət əsəri sayılırdı. XVII-XVIII əsrlərdə bu tikmələrə olan böyük tələbatı nəzərə alaraq, Bərdə, Naxçıvan, Şamaxı kimi bir çox şəhərlərin emalatxanalarında onlardan bəhrələnməklə yeni nümunələr yaradılıb.

Muzeyin vəsaiti hesabına "Bonhams" hərrac evindən alınan qızıl sırğaların mina və basmaqəlib texnikasında Təbrizdə hazırlandığı qeyd olunur.

Ölkəmizdə xalça sənətinin inkişaf etdirilməsinə və qorunmasına dövlət tərəfindən xüsusi diqqət göstərilir. Xalça muzeyinin şəhərimizin simvoluna çevrilmiş unikal binasının tikilməsi, Heydər Əliyev Fondunun dəstəyi ilə dünya miqyaslı nadir xalçalarımızın tarixi yurduna qaytarılaraq muzeyə bağışlanması böyük əhəmiyyətə malik nailiyyətlərdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "YAŞAT" Fondu daha bir qazinin müalicə xərclərini qarşılayıb

"YAŞAT" Fondu tərəfindən tibb istiqaməti üzrə işlər davam etdirilir. Fondun dəstək göstərdiyi həssas təbəqə nümayəndələrindən biri də Vətən müharibəsi əlili Emin Eminovdur. Belə ki, E.Eminovun müalicə xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb, məişət şəraiti yaxşılaşdırılıb.



Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu, müharibə əlili Emin Eminov 2020-ci il sentyabrın 28-də ön cəbhəyə yollanıb. Vətən müharibəsi dövründə Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının işğaldan azad olunmasında iştirak edən Emin Hadrut istiqamətində aparılan hərbi əməliyyatlardan birində yaralanıb. O, həmin günləri belə xatırlayır: "Hadruta çatmamış yüksəkliklərdən birində mövqe tutmuşduq. Düşmən minaatanlar vasitəsilə olduğumuz mövqeyə zərbələr endirirdi. Həmin vaxt sağ qolumdan yaralandım. Oktyabrın 14-də təxliyə edilib, Füzulidəki, ardınca isə Şirvandakı hospitala göndərildim. Daha sonra Bakıya - Silahlı Qüvvələrin Baş Klinik Hospitalına gətirdilər. Bura gətiriləndə vəziyyətim ağırlaşmışdı. Qolum kəsilmək üzrə idi. Həkimlərin vaxtında və düzgün müdaxiləsi nəticəsində qolumun amputasiyasının qarşısı alındı. Sağ əlimi xilas etmək üçün 12-yə yaxın əməliyyat keçirdim, onlardan dördü ağır idi. Yaralarım sağaldıqdan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi-tədris laboratoriyasında reabilitasiya prosedurlarından keçməyə başladım. Sağ əlimlə yaza bilməsəm də, sol əllə yazmağı öyrənmişəm. Ümumiyyətlə, sağ əlimin funksiyalarını tam bərpa edə bilməmişik, lakin müəyyən hissəsini geri qaytara bilmişik".

E.Eminov bildirib ki, xəstəxanadan evə gələndən sonra "YAŞAT" Fondunun əməkdaşları onunla əlaqə saxlayıb, ehtiyaclarını öyrəniblər: "Fond həm müalicə xərclərimə, həm də məişət şəraitinin yaxşılaşdırılmasına yardım göstərdi. Fondun rəhbərliyinə də, ianə edənlərə də minnətdaram".

Qeyd edək ki, qazi hazırda "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətində əmək fəaliyyətini davam etdirir.

Fond tərəfindən görülən işlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" (https://yashat.gov.az/report/tableau) bölməsindən əldə etmək mümkündür.

# "Azərişıq" ASC-nin sədri Şəmkirdə vətəndaşlarla görüşəcək

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov noyabrın 23-də saat 10:00-da Şəmkir şəhərində Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul edəcək.



Qəbul Şəmkir şəhəri, Cahangir Əliyev, 33 ünvanında yerləşən "Azərişıq" ASC-nin Şəmkir İdarəetmə və Nəzarət Mərkəzində keçiriləcək.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutacaq.

Qəbulda iştirak etmək istəyən şəxslər Şəmkir Elektrik Şəbəkəsinə və ya "Azərişıq" ASC-nin 199 çağrı mərkəzinə, onlayn isə info@azerishiq.az elektron poçt ünvanına müraciət etməklə qeydiyyatdan keçə bilərlər.

Vətəndaşların diqqətinə çatdırırıq ki, qəbulda müraciətlər yalnız "Azərişıq" ASC-nin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı olmalıdır.

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, qəbulda peyvənd və ya immun sertifikatı, eləcə də əks-göstəriş sertifikatı olan şəxslər iştirak edə bilərlər.

# "Azərenerji" payız-qış mövsümünə hazırdır

2022-2023-cü ilin payız-qış mövsümünə hazırlıq çərçivəsində "Azərenerji" ASC-nin müəssisələrində müvafiq tədbirlər həyata keçirilib.



Ölkənin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi, ixrac imkanlarının genişləndirilməsi, enerjinin istehsalı və ötürülməsi üzrə plan tapşırıqlarının yerinə yetirilməsi, enerji müəssisələrində açılma və imtinaların sayının minimuma endirilməsi qarşıya əsas vəzifə olaraq qoyulub.

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, bu məqsədlə enerji müəssisələrində planlı təmir-bərpa, yenidənqurma işləri həyata keçirilib. Lazımi yanacaq ehtiyatı tədarük edilib. Bundan başqa, əsas və köməkçi avadanlıqların təmiri təyin edilmiş normalara uyğun keyfiyyətlə yerinə yetirilib. Elektrik stansiyalarında texniki göstəricilərin yaxşılaşdırılması üzrə mühüm tədbirlər görülüb.

Həyata keçirilmiş təmir işləri qiymətləndirildikdən sonra "Azərenerji" ASC-də yaradılmış Aidiyyəti Tədbirlər Planının yerinə yetirilməsi üzrə Komissiya tərəfindən müəssisələrə 2022-2023-cü ilin payız-qış mövsümünə "Hazırlıq Pasportu"nun verilməsi qərara alınıb.

# Ölkə ərazisində gecə və səhər bəzi yerlərdə duman olacaq

Azərbaycanda noyabrın 23-nə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Gün ərzində arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 10-14°, gündüz 15-17° isti, Bakıda gecə 12-14° isti, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-11°, gündüz 16-21° isti, dağlarda gecə 3-8°, gündüz 9-14° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 15-19° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 9-14° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 9-14° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 16-21° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 15-20° isti, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 7-11°, gündüz 16-21° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 8-11°, gündüz 15-19° isti, dağlarda gecə 9-11°, gündüz 14-17° isti olacaq.





## OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC pirotexniki vasitələrin utilizasiyası (məhv edilməsi) üzrə xidmətlərin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 noyabr 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***








## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı
**NAZİM BABABƏYLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov və qardaşı Bakı Dövlət Universitetinin professoru, AMEA-nın müxbir üzvü Vaqif İbrahimov ailələri ilə birlikdə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı
**NAZİM BABABƏYLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov və akademiyanın kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı
**NAZİM BABABƏYLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı
**NAZİM BABABƏYLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ədliyyə Nazirliyi Penitensiar xidmətin rəis müavini Məhərrəm Qafarov və Penitensiar xidmətin Maliyyə-iqtisadiyyat idarəsinin rəisi Sərxan Xəlilov Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Hərbi qurumların və hüquq-mühafizə orqanlarının maliyyəsi şöbəsinin sektor müdiri Vüqar Şıxməmmədova atası
**FEVRAL ŞIXMƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Azad Həmkarlar İttifaqının sədri, professor Habil Qurbanov Babayevlər ailəsinə əzizləri, professor
**NAZİM BABABƏYLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Mətləb İmanova bacısı
**RÜBABƏ NAMAZOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı
**NAZİM BABABƏYLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanlığı və professor-müəllim heyəti BDU-nun rektoru Elçin Babayevə qardaşı
**NAZİM BABABƏYLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Vasif Babazadə ailəsi ilə birlikdə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı
**NAZİM MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 6507**
**Sifariş 3312**
**Qiyməti 40 qəpik**